RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 258 (10003) 6 dekabr 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Ermənistandakı Azərbaycan mədəni irsinin bərpası və qorunması Azərbaycan xalqının legitim tələbidir

### "Mədəni irs və qayıdış hüququ: Ermənistandan didərgin salınmış azərbaycanlıların mədəni irsinin bərpası - ədalətə, barışığa və sülhə aparan yol kimi" mövzusunda III beynəlxalq konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi "Mədəni irs və qayıdış hüququ: Ermənistandan didərgin salınmış azərbaycanlıların mədəni irsinin bərpası - ədalətə, barışığa və sülhə aparan yol kimi" mövzusuna həsr olunmuş III beynəlxalq konfransda ürəkdən salamlayıram.

Qədim dövlətçilik və mədəniyyət tarixinə malik Azərbaycan xalqı son iki əsrdə dəfələrlə məhrumiyyətlər, deportasiyalar və soyqırımları ilə üz-üzə qalmış, ermənilərin Azərbaycanın əzəli torpaqlarına köçürülməsindən sonra - 1905-1907, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə azərbaycanlılara qarşı törədilən qırğınlar və qanunsuz köçürmələr nəticəsində yüz minlərlə soydaşımız öz doğma yurdunu tərk edərək Azərbaycana sığınmışdır.

Ermənistan ərazisində yaşayan azərbaycanlıların dağlıq bölgələrdən daha isti iqlimi olan yerlərə zorla köçürülməsi, onların illərlə qurub-yaratdıqları mülkiyyətin mənimsənilməsi, maddi-mədəniyyət nümunələrinin ələ keçirilərək dağıdılması və özgəninkiləşdirilməsi bu gün mötəbər sənədlərlə sübuta yetirilən tarixi faktlardır.

Ermənistan tarixən Qərbi Azərbaycanda yaşamış azərbaycanlıların zəngin maddi və qeyri-maddi mədəni irsini, müqəddəs inanc yerlərini, qəbiristanlıqlarını öz ərazisindən Azərbaycan xalqının izlərini silmək məqsədilə zaman-zaman məhv etmişdir. Ermənilərin azərbaycanlılara qarşı insanlıq əleyhinə cinayətlərinin beynəlxalq hüquq müstəvisində qiymətləndirilməsi üçün lazımi addımlar atılması və beynəlxalq ictimaiyyətin bu məsələdə bizə dəstəyi olduqca əhəmiyyətlidir.

Bu gün Ermənistandan zorla çıxarılmış azərbaycanlıların qayıdışının Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktda, Qaçqınların statusu haqqında Konvensiyada və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geriyə qayıdış hüququ çərçivəsində təmin edilməsi, eləcə də mədəni irsin bərpası və qorunması ilə bağlı beynəlxalq ictimaiyyətin, o cümlədən BMT-nin ixtisaslaşmış qurumlarının iştirakı ilə prosesin başladılması üçün səylərin artırılması vacibdir. Çünki qayıdış hüququ insan hüquqlarının təməl prinsiplərindən biridir. Bu hüququn təmin edilməsi təkcə doğma yurda fiziki dönüş deyil, həm də toplumun mənəvi bütövlüyünün, mədəni irsinin və tarixi yaddaşının bərpası deməkdir.

Ermənistandakı Azərbaycan mədəni irsinin bərpası və qorunması Azərbaycan xalqının legitim tələbi olmaqla, ümumbəşəri dəyərlərə hörmət, düşmənçilik səhifəsinin qapanması, xalqlar arasında qarşılıqlı anlaşma üçün zəruridir.

Deportasiya və qırğınlardan birbaşa əziyyət çəkən insanları özündə birləşdirən Qərbi Azərbaycan İcmasının təmkinli, konstruktiv yanaşması, barışıq və dialoqa açıq olması, öz fəaliyyətini beynəlxalq hüquqa uyğun qurması, dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə hörmət etməsi təqdir olunmalıdır.

2025-ci il avqustun 8-də Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının vasitəçiliyi ilə Azərbaycan və Ermənistanın bir araya gəlməsi, Birgə Bəyannamənin imzalanması və sülh sazişi layihəsinin paraflanması hər iki xalqın gələcək birgəyaşayışının təmin olunması üçün ümid və inam yaradır.

İnanırıq ki, Qərbi Azərbaycan İcmasının sülhsevər üzvləri öz ata-baba yurdlarına qayıdacaq və xalqlarımız arasında mehriban qonşuluq münasibətləri yaranacaqdır.

Artıq beynəlxalq platformaya çevrilən bu ənənəvi beynəlxalq konfransın işinə uğurlar arzulayır, keçiriləcək müzakirələrin mədəni irsin qorunmasına və qayıdış hüququ barədə anlaşmaya, soydaşlarımızın doğma torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə qayıdışına töhfə verəcəyinə, barışıq və sülhə aparan yolda mühüm addım olacağına əminliyimi bir daha vurğulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2025-ci il*

## İlham Əliyevin enerji siyasəti



### Bu il Zəfər tariximizin adını daşıyan müstəqillik dövrünün ən iri elektrik stansiyası istifadəyə verildi

"Hər bir ölkənin energetika sistemi onun döyünən ürəyidir, əsas motorudur. Bu olmasa, heç nə olan deyil. Bu olmasa, heç bir inkişafdan, heç bir investisiya qoyuluşundan söhbət gedə bilməz. Ona görə enerji olmayan yerdə inkişaf yoxdur". 2020-ci il iyunun 25-də Mingəçevir şəhərində yenidən qurulmuş "Azərbaycan" İES-in açılış mərasimində Prezident İlham Əliyevin dediyi bu sözlər, ümumiyyətlə, ölkəmizdə həmin istiqamətdə aparılan genişmiqyaslı işləri xarakterizə edir.

Yola salmağa hazırlaşdığımız 2025-ci il ərzində də respublikanın müxtəlif yerlərində yeni elektrik stansiya və yarımstansiyaları istifadəyə verilib. Bu il istifadəyə verilən həmin enerji obyektləri əsasən regionları əhatə edir. Prezident İlham Əliyevin bu enerji obyektlərinin hər birinin açılışında iştirak etməsi onların əhəmiyyətinə bir daha diqqət çəkir.

İyunun 24-də dövlətimizin başçısı Mingəçevirdə yeni enerji nəhənginin - 1880 meqavatlıq elektrik stansiyasının açılışını etdi. Yeni stansiya üçün təklif olunan adlar sırasında Prezidentimiz məhz "8 Noyabr"ı seçib. "Çünki bu, bizim şanlı Zəfərimizin tarixidir. Zəfər xalqımıza, dövlətimizə yaraşır". Stansiyanın açılışındakı çıxışında dövlətimizin başçısı bunu bir daha vurğuladı.

Yeni stansiya Mingəçevirin nəinki Azərbaycanın, bütövlükdə Cənubi Qafqazın energetika mərkəzi statusunu daha da gücləndirdi. Belə ki, hazırda ölkəmizin elektrik enerjisinin 40 faizindən çoxu bu şəhərdə istehsal olunur.

"8 Noyabr" Elektrik Stansiyasının istifadəyə verilməsi həm də Azərbaycanın yaratdığı beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platformasının daha bir təsdiqidir. Belə ki, bu önəmli layihə İtaliya və Çin şirkətləri ilə birlikdə araya-ərsəyə gəlib. Stansiyanın açılışında sözügedən bu iki ölkənin strateji tərəfdaşlarımız olduğu qeyd edildi. O da diqqətə çatdırıldı ki, "8 Noyabr" stansiyasının istismara verilməsi bir çox məqsədləri təmin edəcək.

5

### Azərbaycan sözünə, imzasına sadiq olan ölkədir



Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması, gözlənildiyi kimi, bütövlükdə regionun siyasi, ictimai vəziyyətinə müsbət təsir göstərəcək. Cənubi Qafqazın adı bundan sonra qanlı-qadalı müharibənin baş verdiyi məkan deyil, sabitliyin bərqərar olduğu bir region olaraq çəkiləcək. Azərbaycan dövləti sülhə aparan yolda qətiyyətlə addımlayaraq, yenə də sözünə, imzasına sadiq olduğunu nümayiş etdirir. Və hər zaman olduğu kimi, bu məsələdə də vətəndaşları Azərbaycan dövlətinin yanındadır. Birlik, bərabərlik ölkəmizin ən zəngin sərvəti, ən böyük nailiyyətidir.

Təəssüf ki, eyni fikirləri Ermənistanla bağlı söyləmək mümkün deyil. Azərbaycanın daha iyirmi faiz torpaqlarını zəbt etmək üçün 1980-ci illərin sonlarından körüklədikləri münaqişə ocağını alovlandıraraq 1990-cı illərdə müharibəyə çevirən təcavüzkar ermənilər o zaman Qarabağı və Şərqi Zəngəzuru işğal etməklə məqsədlərinə çatmış kimi görünsələr də, o torpaqların, o yerlərin əzəli sakinlərinin qisasları qiyamətə qalmadı.

6

### "Mədəni irs və qayıdış hüququ" mövzusunda beynəlxalq konfrans keçirilib

**Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə "Mədəni irs və qayıdış hüququ: Ermənistandan didərgin salınmış azərbaycanlıların mədəni irsinin bərpası - ədalətə, barışığa və sülhə aparan yol kimi" mövzusunda ənənəvi III beynəlxalq konfrans keçirilib.**

3



### Ordu quruculuğu prosesi Zəfərə hesablanmışdır



Yurdun xilası, torpaqların işğaldan azad olunması üçün xalqımızın ümid dolu baxışları günü-gündən güclənən Azərbaycan Ordusuna, onun cəsur, vətənpərvər, döyüş hazırlığı yüksək olan zabit və əsgərlərinə dikilmişdi. Yalnız və yalnız Azərbaycan Ordusu düşmənlərə güclü zərbələr vurmaqla torpaqlarımızı işğaldan azad edə bilərdi. Azərbaycan Prezidenti İlham Əliyev Silahlı Qüvvələrimizin daha da gücləndirilməsi, ən müasir silahlarla təmin olunması üçün daim ordu quruculuğuna böyük diqqət və qayğı göstərirdi.

10

### Qətiyyətli siyasətin diktəsi




Torpaqlarının 20 faizi işğal altında olanda belə münaqişənin sülh yolu ilə tənzimlənməsi tərəfdarı olan ölkəmiz döyüş yolu ilə ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra da sülh təşəbbüslərini irəli sürməklə dünyada nümunə yaradıb. İkinci Qarabağ müharibəsi başa çatandan dərhal sonra Azərbaycan sülh üçün lazım olan vacib addımları atmağa başlayıb, iki ölkə arasında münasibətlərin normallaşması üçün qarşı tərəfə beynəlxalq hüququn norma və prinsiplərinə cavab verən 5 baza prinsip təqdim edib. Ancaq Ermənistanın qeyri-konstruktivlik sərgiləməsi və üçüncü tərəflərin müdaxiləsi bir neçə il ərzində sülh istiqamətində hansısa irəliləyişlərin əldə olunmasına mane olub. Bunun başlıca səbəblərindən biri də İrəvanın Bakı ilə birgə ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı birgə müraciətdən yayınması idi.

6

# Tailandın Kralı əlahəzrət Maha Vajiralongkorn Phra Vajiraklaochaoyuhuaya

Əlahəzrət!

Tailand Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Bu gün Azərbaycan ilə Tailand arasında əlaqələrin inkişaf etdirilməsi üçün böyük potensial mövcuddur. İnanıram ki, xalqlarımızın rifahı naminə bu imkanlardan yararlanaraq dostluq əlaqələrimizin möhkəmlənməsi, səmərəli əməkdaşlığımızın həm ikitərəfli, həm də çoxtərəfli müstəvilərdə genişlənməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Tailand Krallığının dost xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 dekabr 2025-ci il*

# Peşə təhsili sisteminin potensialının gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Əmək bazarının tələblərinə uyğun səriştələr formalaşdıran yüksəkkeyfiyyətli peşə təhsili məşğulluq səviyyəsinin və əmək məhsuldarlığının artırılmasına mühüm töhfə verir. Bu sahəyə yönəlmiş tədbirlərin həyata keçirilməsinin vacibliyi son illərdə qəbul edilmiş bir sıra sənədlərdə, o cümlədən Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda öz əksini tapmışdır.

Ölkənin dinamik inkişafı və əmək bazarının dəyişən tələbləri əmək bazarında rəqabətqabiliyyətli ixtisaslı kadr potensialına tələbatı artırmaqla yanaşı, bu tələbatın ödənilməsinə imkan verən müasir standartlara uyğun infrastruktura və tədris bazasına malik yeni peşə təhsili müəssisələrinin yaradılmasını zəruri edir.

Müasir standartlara uyğun infrastruktura və tədris bazasına malik yeni peşə təhsili müəssisələrinin yaradılması peşə təhsilli şəxslərin əmək bazarında xüsusi çəkisini artırmaqla müxtəlif peşələr üzrə ixtisaslı kadrların hazırlanmasını təmin edəcəkdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, peşə təhsili sisteminin potensialının gücləndirilməsi məqsədiilə **qərara alıram:**

1. 2026-2030-cu illərdə müasir standartlara cavab verən 21 peşə təhsili müəssisəsinin tikintisi və 2 peşə təhsili müəssisəsinin əsaslı təmiri işlərinin aparılması təmin edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikasında peşə təhsili sisteminin potensialının gücləndirilməsinə dair tədbirlər planını dörd ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi bu Sərəncamın 1-ci hissəsində tikintisi və əsaslı təmiri nəzərdə tutulmuş peşə təhsili müəssisələrinin siyahısını təsdiq etsin və bu məqsədlə tələb olunan maliyyə vəsaitinin illər üzrə bölgüsünü hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Dövlət Neft Fonduna təqdim etsin.

4. Azərbaycan Respublikasının Dövlət Neft Fondu bu Sərəncamın 1-ci hissəsində göstərilmiş tədbirlərin icrası üçün tələb olunan maliyyə vəsaitini Fondun hər il üçün tərtib edilən büdcəsində nəzərdə tutsun.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2025-ci il*

# "Kənd təsərrüfatı təyinatlı torpaqlarda inşa edilməsi və ya quraşdırılması nəzərdə tutulan müvəqqəti tikililər barədə məlumatlandırma Qaydaları"nın təsdiqi və Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 dekabr tarixli 2432 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminin Əsasnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1194-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Kənd təsərrüfatı təyinatlı torpaqlarda inşa edilməsi və ya quraşdırılması nəzərdə tutulan müvəqqəti tikililər barədə məlumatlandırma Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 dekabr tarixli 2432 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, №12 (I kitab), maddə 1693 (Cild I) ilə təsdiq edilmiş "Şəhərsalma və tikinti fəaliyyətininvahid informasiya təminatı sisteminin Əsasnaməsi"nin 6.3.5.4-cü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 6.3.6-cı yarımbənd əlavə edilsin:

"6.3.6. məlumatlandırma mexanizmi sahəsində:

6.3.6.1. sifarişçi tərəfindən Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 13-cü maddəsinin 2-ci hissəsinin birinci cümləsində nəzərdə tutulmuş müvəqqəti tikililər (bundan sonra - müvəqqəti tikililər) barədə məlumatlandırılan orqana məlumatların və sənədlərin təqdim edilməsi;

6.3.6.2. məlumatlandırılan orqan tərəfindən müvəqqəti tikililərin vahid uçotunu aparmaq məqsədilə müvafiq məlumatların və sənədlərin elektron qaydada Tikintilərin Dövlət Reyestrinə ötürülməsi;

6.3.6.3. Tikintilərin Dövlət Reyestrində müvəqqəti tikililər barədə məlumatlar və sənədlər təhlil edildikdən sonra sənədlər tam olduğu halda müvəqqəti tikililərə dair məlumatların reyestrdə uçota alınması və bu barədə sifarişçiyə sistem vasitəsilə dərhal bildiriş göndərilməsi, sənədlər tam olmadığı halda isə onların tamamlanması üçün zəruri hərəkətlər barədə məlumatlandırılan orqana və sifarişçiyə məlumat göndərilməsi;

6.3.6.4. məlumatlandırılan orqan tərəfindən müvəqqəti tikili barədə məlumatların və sənədlərin sistem vasitəsilə EHİS üzərindən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə ötürülməsi;

6.3.6.5. məlumatlandırılan orqanı məlumatlandırmaqla, sifarişçi tərəfindən müvəqqəti tikilinin sökülməsi barədə məlumatların Tikintilərin Dövlət Reyestrinə ötürülməsi.".

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2025-ci il*

# "Etibarlı Tərəfdaş Konsepsiyası"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin və şəffaflığının artırılması, eləcə də iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsi məqsədilə **qərara alıram:**

1. "Etibarlı Tərəfdaş Konsepsiyası" (bundan sonra - Konsepsiya) təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Konsepsiyada nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti həyata keçirsin;

2.2. Konsepsiyada nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Konsepsiyada nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2025-ci il*

# TDT-dən olan nazirlər 1 saylı DOST Mərkəzində olublar

**Ölkəmizdə keçirilən Türk Dövlətləri Təşkilatı (TDT) əmək, məşğulluq və sosial müdafiə nazirlərinin birinci iclasının iştirakçıları 1 saylı DOST Mərkəzi ilə tanış olublar.**

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev Prezident İlham Əliyevin 2018-ci il 9 avqust tarixli fərmanı ilə yaradılan DOST Agentliyi və DOST mərkəzlərinin fəaliyyəti barədə qonaqlara məlumat verib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Birinci vitse-prezident Mehriban xanım



Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası əsasında dövlət sosial xidmətlərinin "bir pəncərə"dən, operativ, şəffaf, vətəndaş məmnunluğuna uyğun təqdim edildiyi vurğulanıb. DOST konsepsiyasının üstünlükləri və beynəlxalq uğurları diqqətə çatdırılıb.

TDT əmək, məşğulluq və sosial müdafiə nazirlərinin birinci iclasının iştirakçıları DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində olublar. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan mərkəzdə əhalinin həssas qruplarına aid şəxslərin yaradıcı potensialının inkişaf etdirilməsi üçün aparılan işlər diqqətə çatdırılıb.

Müəssisədə həyata keçirilən yaradıcılıq prosesi, burada hazırlanan əl işləri ilə tanış olan qonaqlar üçün mərkəzin təlimçi və benefisiarlarının ifasında konsert proqramı təqdim olunub.

# Baş nazir Əli Əsədov Bakıda keçirilən TDT-yə üzv dövlətlərin əmək, məşğulluq və sosial müdafiə nazirlərinin birinci iclasının iştirakçıları ilə görüşüb



**Dekabrın 5-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Bakıda keçirilən Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin əmək, məşğulluq və sosial müdafiə nazirlərinin birinci iclasının iştirakçıları ilə görüşüb.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, görüşdə TDT-yə üzv dövlətlərin əmək, məşğulluq və sosial müdafiə nazirlərinin birinci iclasının əhəmiyyəti vurğulanıb.

TDT-yə üzv ölkələr arasında müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın qurulduğu məmnunluqla qeyd olunub.

Azərbaycanın sədrliyi çərçivəsində təşkilatın öz inkişafını davam etdirəcəyinə və beynəlxalq müstəvidə nüfuzunu daha da artıracağına əminlik ifadə olunub.

Azərbaycanın əmək və məşğulluq sahəsində dövlət siyasəti, ölkədə aparılan ardıcıl sosial islahatlar barədə söhbət açılıb. Bildirilib ki, innovativ iqtisadiyyatın yaradılması, əmək məhsuldarlığının yüksəldilməsi və sosial rifahın artırılması Azərbaycan Prezidenti tərəfindən dövlət siyasətinin strateji məqsədi kimi müəyyənləşdirilib.

Görüşdə türk dövlətləri arasında əmək, məşğulluq və sosial müdafiə sahəsində əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

# Bakıda TDT-yə üzv və müşahidəçi ölkələrin əmək, məşğulluq və sosial müdafiə nazirlərinin birinci iclası keçirilib




**Bakıda Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi ölkələrin əmək, məşğulluq və sosial müdafiə nazirlərinin birinci iclası keçirilib.**

"Türk dövlətlərində ortaq rifah naminə əmək sahəsində əməkdaşlıq" adı ilə keçirilən iclasda təşkilata üzv olan - Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstanın və müşahidəçi ölkələrin (Şimali Kipr Türk Respublikası, Macarıstan, Türkmənistan) əmək, məşğulluq, sosial müdafiə qurumlarının və TDT-nin rəhbər şəxsləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev bildirib ki, TDT-yə üzv ölkələrlə əlaqələrin genişləndirilməsi, Türk dünyasının gücləndirilməsi ölkəmizin prioritetlərindən biridir.

Nazir son illər ölkəmizdə aparılan sosial islahatlar, dövlət sosial xidmətlərinin rəqəmsallaşdırılması istiqamətində əldə olunan nailiyyətləri, DOST konsepsiyasının üstünlüklərini, işğaldan azad edilmiş ərazilərdə keçmiş məcburi köçkünlərin məşğulluğunun təminatı üçün görülən işləri diqqətə çatdırıb. O, Azərbaycanın məşğulluq və sosial müdafiə sahəsində qazandığı təcrübəni və əldə etdiyi uğurları




təşkilata üzv dövlətlərlə bölüşməkdə, habelə həmin dövlətlərin bu sahədə qazandığı təcrübəni öyrənməkdə maraqlı olduğunu qeyd edib. O, görüşün ölkələr üçün daha inklüziv və dayanıqlı sosial inkişaf modelinin yaranmasına töhfə verəcəyinə əminliyini bildirib.

TDT-nin baş katibi Kubanıçbek Ömüralıyev təşkilata üzv ölkələr arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində əməkdaşlığın genişləndirilməsinin mühüm prioritetlərdən olduğunu və hazırkı iclasın bu məqsədə xidmət etdiyini vurğulayıb.

Türkiyənin əmək və sosial müdafiə naziri Vedat İşıkhan türk dövlətlərinin əmək, məşğulluq və sosial müdafiə nazirlərinin bu gün ilk dəfə bir araya gəlməsinin, "Türk Dünyası 2040 Vizyonu" rəhbər tutulmaqla, əmək, məşğulluq və sosial müdafiə sahəsində də əməkdaşlığın inkişaf etdirilməsinin xüsusi önəmini vurğulayıb.

Qırğızıstanın əmək, sosial təminat və miqrasiya nazirinin birinci müavini Kamçıbek Dosmatov əlaqələndirilmiş tədbirlərin əməkdaşlıq üçün vacibliyini, əmək bazarının inkişaf etdirilməsi ilə bağlı fikirlərini diqqətə çatdırıb.

Ortaq köklər və ortaq strateji məqsədlərin türk ölkələrini birləşdirdiyini vurğulayan Özbəkistanın məşğulluq və yoxsulluğun azaldılması nazirinin müavini Sirojiddin Bobokulov işçi qüvvəsinin bacarıqlarının inkişafına investisiya qoyulması, əməyin təhlükəsizliyi, sosial dialoqun gücləndirilməsi və s. sahələrdə birgə fəaliyyətin önəmini qeyd edib.

Qazaxıstanın əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Viktoriya Şeqay ölkəsində əmək və məşğulluq, sosial müdafiə sahəsində rəqəmsal həllərin geniş tətbiqi işlərindən bəhs edib, bu sahədə əməkdaşlığın dərinləşdirilməsinə sadiq olduqlarını bildirib.

Şimali Kipr Türk Respublikasının (ŞKTR) əmək və sosial müdafiə naziri Oğuzhan Hasipoğlu ölkəsində aparılan sosial islahatlar barədə məlumat verib. O, Azərbaycanın DOST təcrübəsinin türk dünyasında nümunəvi bir model olduğunu deyib.

Macarıstanın Milli İqtisadiyyat Nazirliyinin məşğulluq siyasəti üzrə dövlət katibi Sandor Czomba və Türkmənistanın əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Halbibi Tachjanova tədbirin əmək, məşğulluq, sosial müdafiə sahələrində əməkdaşlığın inkişafı üçün mühüm platforma yaratdığını bildiriblər.

Daha sonra Türk Dövlətləri Təşkilatının əmək, məşğulluq və sosial müdafiə nazirlərinin birinci iclasının Bəyannaməsi imzalanıb. Sənəddə təşkilata üzv və müşahidəçi dövlətlər arasında əmək qanunvericiliyi, əmək hüquqlarının qorunması, əmək mühitində sağlamlıq və təhlükəsizlik, gender bərabərliyi və s. istiqamətlərdə əməkdaşlığın gücləndirilməsi, bunun üçün görüləcək tədbirlər, nazirliklər arasında Əmək, Məşğulluq və Sosial Müdafiə məsələləri üzrə İşçi Qrupun yaradılması nəzərdə tutulur.

# "Mədəni irs və qayıdış hüququ" mövzusunda beynəlxalq konfrans keçirilib

**Dekabrın 5-də Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə "Mədəni irs və qayıdış hüququ: Ermənistandan didərgin salınmış azərbaycanlıların mədəni irsinin bərpası - ədalətə, barışığa və sülhə aparan yol kimi" mövzusunda ənənəvi III beynəlxalq konfrans keçirilib.**





AZƏRTAC xəbər verir ki, konfransda dünyanın 60-dan çox ölkəsini təmsil edən 100-ə yaxın qonaq, Azərbaycandan 100-dən çox ekspert, alim, ictimai xadim və dövlət rəsmiləri, Milli Məclisin deputatları iştirak ediblər.

Konfransın açılışında Qərbi Azərbaycan İcmasının ölkədaxili və beynəlxalq fəaliyyətindən, Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin Qərbi Azərbaycan məsələsinə həssas münasibətindən bəhs edən film nümayiş etdirilib.

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub.

Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı və Qayıdış üzrə Təşəbbüs Qrupunun sədri Əziz Ələkbərli icmanın əsas missiyasının 200 ildən artıq müddətdə mərhələ-mərhələ Ermənistandan qovulmuş azərbaycanlıların dinc, təhlükəsiz və ləyaqətli şəkildə öz yurdlarına qayıdış hüququnu təmin etmək olduğunu deyib və Ermənistanla sülh prosesinin irəliləməsi fonunda ermənilərin və azərbaycanlıların birgəyaşayışının yeganə yolunun qayıdış hüququnun tanınması olduğunu vurğulayıb. O, beynəlxalq ictimaiyyəti bu ədalətli prosesə dəstək verməyə çağırıb.



Xarici qonaqlar adından Türkiyə Böyük Millət Məclisinin deputatı, Qərbi Azərbaycan İcmasının fəxri üzvü Şamil Ayrım çıxış edərək qardaşlıq mesajını çatdırıb və qərbi azərbaycanlıların deportasiyalarının insanlığa qarşı törədilmiş ağır cinayət, regionda balansı pozmuş tarixi ədalətsizlik olduğunu qeyd edib. Türkiyənin həmişə Azərbaycan xalqının yanında olduğunu vurğulayan natiq Ermənistanın monoetnik dövlətə çevrilməsinin nəticələrinin regionda yaratdığı təhlükələri diqqətə çatdırıb və qayıdışın ədalət və sülh üçün vacib olduğunu bildirib.

Açılış sessiyasından sonra Türkiyə, ABŞ, Cənubi Afrika Respublikası, İtaliya, Litva və Misiri təmsil edən, Qərbi Azərbaycan məsələsinə böyük dəstəyini göstərən 7 şəxsə Qərbi Azərbaycan İcmasının fəxri üzvlük sertifikatları təqdim olunub.

Milli Məclisin deputatı, ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin moderatorluq etdiyi konfransın qayıdış hüququnun hüquqi və mənəvi əsaslarının təhlilinə həsr olunmuş ilk panelində çıxış edən İbn Haldun Universitetinin Heydər Əliyev adına Avrasiya Araşdırmalar Mərkəzinin direktoru professor Yaşar Sarı, fransalı tarixçi Maxime Gauin, Harvard Universitetinin tədqiqat direktoru Mark Nathan Kramer, eləcə də İspaniyanın Pan-Avropa təşkilatını təmsil edən professor Carlos Uriarte beynəlxalq təcrübə fonunda qayıdış hüququnun dövlətlərarası münasibətlərdəki yerindən və Ermənistanın üzərinə düşən humanitar öhdəliklərdən bəhs edib.

Böyük Britaniyadan Klaus-Peter Ralf Juergensin moderatorluq etdiyi maddi irsin qorunması məsələlərinə həsr edilmiş ikinci paneldə çıxış edən Pakistan Ali Məhkəməsinin vəkili Muhammad Sohail Sajid, İtaliya-Azərbaycan Assosiasiyasının vitse-prezidenti Carlo Marino, İndoneziya İƏT Gənclər Təşkilatının prezidenti Astrid Nadya Rizqita və amerikalı professor Michael Martin Gunter Ermənistan ərazisində Azərbaycan irsinə qarşı aparılmış dağıdıcılığın hüquqi qiymətləndirilməsi və bərpa imkanları barədə fikirlərini bölüşüblər.

Polşadan AVIM təmsilçisi Jakub Koreybanın moderatorluq etdiyi "Qeyri-maddi irs - aşıq sənəti, musiqi, folklor, şifahi yaddaş, mədəni ənənələr" mövzusuna həsr edilən üçüncü paneldə çıxış edən Bolqar Elmlər Akademiyasının professoru Nadia Boyadjieva, "art-Xchange Global" təşkilatının direktoru Ornela Ramasauskaite, İordaniya Haşimi Universitetindən professor Moh'd Vahib Ali Hussein və isveçli rejissor Mikael Silkeberg çıxışlarında mədəniyyətin qaçqınlığa məruz qalmış icmaların kimliyini qorumaqda rolunu və Qərbi Azərbaycan irsinin dünyaya tanıdılması yollarını vurğulayıblar.

ABŞ-nin Qrinsboro Universitetinin professoru Ali Kaan Askerin moderatorluq etdiyi beynəlxalq əməkdaşlığa həsr olunmuş sonuncu paneldə çıxış edən Türkiyə Milli Müdafiə Universitetinin dekanı İbrahim Ethem Atnur, Almaniyanın BWA Qlobal İqtisadi Şəbəkəsinin federal direktoru Urs Emil Unkauf, Latviyanın Nəqliyyat və Telekommunikasiya İnstitutunun professoru Juris Maklakovs və Qırğızıstandan sabiq səfir, Kairat Osmonaliyev qayıdış hüququnun müdafiəsində qlobal həmrəyliyin gücləndirilməsi, təşkilatlararası əməkdaşlığın genişləndirilməsi və beynəlxalq hüquqi alətlərin səmərəli tətbiqindən danışıblar.

Daha sonra Beynəlxalq Final Universitetinin professoru, Qərbi Azərbaycan İcmasının fəxri üzvü Hüseyin İşıksal konfransın yekun sənədini səsləndirib, sonra Qərbi Azərbaycan İcması adından icmanın Nəzarət-Təftiş Komissiyasının sədri professor Vahid Novruzov çıxış edərək konfransın nəticələrini yüksək qiymətləndirib və icmanın apardığı haqq işinə dəstək verən konfrans iştirakçılarına təşəkkürünü bildirib.

Tədbir Ermənistandan didərgin salınmış azərbaycanlıların mədəni irsinin bərpasının təkcə tarixi ədalət deyil, həm də regionda dayanıqlı sülhün və sabitliyin bərqərar olması üçün mühüm şərt olduğunu bir daha təsdiqləyib. Qərbi azərbaycanlıların qaçqınlıq həyatı, onların maddi və qeyri-maddi irsinin sistemli şəkildə dağıdılması, təhrif edilməsi və mənimsənilməsi ilə bağlı geniş məlumat əldə edən konfrans iştirakçıları mədəni irsin qorunması, bərpası və gələcək nəsillərə ötürülməsi istiqamətində beynəlxalq əməkdaşlığın gücləndirilməsinə çağırış ediblər.

Sonra "Mədəni irs və qayıdış hüququ: Ermənistandan didərgin salınmış azərbaycanlıların mədəni irsinin bərpası - ədalətə, barışığa və sülhə aparan yol kimi" mövzusunda III beynəlxalq konfransın yekun sənədi oxunub.

# Bakıda Azərbaycan-Gürcüstan Media Forumu





**Bakıda "İctimai etimadın formalaşdırılmasında medianın rolu və informasiya təhlükəsizliyi" mövzusunda Azərbaycan-Gürcüstan Media Forumu keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirin açılışında Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov çıxış edərək iki ölkə arasında informasiya mübadiləsinin sistemli şəkildə genişləndirilməsi, media subyektlərinin arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, ortaq kommunikasiya gündəminin formalaşdırılmasının regionda sabitlik və davamlı inkişaf baxımından xüsusi əhəmiyyət daşıdığını bildirib. O vurğulayıb ki, rəqəmsallaşma və sosial media platformalarının sürətli inkişafı informasiya axınını xeyli intensivləşdirərək peşəkar medianın rolunu daha da artırır, informasiya təhlükəsizliyi siyasətinin daha effektiv şəkildə həyata keçirilməsini zəruri edir.

Forum çərçivəsində birinci panel sessiya "İnformasiya təhlükəsizliyinin təmini məqsədilə media ekosisteminin gücləndirilməsi" mövzusuna həsr olunub. Audiovizual Şuranın aparat rəhbəri Fazil Novruzovun moderatorluq etdiyi paneldə "ARB 24" telekanalının icraçı direktoru Radik İsmayılov, Gürcüstanın "Eurocracy - Former Europe" proqramının aparıcısı İoane Şaişmelaşvili, Medianın İnkişafı Agentliyinin Hüquq şöbəsinin müdiri Adil Tağıyev, Gürcüstanın İctimai Televiziyasının "Rəngarəng Gürcüstan" layihəsinin rəhbəri, jurnalist, televiziya aparıcısı Ramiliya Əliyeva isə spiker qismində çıxış ediblər. Panel zamanı texnoloji təkamülün media mühitinə çoxşaxəli təsiri, etibarlı informasiya mühitinin qorunması, sosial medianın əsas məlumat mənbələrindən birinə çevrilməsi, eləcə də rəqəmsal alətlər vasitəsilə müxtəlif auditoriyalarla daha effektiv kommunikasiyanın qurulması kimi məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

"Jurnalistlərin peşəkarlığının və cəmiyyətin media savadlılığının artırılmasında birgə əməkdaşlıq" mövzusunda ikinci panel sessiyaya Medianın İnkişafı Agentliyinin Naxçıvan regional idarəsinin müdiri Vəfa İsgəndərova moderatorluq edib. Agentliyin Mediaya dəstək layihələri, strateji planlaşdırma və informasiya texnologiyaları departamentinin direktoru Ləman İsgəndərova, Qriqol Robakidze Universitetinin Humanitar və Sosial Elmlər Məktəbinin professoru, Multimedia Mərkəzinin rəhbəri Maia Paçkoriya, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı Vüqar Ziferoğlu, eləcə də Gürcüstanın "PosTV" telekanalının analitik qrupunun nümayəndəsi Gia Abaşidze çıxış edərək, jurnalistlərin peşəkarlığının artırılması, cəmiyyətin media savadlılığının yüksəldilməsi və bu sahədə ikitərəfli əməkdaşlığın rolu ilə bağlı fikirlərini bölüşüblər. Paneldə vurğulanıb ki, müasir informasiya mühitində medianın artan məsuliyyətini nəzərə alaraq cəmiyyətin etibarlı informasiya əldə etməsi üçün jurnalistlərin hazırlıq səviyyəsinin yüksəldilməsi, maarifləndirici təşəbbüslərin genişləndirilməsi və media savadlılığına dair davamlı layihələrin həyata keçirilməsi xüsusi əhəmiyyət daşıyır.

# YAP Gənclər Birliyinin nümayəndə heyəti Gürcüstanda səfərdə olub

**Yeni Azərbaycan Partiyasının (YAP) Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, sədr müavini Fəsli Nəbiyev və birliyin üzvü, Milli Məclisin deputatı Səbinə Xasayevadan ibarət nümayəndə heyəti "Gürcü Arzusu-Demokratik Gürcüstan" partiyasının Gənclər Təşkilatının dəvəti ilə 2025-ci il 3-5 dekabr tarixlərində Gürcüstanda səfərdə olub.**



Dekabrın 3-də nümayəndə heyətinin "Gürcü Arzusu-Demokratik Gürcüstan" partiyasının Gənclər Təşkilatının üzvləri ilə görüşü keçirilib. Görüşdə gənclər təşkilatları arasında əməkdaşlığın əhəmiyyəti vurğulanıb, təcrübə və fikir mübadiləsi, birgə layihələr, təlim və seminarların təşkili istiqamətində qarşılıqlı maraq ifadə olunub. Vurğulanıb ki, bu ilin iyul-avqust aylarında Azərbaycanda və Gürcüstanda keçirilmiş Azərbaycan-Gürcüstan Gənclər Forumu gənclər arasında mövcud əməkdaşlığın müsbət nümunəsidir.

Görüş çərçivəsində Yeni Azərbaycan Partiyası Gənclər Birliyi ilə "Gürcü Arzusu-Demokratik Gürcüstan" partiyasının Gənclər Təşkilatı arasında Əməkdaşlıq Memorandumu imzalanıb. Sənəd qarşılıqlı fəaliyyətin genişləndirilməsini, birgə təşəbbüslərin həyata keçirilməsini və gənclərin inkişafına yönəlmiş proqramların dəstəklənməsini nəzərdə tutur.

"Gürcü Arzusu-Demokratik Gürcüstan" partiyasının Gənclər Təşkilatının sədri Giorgi Çakvetadze hakim partiyaların gənclər birlikləri arasında qarşılıqlı əlaqələrin dərinləşdirilməsinin xüsusi əhəmiyyət daşıdığını bildirib. O qeyd edib ki, imzalanan memorandum gələcək ortaq təşəbbüslər, proqram və layihələrin reallaşdırılması üçün yeni imkanlar açır.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov isə bildirib ki, imzalanmış Əməkdaşlıq Memorandumu Azərbaycan və Gürcüstan gəncləri arasında uzunmüddətli işbirliyinin möhkəmlənməsinə xidmət edir. O vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin siyasi iradələri sayəsində uğurla davam edən yüksəksəviyyəli münasibətlər gənclər təşkilatları arasında əməkdaşlığın genişləndirilməsi üçün də əlverişli şərait yaradır.

Dekabrın 4-də nümayəndə heyətinin Tbilisi Şəhər Assambleyasında görüşü baş tutub. Görüşdə assambleyanın sədri Zurab Abaşidze, "Gürcü Arzusu-Demokratik Gürcüstan" partiyasının Şəhər Assambleyasında fraksiya rəhbəri Zurab Çikviladze, eləcə də assambleya üzvləri iştirak ediblər. Tərəflər yerli özünüidarəetmə, gənclərin ictimai-siyasi fəallığının artırılması, bələdiyyə səviyyəsində həyata keçirilən gənclər təşəbbüsləri və Azərbaycan-Gürcüstan əməkdaşlığı çərçivəsində birgə layihələrin reallaşdırılması barədə fikir mübadiləsi aparıblar.

Daha sonra nümayəndə heyəti ilə Gürcüstan Parlamentinin Təhsil, elm və gənclər məsələləri komitəsinin sədri Mariam Laşki arasında görüş keçirilib. Görüşdə iki ölkənin gənclər siyasətinin prioritet istiqamətləri, təhsil sahəsində əməkdaşlıq imkanları və gənclərin qanunvericilik təşəbbüslərində iştirakı müzakirə olunub.

Səfər çərçivəsində nümayəndə heyətinin Gürcüstan Parlamentində Azərbaycan Parlamenti ilə Dostluq Qrupunun sədri İrakli Kadaqişvili ilə görüşü də baş tutub. Tərəflər Azərbaycan-Gürcüstan münasibətlərinin strateji xarakter daşıdığını qeyd edərək, bu əməkdaşlığın gənclər təşkilatları arasında da genişləndirilməsinin vacibliyini vurğulayıblar. Səfər çərçivəsində keçirilən görüşlərin iki ölkənin gəncləri arasında əlaqələrin daha da dərinləşməsinə əlavə imkanlar yaratdığı qeyd olunub.

# Baş prokuror Sumqayıt şəhərində vətəndaşları dinləyib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**



Dekabrın 5-də baş prokuror Kamran Əliyev Sumqayıt şəhər prokurorluğunun inzibati binasında Sumqayıt şəhər, Qubadlı rayon və digər bölgələrdən olan vətəndaşları qəbul edib. Qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib. Qəbulda iştirak edən 33 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib. Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.

# Sülh Cənubi Qafqazın gələcəyinə əhəmiyyətli təsir göstərəcək

**"Müharibə sonrası iqtisadi inkişaf və dövlətlərarası əməkdaşlığın davam etdirilməsi regionda uzunmüddətli sülhün təmin olunması üçün vacib addımlardır. Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda start verdiyi iqtisadi inkişaf, regional iqtisadiyyatı gücləndirən layihələr, eləcə də qonşu dövlətlərlə olan ticarət əlaqələri sabitliyin zəmanətidir".**



Bu fikirləri Azərbaycan qəzetinə açıqlamasında Milli Məclisin deputatı Müşfiq Cəfərov bildirib. Onun sözlərinə görə, artıq Cənubi Qafqaz regionunda gərginlik dövrü bitməkdədir, amma bu, heç də əbədi sabitlik anlamına gəlmir. Ermənistan Azərbaycanın sülh çağırışlarına dəstək verərək, qarşılıqlı maraqları və təhlükəsizlik məsələlərini ön planda tutaraq, daha sülhsevər və konstruktiv yanaşmalar həyata keçirə bilər.

Deputat qeyd edib ki, Azərbaycan öz gücünü və təsirini artırmaqla, həm regionda, həm də beynəlxalq aləmdə daha böyük rol oynamağa başlayıb: "Yalnız davamlı diplomatik səylərlə Cənubi Qafqazda real sülhün və sabitliyin təmin olunması mümkündür. Azərbaycan və Ermənistan arasında imzalanacaq sülh sazişi hər iki ölkənin və bütövlükdə Cənubi Qafqazın gələcəyinə əhəmiyyətli təsir göstərəcək. Bu, siyasi, hərbi və iqtisadi sahələrdə yeni bir başlanğıc yarada bilər, amma bu prosesin tam olaraq müsbət nəticələnməsindən, hər iki tərəfin sülhə və qarşılıqlı əməkdaşlığa doğru atacağı davamlı və inamlı addımlarından asılı olacaq".

Müşfiq Cəfərov qeyd edib ki, gələcəkdə sülh sazişi həm də beynəlxalq güclərin regionda daha aktiv rol almasına, iqtisadi inkişafın sürətlənməsinə və yeni əməkdaşlıq formatlarının yaranmasına yol aça bilər. Ötən ilin dekabr ayından etibarən Azərbaycan və Ermənistan arasında postmünaqişə dövründə normallaşma prosesində əhəmiyyətli irəliləyiş əldə edilib və cari il avqustun 8-də keçirilmiş tarixi Vaşinqton sammiti ilə ən yüksək səviyyəyə çatıb. "Nəticə etibarilə regionda sülh de-fakto bərqərar olub. Bu gün Azərbaycan və Ermənistan ən dinc və sabit dövrünü yaşayırlar. Hər iki tərəf hökumət, parlament və vətəndaş cəmiyyəti səviyyələrində müxtəlif istiqamətlər üzrə konkret tədbirlərin həyata keçirilməsi istiqamətində irəliləyir", - deyə deputat bildirib.

***R.CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Ruben Vardanyanın məhkəməsi sənədlərin elan olunması ilə davam etdirilib



**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi dekabrın 5-də davam etdirilib.**

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Məhkəməyə sədrlik edən diqqətə çatdırıb ki, iş üzrə zərərçəkmiş şəxs qismində tanınmış bir qrup şəxs əvvəlki proseslərdə məhkəməyə müraciət ünvanlayaraq iclaslarda üzrlü səbəbdən iştirak edə bilmədiklərini, ibtidai istintaq zamanı verdikləri ifadələrini təsdiqlədiklərini bildirən ərizələr göndəriblər.

Tərəflər həmin ifadələrin məhkəmədə elan olunmasına etiraz etməyiblər və qeyd edilib ki, bugünkü iclasda həmin ifadələr səslənəcək.

Sonra iclasda zərərçəkmiş şəxs qismində tanınmış bir qrup şəxsin ifadələri, cinayət işi materiallarında olan ekspertiza rəyləri, protokollar və iş üzrə sübuti əhəmiyyət kəsb edən digər sənədlər elan olunub.

Məhkəmənin növbəti iclası dekabrın 8-nə təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

# Milli Məclisin deputatı İranda Zəngəzur dəhlizinin əhəmiyyətindən bəhs edib

**2-5 dekabr tarixlərində İran İslam Respublikasının Məşhəd şəhərində Asiya Parlament Assambleyasının (APA) Siyasi məsələlər üzrə daimi komitəsinin iclası keçirilib. İclasda Azərbaycan Respublikası Milli Məclisinin APA-dakı nümayəndə heyətinin rəhbəri Rizvan Nəbiyev iştirak edib.**



İclasın açılış mərasimində İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqer Qalibaf, APA-nın baş katibi Məhəmməd Rza Məcidi, Milli Məclisin APA-dakı nümayəndə heyətinin rəhbəri Rizvan Nəbiyev və Xorasan Rəzəvi vilayətinin baş qubernatoru Qolamhüseyn Moazzəfəri çıxış ediblər.

Bu barədə qəzetimizə açıqlama verən Rizvan Nəbiyev bildirib ki, çıxışında parlament diplomatiyasının artan əhəmiyyətini vurğulayaraq Milli Məclisin sədrliyi dövründə APA-nın fəaliyyəti barədə məlumat verib. Deputat deyib: "Bugünkü mürəkkəb qlobal mühitdə parlament diplomatiyası beynəlxalq münasibətlər sistemində multilateralizmin təşviqi üçün mühüm əhəmiyyət kəsb edir. APA kimi parlament assambleyaları həm regional, həm də qlobal səviyyədə qarşıda duran çağırışların həllində aparıcı qurumlardan birinə çevrilməkdədir".

Deputat həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin sülh gündəliyi və regionda yaranmış yeni siyasi reallıq barədə danışıb. Xüsusilə vurğulayıb ki, onilliklər ərzində ilk dəfə olaraq Cənubi Qafqazda de-fakto sülh bərqərar edilmişdir. Azərbaycanın qələbəsi regionda yeni siyasi reallıq yaratmaqla Asiya ilə Avropa arasında, eləcə də Asiya ölkələri arasında iqtisadi əməkdaşlığın genişlənməsi üçün yeni imkanlar yaradıb.

Rizvan Nəbiyev Zəngəzur dəhlizinin (TRIPP) Orta dəhlizin vacib seqmenti kimi əhəmiyyətindən danışaraq, onun "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat-ticarət əlaqələrinin intensivləşməsindəki potensial rolunu diqqətə çatdırıb. Bildirib ki, "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizləri kimi əlaqələndirici layihələr Azərbaycan ərazisindən keçir. Azərbaycan tərəfi əmindir ki, Zəngəzur dəhlizi (TRIPP) yaxın zamanda həmçinin "Şimal-Cənub" dəhlizinin mühüm seqmentinə çevriləcək və bu da sülhün, çoxtərəfli tərəfdaşlığın möhkəmlənməsinə töhfə verəcəkdir. Zəngəzur dəhlizi (TRIPP) Azərbaycanın sərhədlərinin şərqində, qərbində, şimalında və cənubunda yerləşən yaxın və uzaq qonşularına fayda gətirəcəkdir.

Rizvan Nəbiyev çıxışında Azərbaycan-İran əməkdaşlığının iki və çoxtərəfli platformalarda inkişafından danışaraq, 2025-ci il ərzində İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana etdiyi səfərlərin əhəmiyyətini qeyd edib.

Milli Məclisin deputatı çıxışını Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 80-ci sessiyasında səsləndirdiyi fikirlərlə tamamlayıb:

"Son illərin nailiyyətləri yalnız Azərbaycanın qələbəsi və uğuru deyil. Onlar həm də göstərir ki, beynəlxalq hüquq sonda mütləq üstün olmalıdır. Bizim baxışımız aydındır: beynəlxalq hüquqa əsaslanan, dövlətlərin daxili işlərinə qarışmamaq prinsipini, qarşılıqlı hörmət və əməkdaşlığı özündə ehtiva edən sülh və inkişaf.

Gəlin birlikdə ikili standartların olmadığı, ədalətin selektiv xarakter daşımadığı, hüququn aliliyinə hörmət göstərildiyi və sülhün yalnız sözlərlə deyil, əməli addımlarla təmin olunduğu bir dünya quraq".

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Mədəni sərvətlərin qorunması ilə bağlı məsuliyyət artırılır



**Dekabrın 5-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və Mədəniyyət komitələrinin birgə iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclası açan Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu gündəliyin birinci məsələsi olan Cinayət Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Mədəniyyət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə (birinci oxunuş) Hüquq siyasəti və dövlət quruculuğu komitəsi ilə birgə baxılacağını diqqətə çatdırıb.

Sənəd mədəni sərvətlərin qorunması ilə bağlı müddəaların dəqiqləşdirilməsi və məsuliyyətin artırılması məqsədilə hazırlanıb. Qanun layihəsində mədəni sərvətlərin korlanması və ya məhv edilməsi əməllərinə görə məsuliyyəti ziyanın miqdarı və təqsirin formasına görə fərqləndirilməsinin əhəmiyyətini vurğulayan Polad Bülbüloğlu mədəni abidələrin qorunması, bərpası xüsusiyyətləri, mexanizmləri, bu sahədə beynəlxalq təcrübənin, müasir texnologiya və yanaşmaların tətbiqi ilə bağlı fikirlərini bölüşüb.

Layihənin qarşılıqlı fikir mübadiləsi şəraitində keçən müzakirəsində deputatlar Mübariz Qurbanlı, Novruzəli Aslanov, Əlibala Məhərrəmzadə, Nizami Səfərov, Aqil Abbasov çıxış ediblər, fikirlərini, bəzi qeydlərini səsləndiriblər.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli və Mədəniyyət Nazirliyinin Hüquq şöbəsinin müdiri Gülər Mikayılova müzakirələrdə qaldırılan məsələlərə aydınlıq gətirəndən sonra qanun layihəsi Milli Məclisin plenar iclasında birinci oxunuşda baxılmaq üçün tövsiyə olunub.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsi öz işini davam etdirib. Komitənin gündəliyinin 2-ci məsələsi ilə bağlı komitənin üzvü Nizami Səfərov bildirib ki, bu, Aidə Əli qızı Hüseynin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi ilə bağlıdır.

Gündəliyin sonrakı məsələləri barədə iclasda komitə sədri Əli Hüseynli məlumat verib. Bildirilib ki, Vergi Məcəlləsində, "Sosial sığorta haqqında" və "Dövlət qulluğu haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) dövlət qulluğunun hüquqi və sosial təminatına dair bir sıra məsələlərin daha təkmil tənzimlənməsini nəzərdə tutur. İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsindəki (birinci oxunuş) dəyişikliklər isə əsasən normativ hüquqi aktlar arasında uyğunluğun təmin edilməsi məqsədilə hazırlanıb.

Komitənin gündəliyinin 5-ci məsələsi - Əmək Məcəlləsində, Cinayət Məcəlləsində, Vergi Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, "Həmkarlar ittifaqları haqqında", "Sosial sığorta haqqında", "Bələdiyyələrin statusu haqqında", "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Gənclər siyasəti haqqında", "Yaşayış minimumu haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "İşsizlikdən sığorta haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Məşğulluq haqqında" və "Hesablama Palatası haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) əmək münasibətlərində çevik və sosialyönümlü tənzimləmələrin tətbiqini, əmək normalarının beynəlxalq əmək normaları nəzərə alınmaqla təkmilləşdirilməsini təklif edir.

6-cı məsələ olan "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2024-cü il 28 iyun tarixli qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi isə uyğunlaşdırma xarakterlidir. Növbəti "Notariat haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsində (birinci oxunuş) təklif olunan dəyişikliklər Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə məlumat mübadiləsinin daha operativ həyata keçirilməsinə yönəlib.

Sonuncu məsələ olan Vergi Məcəlləsində, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Sosial sığorta haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "Tibbi sığorta haqqında", "Dövlət rüsumu haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının dövlət icbari şəxsi sığortası haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Sığorta fəaliyyəti haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Gömrük tarifi haqqında", "Nağdsız hesablaşmalar haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi isə büdcə zərfinə daxildir və üçüncü oxunuşda müzakirəyə çıxarılıb.

Layihələrin müzakirəsində Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, üzvləri Nizami Səfərov, Mübariz Qurbanlı, Bəhruz Məhərrəmov çıxış ediblər, dəyişikliklərlə bağlı fikirlərini bildiriblər.

İclasda qanun layihələri baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

***"Azərbaycan"***

# İlham Əliyevin enerji siyasəti

## Bu il Zəfər tariximizin adını daşıyan müstəqillik dövrünün ən iri elektrik stansiyası istifadəyə verildi

**Energetika hər bir ölkənin milli təhlükəsizlik məsələsidir. Bu gün Azərbaycan öz enerji təhlükəsizliyini təmin edib və Avropanın enerji təhlükəsizliyinə dəstək verən ölkələr sırasındadır. Təsadüfi deyil ki, Avropa İttifaqı ölkəmizi etibarlı tərəfdaş və Pan-Avropa qaz təchizatçısı adlandırır. Çünki Azərbaycan 14 ölkəyə qaz ixrac edir ki, onlardan 10-u Avropa ölkəsidir. İndi Azərbaycan təbii qaz, xam neft, neft və neft-kimya məhsulları, müəyyən həcmdə elekrik enerjisinin ixracatçısıdır. "Yaşıl enerji" layihələrimiz gerçəkləşdikdən sonra kabellər vasitəsilə bu növ enerji də ixrac olunacaq.**



Yaxın keçmişdə elektrik enerjisi sarıdan korluq çəkən, nəinki kəndləri, hətta şəhərləri də işığı saatla alan Azərbaycan bu gün başdan-başa nur içindədir. Bu, son iki onillik ərzində tikilən və yenidən qurulan onlarla enerji obyektləri sayəsində mümkün olub. İndi ölkəmiz elektrik enerjisi ilə həm özünü təmin edir, həm də onu qonşusu olduğu bir neçə ölkəyə ixrac edir.

"Hər bir ölkənin energetika sistemi onun döyünən ürəyidir, əsas motorudur. Bu olmasa, heç nə olan deyil. Bu olmasa, heç bir inkişafdan, heç bir investisiya qoyuluşundan söhbət gedə bilməz. Ona görə enerji olmayan yerdə inkişaf yoxdur". 2020-ci il iyunun 25-də Mingəçevir şəhərində yenidən qurulmuş "Azərbaycan" İES-in açılış mərasimində Prezident İlham Əliyevin dediyi bu sözlər, ümumiyyətlə, ölkəmizdə həmin istiqamətdə aparılan genişmiqyaslı işləri xarakterizə edir.

Yola salmağa hazırlaşdığımız 2025-ci il ərzində də respublikanın müxtəlif yerlərində yeni elektrik stansiya və yarımstansiyaları istifadəyə verilib. Bu il istifadəyə verilən həmin enerji obyektləri əsasən regionları əhatə edir. Prezident İlham Əliyevin bu enerji obyektlərinin hər birinin açılışında iştirak etməsi onların əhəmiyyətinə bir daha diqqət çəkir.

İyunun 24-də dövlətimizin başçısı Mingəçevirdə yeni enerji nəhənginin - 1880 meqavatlıq elektrik stansiyasının açılışını etdi. Yeni stansiya üçün təklif olunan adlar sırasında Prezidentimiz məhz "8 Noyabr"ı seçib. "Çünki bu, bizim şanlı Zəfərimizin tarixidir. Zəfər xalqımıza, dövlətimizə yaraşır". Stansiyanın açılışındakı çıxışında dövlətimizin başçısı bunu bir daha vurğuladı.

Yeni stansiya Mingəçevirin nəinki Azərbaycanın, bütövlükdə Cənubi Qafqazın energetika mərkəzi statusunu daha da gücləndirdi. Belə ki, hazırda ölkəmizin elektrik enerjisinin 40 faizindən çoxu bu şəhərdə istehsal olunur.

"8 Noyabr" Elektrik Stansiyasının istifadəyə verilməsi həm də Azərbaycanın yaratdığı beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platformasının daha bir təsdiqidir. Belə ki, bu önəmli layihə İtaliya və Çin şirkətləri ilə birlikdə araya-ərsəyə gəlib. Stansiyanın açılışında sözügedən bu iki ölkənin strateji tərəfdaşlarımız olduğu qeyd edildi. O da diqqətə çatdırıldı ki, "8 Noyabr" stansiyasının istismara verilməsi bir çox məqsədləri təmin edəcək. Məsələn, ölkəmizin enerji sisteminin səmərəliliyi, generasiya gücü artacaq, eyni zamanda şərti yanacaq sərfiyyatı kəskin aşağı düşəcək və beləliklə, təbii qaza qənaət etmək imkanı yaranacaq. Daxildə nə qədər təbii qaza qənaət edilsə, ixrac imkanlarımız bir o qədər artacaq. Beləliklə, burada şərti yanacağın sərfiyyatının az olması ölkəmizə əlavə qazanc gətirəcək.

Ümumiyyətlə, son illər bir sıra enerji obyektləri əsaslı təmir olunub, yaxud onların yerində təzə stansiya və yarımstansiyalar tikilib. Bunların sırasında 2025-ci il iyunun 23-də açılan "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kV-luq "Yevlax" qovşaq yarımstansiyasının özünəməxsus yeri var. Belə ki, bu enerji obyekti 60 il əvvəl tikildiyindən tələbatı ödəmirdi. Respublikanın Mərkəzi Aran regionunun enerji təchizatının yaxşılaşdırılması, istehlakçıların fasiləsiz keyfiyyətli elektrik enerjisi ilə təmin edilməsi, enerjisistemin dayanıqlılığının və etibarlılığının artırılması məqsədilə bu yarımstansiya tamamilə yenidən qurulub.

Bu enerji obyekti Yevlaxın tam, Bərdə və Ucar rayonlarının isə müəyyən hissəsi daxil olmaqla 180 mindən artıq əhalinin elektrik təchizatında, o cümlədən "Varvara" Su-Elektrik Stansiyasında istehsal edilən "yaşıl enerji"nin enerjisistemə ötürülməsində xüsusi əhəmiyyətə malikdir. Burada 110 kilovoltluq yeni açıq paylayıcı qurğu quraşdırılıb, ərazidə yeni Rəqəmsal İdarəetmə Mərkəzi tikilib.

Kiçik arayış: son beş ildə "Azərenerji" ASC tərəfindən ümumilikdə 47 yerdə sistem əhəmiyyətli ötürücü yarımstansiya tikilib və ya tam yenidən qurulub, 2500 kilometr uzunluğunda yüksəkgərginlikli elektrik verilişi xətti çəkilib. Ölkədə ümumi gücü 3000 meqavatdan artıq elektrik enerjisi istehsal edən 45 stansiya tikilib. Təkcə işğaldan azad edilmiş ərazilərdə tikilən su-elektrik stansiyalarının sayı 38, gücü isə 307 meqavatdır.

İşğaldan azad edilmiş ərazilərdən söz düşmüşkən qeyd edək ki, bu il həmin yerlərdə də bir sıra yeni enerji obyektləri fəaliyyətə başlayıb. Bir zaman mənfur düşmənin əli ilə çırağı söndürülən Xocalıda indi işığımız daha gur yanır. Mayın 9-da açılışı olan "Xocalı" yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi də məhz bunun göstəricisidir.

"Azərişıq" ASC-nin məlumatına görə, 3200 KVA gücündə "Xocalı" yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi Xocalı rayonu ərazisində inşa edilmiş yeni yaşayış komplekslərinin, kənd təsərrüfatı və turizm obyektlərinin, eləcə də sosial-iqtisadi təyinatlı müxtəlif infrastrukturun dayanıqlı, etibarlı və fasiləsiz elektrik enerjisi təminatını həyata keçirmək məqsədi daşıyır. Yarımstansiyanın elektrik təchizatı üçün "Xankəndi-1" və "Əsgəran" yarımstansiyalarından müvafiq olaraq elektrik verilişi xətləri çəkilib.

Bu il Laçında da iki enerji obyekti işə başlayıb. Bunlar Prezident İlham Əliyevin mayın 27-də açılışını etdiyi "Azərenerji"nin "Aşağı Malıbəy" və "Mirik" su-elektrik stansiyalarıdır. Hər iki stansiya Həkəri çayının sağ qolu olan Zabux çayının Laçın rayonunun Malıbəyli və Mirik kəndlərinin ərazisindən keçən hissəsində inşa edilib. 3,1 MVt gücündə "Aşağı Malıbəy" və 3,5 MVt gücündə "Mirik" su-elektrik stansiyalarında ən müasir avadanlıq quraşdırılıb, optik kabel xətləri çəkilib. Bununla da stansiyalar ölkənin enerji sisteminin mərkəzləşmiş SCADA sisteminə inteqrasiya olunub.

"Aşağı Malıbəy" və "Mirik" SES-lərdə il ərzində 20 milyon kilovat-saat "yaşıl enerji"nin istehsalı nəzərdə tutulub. Bu, 4,3 milyon kubmetr təbii qaza qənaət etməyə imkan verəcək, il ərzində 8 min ton karbon qazının atmosferə atılmasının qarşısını alacaq.

Dövlətimizin başçısının avqustun 21-də Kəlbəcər rayonunun Vəng kəndində "Azərenerji" ASC-nin 3 enerji obyektinin - "Aşağı Vəng", "Nadirxanlı" və "Çaykənd" kiçik su-elektrik stansiyalarının da açılışını etməsi bir daha göstərdi ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının "yaşıl enerji" zonasına çevrilməsi hədəfinə doğru inamlı addımlar atılır.

Kəlbəcərdə tikilən 8,6 meqavatlıq "Aşağı Vəng" və 8,8 meqavatlıq "Nadirxanlı" stansiyalarında il ərzində 48 milyon kilovat-saat elektrik enerjisinin istehsal edilməsi nəzərdə tutulur. Müasir avadanlıqlarla təchiz edilmiş stansiyalar ölkə enerjisisteminin mərkəzləşdirilmiş SCADA sisteminə inteqrasiya olunub. Burada istehsal olunan ekoloji təmiz "yaşıl enerji" ilə təxminən 25 min nəfər elektrik enerjisi ilə təmin ediləcək.

Beləliklə, təkcə Kəlbəcərdə istifadəyə verilən "yaşıl enerji" obyektlərinin sayı 11-ə çatdı. Bu da Qarabağda və Şərqi Zəngəzurda həmin istiqamətdə gedən işləri aydın xarakterizə edir. Burada istifadəyə verilən müasir elektrik stansiya və yarımstansiyalar bir çox digər sahələrin inkişafını təmin edir, nəticə etibarilə insanların doğma yurd-yuvalarına qayıtmasını tezləşdirir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Sosial müdafiə xərclərində artım və məşğulluq proqramlarının genişləndirilməsi gələn il də davam edəcək

**Ölkəmizin dinamik inkişafını və möhtəşəm Zəfər zirvəsinə ucalmasını yüksək səviyyədə təmin edən Prezident cənab İlham Əliyevin uğurlu sosial siyasətinin nəticəsi olaraq Azərbaycanda vətəndaş rifahının təminatı, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımlar atılır. Bunun üçün ölkəmizdə sosial müdafiə xərcləri ildən-ilə artırılır.**
















Dövlətimizin başçısı 2025-ci il yanvarın 7-də yerli telekanallara müsahibəsində sosial sahəyə verilən önəmi vurğulayaraq demişdir: "Bu qədər böyük sərmayə qoyan və Qarabağın bərpası kimi qarşımızda bu qədər böyük problemi olan ölkədə bu sahəyə də bu diqqəti yetirmək, əlbəttə ki, bizim siyasətimizin, necə deyərlər, mahiyyətini göstərir. Yeni Azərbaycan vətəndaşları ildən-ilə daha yaxşı yaşamalıdırlar".

Qeyd edək ki, ölkə Prezidentinin fərman və sərəncamları əsasında 2018-2025-ci illərdə 4 milyondan çox vətəndaşı əhatə edən 5 sosial islahat paketi icra olunub və bu islahatlar üzrə ayrılan illik əlavə vəsait 7,6 milyard manat təşkil edir. Bu islahatlarla sosial ödənişlərdə ciddi artımlara nail olunub. O cümlədən qeyd edilən dövrdə minimum əməkhaqqı 3,1 dəfə, orta aylıq əməkhaqqı 2 dəfə, minimum pensiya 3 dəfəyədək, orta aylıq pensiya 2,6 dəfə, müavinət və təqaüd ödənişləri üçün ayrılan illik vəsait 5 dəfə artıb.

Cari ilin əvvəlindən başlayaraq, 1,9 milyon şəxsi əhatə edən və 885 milyon manat vəsaiti özündə ehtiva edən, həmçinin pensiyaların indeksləşdirilməsi də nəzərə alınaraq, 1,4 milyard manatlıq yeni, 2018-ci ildən isə 5-ci sosial islahat zərfi həyata keçirilib.

Bu islahat paketi çərçivəsində ölkəmizdə 2025-ci il yanvarın 1-dən minimum əməkhaqqı 345 manatdan 16 faiz artımla 400 manata çatdırılıb. Minimum əməkhaqqı artımına uyğun olaraq Nazirlər Kabinetinin təsdiq etdiyi Vahid Tarif Cədvəlinin 19 pilləsinin hər biri üzrə maaşlar orta hesabla 16 faiz artırılıb və beləliklə, minimum əməkhaqqı artımı yalnız minimum əməkhaqqı alanların maaşlarında deyil, dövlət və özəl sektorda çalışan, müxtəlif məbləğlərdə əməkhaqqı alan ümumilikdə 700 min işçinin maaş artımına imkan verib.

Həmçinin dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqları 2025-ci il yanvarın 1-dən orta hesabla 15 faiz artırılıb. Dövlət orqanlarında çalışan dövlət qulluqçusu olmayan işçilərin maaşları, büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlarda tədris məşğələlərinin aparılmasına cəlb edilən işçilərin əməyinin saathesabı ödənilməsi məbləğləri və s. artırılıb.

Bütün növ pensiyalar da 2025-ci ilin əvvəlindən indeksləşdirilərək 8,1 faiz artırılıb. 2025-ci il fevralın 1-dən isə minimum pensiya 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırılıb. 2025-ci il üçün yaşayış minimumu və ehtiyac meyarı da 270 manatdan 285 manata çatdırılıb. 2025-ci ilin 1 iyulundan isə şəhid ailələri, əlilliyi olan şəxslər (o cümlədən müharibə, 20 Yanvar hadisələri, hərbi xidmət vəzifələrini yerinə yetirmək və Çernobıl AES-də hərbi xidmətlə, ümumi səbəblərlə əlaqədar əlilliyi olan şəxslər, gözdən əlilliyi olan şəxslər) Vətən Müharibəsi Qəhrəmanları, Azərbaycanın Milli Qəhrəmanları, Prezidentin fərdi təqaüdünü alanlar, beşdən çox uşağı olan qadınlar, ailə başçısını itirən ailələr, aztəminatlı ailələr, himayədar və övladlığa uşaq götürən ailələr, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqları, valideyn himayəsindən məhrum uşaqların qəyyumları və digər kateqoriyalardan olan şəxslərə yönələn müavinət və təqaüdlərdə, habelə uşağın anadan olmasına görə və ya dəfn üçün birdəfəlik müavinətlərdə növbəti artımlar edilib.

Milli Məclisdə gələn il üzrə müzakirə olunan büdcə layihələri göstərir ki, ölkəmizdə sosial müdafiə xərclərində artım dinamikası gələn il də davam edəcək. Bu da aparılan sosial islahatların davamlı olduğunu, əhalinin rifahının yüksəldilməsi və həssas qrupların sosial müdafiəsinin dövlətin diqqət mərkəzində dayandığını bir daha təsdiqləyir.

Bu gün sosialyönümlü xərclərin çəkisinin dövlət büdcəsində 41 faiz olması da sosial rifahın dövlət siyasətinin başlıca istiqaməti olduğunu göstərir. Gələn ilin dövlət büdcəsində sosialyönlü xərclər bu illə müqayisədə 236 milyon manat çox olmaqla 17 milyard 146 milyon manata çatacaq. Bu, son 7 ildə dövlət büdcəsindən sosialyönlü xərclər üçün ayrılan vəsaitin həcminin 2,2 dəfə artdığını göstərir.

Dövlət Sosial Müdafiə Fondunun (DSMF) əhaliyə ödənişlər üzrə gələn ilki xərclərində də ciddi artımı görmək olar. Həmin xərclər 2024-cü ilə nisbətən 1 milyard 534 milyon, bu illə müqayisədə isə təqribən 800 milyon manat çox olmaqla gələn il 8 milyard 196 milyon manata çatacaq.

Göründüyü kimi, DSMF-nin təkcə son iki ildə əhaliyə ödənişlərində 1,5 milyard manatdan artıq artım var. Davamlı xarakter alan bu artım eyni zamanda pensiyalarda ardıcıl artımı şərtləndirir. Belə ki, 2018-2025-ci illərdə orta aylıq pensiya 208 manatdan 540 manata, yaşa görə orta aylıq pensiya 234 manatdan 575 manata çatıb. 2026-cı ildə də orta aylıq pensiyanın 590 manata və yaşa görə orta aylıq pensiyanın 629 manata çatacağı gözlənilir. Bu da 2018-ci ilə nisbətən orta aylıq pensiyada 2,8, yaşa görə orta aylıq pensiyada 2,7 dəfə artıma nail olunması deməkdir.

Onu da bildirək ki, əvvəlki illərdə olduğu kimi, cari və növbəti illərdə də əvəzetmə əmsalı, yəni orta aylıq pensiya məbləğinin orta aylıq əməkhaqqı məbləğinə nisbəti müvafiq olaraq 49 və 50,4 faiz olmaqla Beynəlxalq Əmək Təşkilatının sosial təminatın minimum normaları haqqında müvafiq konvensiyasına uyğundur. Həmçinin gələn il pensiya təminatına 7 milyard 993 milyon manat ayrılacaq ki, bu da 2018-ci ilə nisbətən həmin vəsaitdə 2,3 dəfə artım deməkdir.

İşsizlikdən Sığorta Fondu (İSF) müvafiq sığorta ödənişləri ilə yanaşı, aktiv məşğulluq tədbirlərinin genişləndirilməsində də önəmli rola malikdir. Bu fondun xərclərinin isə cari illə müqayisədə 5,7 milyon manat (2,2 faiz) çox olmaqla 266,4 milyon manat olacağı proqnozlaşdırılır. Mühüm məqamlardan biri odur ki, gələn il İSF-nin vəsaiti hesabına ümumilikdə 450 minədək şəxsin aktiv məşğulluq tədbirlərinə cəlb olunacaq.

İşsiz və işaxtaran şəxslərin kiçik biznesə çıxışına imkan yaradan özünüməşğulluq proqramının icrasının uğurla davam etdirilməsində də İSF gələn il mühüm dəstəyini davam etdirəcək. Belə ki, növbəti ildə 15 min ailə üçün özünüməşğulluq proqramı üzrə kiçik təsərrüfatların qurulması nəzərdə tutulur. Onlardan 8 mini üçün fondun vəsaiti hesabına, qalan 7 mini üçün Dünya Bankı layihəsi çərçivəsində təsərrüfatlar yaradılacaq.

Qeyd edilənlər bir daha göstərir ki, ölkəmizdə həm sosial ödənişlərin artırılması davam edir, həm də əhalinin rifahının dayanıqlılığını gücləndirməyə yönəlmiş kompleks məşğulluq tədbirləri getdikcə genişlənir. Yeni sosial müdafiə mexanizmlərinin gücləndirilməsi ilə yanaşı, məşğulluq imkanlarının artırılması, aktiv məşğulluq proqramlarının genişləndirilməsi, o cümlədən özünüməşğulluğun davamlı dəstəklənməsi təmin edilir.

Qeyd olunan istqamətlərdə atılan addımlar isə sosial rifahın təminatına xidmət edir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin uğurları



## Azərbaycan sözünə, imzasına sadiq olan ölkədir

**Cənubi Qafqazda artıq sülhün ayaq səsləri aydın eşidilir. Dövlətimizin başçısı İlham Əliyev Bakıda keçirilən "Mədəni irs və qayıdış hüququ: Ermənistandan didərgin salınmış azərbaycanlıların mədəni irsinin bərpası - ədalətə, barışığa və sülhə aparan yol kimi" mövzusunda keçirilən III beynəlxalq konfransın iştirakçılarına müraciətində bildirib: "2025-ci il avqustun 8-də Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının vasitəçiliyi ilə Azərbaycan və Ermənistanın bir araya gəlməsi, Birgə Bəyannamənin imzalanması və sülh sazişi layihəsinin paraflanması hər iki xalqın gələcək birgəyaşayışının təmin olunması üçün ümid və inam yaradır". Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının sülhsevər üzvlərinin öz ata-baba yurdlarına qayıdacağına və xalqlarımızın arasında mehriban qonşuluq münasibətlərinin yaranacağına inamını ifadə edib.**

### Ölkəmiz qətiyyətlə sabaha doğru yol gedir

Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması, gözlənildiyi kimi, bütövlükdə regionun siyasi, ictimai vəziyyətinə müsbət təsir göstərəcək. Cənubi Qafqazın adı bundan sonra qanlı-qadalı müharibənin baş verdiyi məkan deyil, sabitliyin bərqərar olduğu bir region olaraq çəkiləcək. Azərbaycan dövləti sülhə aparan yolda qətiyyətlə addımlayaraq, yenə də sözünə, imzasına sadiq olduğunu nümayiş etdirir. Və hər zaman olduğu kimi, bu məsələdə də vətəndaşları Azərbaycan dövlətinin yanındadır. Birlik, bərabərlik ölkəmizin ən zəngin sərvəti, ən böyük nailiyyətidir.

Təəssüf ki, eyni fikirləri Ermənistanla bağlı söyləmək mümkün deyil. Azərbaycanın daha iyirmi faiz torpaqlarını zəbt etmək üçün 1980-ci illərin sonlarından körüklədikləri münaqişə ocağını alovlandıraraq 1990-cı illərdə müharibəyə çevirən təcavüzkar ermənilər o zaman Qarabağı və Şərqi Zəngəzuru işğal etməklə məqsədlərinə çatmış kimi görünsələr də, o torpaqların, o yerlərin əzəli sakinlərinin qisasları qiyamətə qalmadı. Otuz ilə yaxın Azərbaycan həmin ərazilərini işğal altında saxlayan, o abad yurdları viran edərək xarabalığa çevirən Ermənistan sonunda haqqın, ədalətin təcəlli etdiyini gördü. 2020-ci ilin payızında 44 günlük İkinci Qarabağ müharibəsində Ermənistan silahlı qüvvələrini məğlubiyyətə uğradaraq böyük Zəfər qazanan şanlı Azərbaycan Ordusu 2023-cü ilin sentyabrında uğurla birgünlük lokal xarakterli antiterror əməliyyatı həyata keçirərək ölkəmizin tam suverenliyinə nail oldu.

Sülh müqaviləsinin imzalanmasının təşəbbüskarı Azərbaycan oldu. Müsbət nəticələr göz önündədir. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Vyanada ATƏT Nazirlər Şurasının 32-ci iclasında çıxışı zamanı bildirib: "Nəticə etibarilə, regionda sülh de-fakto bərqərar olub". Xarici işlər naziri bildirib ki, bu gün qeyri-sabit ATƏT regionundan fərqli olaraq, Azərbaycan və Ermənistan ən dinc və sabit dövrü yaşayır: "Hər iki tərəf hökumət, parlament və vətəndaş cəmiyyəti səviyyələrində müxtəlif ölçülər üzrə konkret tədbirlərin həyata keçirilməsi istiqamətində irəliləyir.

Sülh prosesinə əlavə təkan vermək məqsədilə, Azərbaycan xoşməramlı jest olaraq, Ermənistana münasibətdə məhsulların tranzit məhdudiyyətini birtərəfli qaydada aradan qaldırıb".

Ceyhun Bayramov vurğulayıb ki, Azərbaycan sülh gündəliyinin təşəbbüskarı kimi bu yola sadiqdir və Ermənistan tərəfindən də qarşılıqlı siyasi iradə və məsuliyyəti gözləyir.

### Ermənistanın düşməni daxilindəki sülh istəməyən qüvvələrdir

Münaqişədən, müharibədən birdəfəlik üz çevirərək sülh yolu ilə addımlamağın əhəmiyyəti artıq Ermənistanda da etiraf olunur. Eyni zamanda o da açıq-aşkar bildirilir ki, uzun illər sülhün əldə olunmamasının günahkarları Ermənistana rəhbərlik etmiş şəxslər olub. Ermənistan parlamentində hökumət ilə sual-cavab sessiyası zamanı baş nazir Nikol Paşinyan keçmiş hakimiyyəti ittiham edərək bildirib ki, onlar Qarabağ münaqişəsinin danışıqlar prosesində heç vaxt problemin həllinə nail olmaq istəməyiblər.

Baş nazir Qarabağ danışıqlarının sözügedən məsələnin həllinə dair olmadığını deyib: "Bütün danışıqlar prosesi ovaxtkı iqtidar tərəfindən bizi tələdə saxlamaq üçün olub. Qarabağ məsələsinin həlli heç vaxt "keçmişlər" üçün əsas məqsəd olmayıb. Bunu etiraf etmək çətin olsa da, ölkənin irəli getməsi üçün faktı qəbul etmək vacibdir".

Nikol Paşinyan həmçinin sabiq hakimiyyət nümayəndələri haqqında danışmağı dayandırmağın vacibliyini vurğulayıb. Bildirib ki, sabiq hökumət üzvləri haqqında artıq danışmağa ehtiyac yoxdur: "Mən həqiqətən düşünürəm ki, biz köhnələrdən danışmağı dayandırmalıyıq, çünki danışacaq bir şey yoxdur, nə deməmişik ki? Qarabağ məsələsi ilə bağlı dərc etdiyimiz paket də bunu göstərir ki, ümumiyyətlə, danışmağa heç nə qalmayıb". Onun sözlərinə görə, hakimiyyət təxribatlara uyaraq, saatlarla Robert Koçaryan və Serj Sarkisyan kimi sabiq liderlər haqqında danışır: "2021-ci ildə siyasi hakimiyyət dəyişikliyi ilə gələn parlament müxalifətini hələ də rəqib hesab etmək olardı, lakin fikrimcə, onlar çoxdan rəqib deyillər".

Nikol Paşinyan əleyhdarlarının məqsədlərinə çatmayacaqlarını jurnalistlərə açıqlamasında da diqqətə çatdırıb. 2018-ci ildən Ermənistanın baş naziri vəzifəsini tutan Nikol Paşinyan gələn il baş tutacaq seçkilərdə iştirak edəcəyini, "2026-cı ildə keçiriləcək parlament seçkilərində "Vətəndaş müqaviləsi" partiyasından baş nazir vəzifəsinə namizədliyini irəli sürəcəyini söyləyib. O bildirib ki, deputatlığa namizədlərin qeydiyyat prosesi şəffaf keçiriləcək.

Ermənistanda kilsənin uzun illərdir ki, daha çox siyasi-ideoloji fəaliyyəti ilə önə çıxdığı, barışıq, haqq, ədalət yerinə, nifaq salmağa cəhd etdiyi, düşmənçiliyə, kin-küdurətə rəvac verdiyi bütün dünyaya bəllidir. Baş nazir Nikol Paşinyanla kilsə arasında xeyli müddətdir davam edən qarşıdurmanın açıq müstəviyə keçdiyi də məlum həqiqətdir. Ermənistanın baş nazirinin hələ bu ilin may ayının sonlarından başlayaraq, Erməni Apostol Kilsəsinin qanunsuz əməlləri ilə bağlı sosial şəbəkələr üzərindən paylaşımları da bunu təsdiqləyir.

Kilsə və revanşistlərin artıq hakimiyyətdən narazı qüvvələri və Qarabağı tərk edən separatçıları səfərbər etmək, qarışıqlıq yaratmaq və vəziyyətdən yararlanmaq niyyətlərini reallaşdıra bilməyəcəkləri açıq-aşkardır. Son illər Ermənistanın baş nazirinin müharibədən bezmiş, sülh istəyən erməni qüvvələri ilə həmrəy olması, onların narazılığının əsas səbəblərindən biridir.

Bu ilin yayından başlayaraq, Nikol Paşinyan hökuməti və kilsə arasındakı anlaşılmazlıqlar fonunda bir sıra din xadimləri hakimiyyəti zorla ələ keçirmə ittihamları ilə həbs olunublar. İyunda Ermənistanda II Qareginin iqamətgahında dövlət çevrilişində ittiham olunan arxiyepiskop Mikael Adjapaxyanın saxlanılması üzrə də əməliyyat keçirilib.

Ermənistanın Baş naziri Nikol Paşinyan jurnalistlərə açıqlamasında bütün ermənilərin katolikosu II Qaregin və onun yaxın ətrafını kilsə əleyhinə fəaliyyətdə günahlandırıb: "Düşünürəm ki, kilsənin əleyhinə fəaliyyət göstərən məhz Ktriç Nersisyan və onun yaxın ətrafıdır".

Nikol Paşinyan Erməni Apostol Kilsəsinə ən böyük zərəri II Qareginin vurduğunu söyləyib: "Proses başlayıb və o, postundan getməlidir. Onun istefa verib-verməməsi ilə bağlı seçim yoxdur. O getməlidir".

Bu gün Ermənistan hökuməti və sadə ermənilər özlərinin əsl düşmənlərini yaxşı tanıyırlar. Bilirlər ki, sülhdən yayınaraq, münaqişəyə, müharibəyə sürüklənməsi Ermənistana böyük fəlakətlər gətirər. Odur ki, sülh arzularını bildirir, bunu istəməyən daxili düşmənlərinə qarşı mübarizə aparırlar.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

## Qətiyyətli siyasətin diktəsi




**Son beş ildir Cənubi Qafqazda müşahidə olunan sabitlik, ölkələrarası münasibətlərdə normallaşma və de-fakto sülhün əldə edilməsi Azərbaycanın bu istiqamətdə yürütdüyü qətiyyətli siyasətin yaratdığı reallıqlardır. Bu gün münaqişədən uzaq bölgə kimi çoxsaylı ölkələrin əməkdaşlıq üçün maraq dairəsinə düşən Cənubi Qafqazda kommunikasiyaların açılması və Orta dəhlizin vacib hissəsinə çevriləcək Zəngəzur dəhlizi (TRIPP) kimi nəhəng layihənin timsalında regionun inkişaf və tərəqqi vəd edən strateji məkana çevriləcəyi gün kimi aydındır.**

Bütün bunlar Azərbaycanın liderliyi ilə yürüdülən normallaşma prosesinin, onun sülh gündəliyinə sadiqliyinin uğurlu nəticələridir. Ölkəmizin bölgədə sülhü təşviq edən səyləri beynəlxalq müstəvidə də təqdir edilir və yüksək qiymətləndirilir.

Dekabrın 4-də Almaniya Kansleri Fridrix Merts də Prezident İlham Əliyevə zəng edərək, ilk növbədə, Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə olunmuş nailiyyətlər münasibətilə təbriklərini çatdırıb. Kansler Almaniyanın regionda sabitliyi dəstəklədiyini vurğulayıb. Azərbaycanın regional sülh təşəbbüslərinin müəllifi olduğunu qeyd edən Prezident İlham Əliyev isə ölkəmizin regionda davamlı sülhün təmin olunması və möhkəmləndirilməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcəyini bildirib.

### Sülh yolu

Torpaqlarının 20 faizi işğal altında olanda belə münaqişənin sülh yolu ilə tənzimlənməsi tərəfdarı olan ölkəmiz döyüş yolu ilə ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra da sülh təşəbbüslərini irəli sürməklə dünyada nümunə yaradıb. İkinci Qarabağ müharibəsi başa çatandan dərhal sonra Azərbaycan sülh üçün lazım olan vacib addımları atmağa başlayıb, iki ölkə arasında münasibətlərin normallaşması üçün qarşı tərəfə beynəlxalq hüququn norma və prinsiplərinə cavab verən 5 baza prinsip təqdim edib. Ancaq Ermənistanın qeyri-konstruktivlik sərgiləməsi və üçüncü tərəflərin müdaxiləsi bir neçə il ərzində sülh istiqamətində hansısa irəliləyişlərin əldə olunmasına mane olub. Bunun başlıca səbəblərindən biri də İrəvanın Bakı ilə birgə ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı birgə müraciətdən yayınması idi. Ermənistan hətta sülh müqaviləsi bağlansa belə, adıçəkilən qrupun mövcudluğunu qoruyub saxlamaq, bununla gələcəkdə ölkəmizə qarşı yenidən ərazi iddiaları və digər təxribatlar üçün siyasi zəmin hazırlamaq istəyirdi. Çünki yarandığı 1992-ci ildən etibarən bu qrup münaqişənin danışıqlar vasitəsilə həllinə deyil, sözün əsl mənasında, onun sonsuzadək dondurulmasına çalışırdı. Həmsədrlərin müharibə variantını qəti şəkildə rədd etməsi də mövcud vəziyyətin Ermənistana sərf etdiyi və onun xeyrinə olduğu üçün idi. Ancaq Azərbaycan Minsk qrupunun 28 il ərzində danışıqlar vasitəsilə həll etmək istəmədiyi münaqişəni cəmi 44 gün ərzində hərb yolu ilə həll etdi. Ölkəmizin bu qələbəsi Minsk qrupunun da fəaliyyətinə de-fakto son qoydu.

"Minsk qrupu İkinci Qarabağ müharibəsinə qədər 28 il fəaliyyətdə idi və həmsədr ölkələr bu illər ərzində Azərbaycana, Ermənistana bəlkə də yüzlərlə səfər etmişlər. Nəticə də göz qabağındadır, nəticə sıfır...", - deyə hələ 2022-ci ildə Prezident İlham Əliyev ATƏT-in keçmiş Minsk qrupunun yarıtmaz fəaliyyətini dəqiq qiymətləndirmişdi.

Bunlar da göstərirdi ki, tam iflasa uğramış ATƏT-in Minsk qrupunun hüquqi olaraq buraxılmasının vaxtı çoxdan yetişib.

### Bölgənin ən dinc və sabit dövrü

Bu il avqustun 8-də Vaşinqton sammitində iki ölkə arasında normallaşma istiqamətində fundamental təməllər qoyuldu. Həmin tarixdə ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Ermənistan-Azərbaycan arasında Birgə Bəyannamə imzalandı. Dövlət başçılarının iştirakı ilə Azərbaycan və Ermənistan XİN rəhbərləri tərəfindən "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsi parafland.

Bundan əlavə, Azərbaycan və Ermənistan xarici işlər nazirləri ölkələrimiz arasında münaqişənin nəticələrinin aradan qaldırılması üçün vaxtilə yaradılmış ATƏT-in Minsk prosesi və əlaqədar strukturların bağlanması ilə bağlı birgə müraciəti imzaladılar.

Cari il dekabrın 1-də ATƏT rəsmi olaraq Minsk prosesini başa çatdırdı və onunla bağlı strukturları ləğv etdi. Qeyd edək ki, müvafiq qərar Ermənistan və Azərbaycanın ATƏT-in Finlandiya sədrliyinə birgə müraciətindən sonra 1 sentyabr 2025-ci ildə ATƏT-in Nazirlər Şurasında qəbul olunmuşdu.

Bununla əlaqədar ATƏT-in bəyanatında bildirilib ki, bütün zəruri inzibati prosedurların başa çatdırılması bağlanma prosesinin başa çatması deməkdir. Bu proses 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın Baş naziri Nikol Paşinyanın imzaladığı və ABŞ Prezidenti Donald Trampın da şahidi olduğu tarixi Birgə Bəyannamənin ardınca ATƏT-in bütün 57 iştirakçı dövlətinin 1 sentyabr tarixli konsensus qərarını həyata keçirdi.

Beləliklə, bu qrup de-yure ləğv edildi və Qarabağ məsələsi beynəlxalq müstəvidə də tamamilə bağlandı.

4 dekabrda Vyanada ATƏT Nazirlər Şurasının 32-ci iclasında çıxışı zamanı Minsk prosesinin başa çatması prosesinə toxunan Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov diqqətə çatdırıb ki, nəticə etibarilə, regionda sülh de-fakto bərqərar olub: "Bu gün qeyri-sabit ATƏT regionundan fərqli olaraq, Azərbaycan və Ermənistan ən dinc və sabit dövrü yaşayır. Hər iki tərəf hökumət, parlament və vətəndaş cəmiyyəti səviyyələrində müxtəlif ölçülər üzrə konkret tədbirlərin həyata keçirilməsi istiqamətində irəliləyir".

Sözügedən tarixdə Azərbaycan XİN rəhbəri Ceyhun Bayramov ATƏT-in Baş katibi Feridun Sinirlioğlu ilə də görüşüb. Görüşdə digər məsələlərlə yanaşı, bölgədəki mövcud vəziyyət, eləcə də Azərbaycan-Ermənistan sülh prosesi müzakirə olunub.

Nazir Ceyhun Bayramov postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, Vaşinqton Sammitinin nəticələri, ölkəmizin sülh prosesi çərçivəsində gözləntiləri barədə qarşı tərəfi məlumatlandırıb. İşğal dövrünün qalıqları olan Minsk prosesi və əlaqədar strukturların ləğvinin ATƏT-in fəaliyyətinin effektivliyi, habelə regional reallıqlara uyğun şəkildə işin təşkili baxımından vacibliyi vurğulanıb və əldə olunmuş nəticə təqdir olunub.

Bütün bu tarixi nailiyyətlərin fonunda da göründüyü kimi, Azərbaycanın davamlı səyləri və qətiyyətli addımları bölgədə dayanıqlı sülh, rifah və tərəqqi üçün tarixi şərait formalaşdırıb.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

## Azərbaycan didərginlərin qayıdışı istiqamətində doğru addımlar atır

**"Ermənistandan didərgin salınmış azərbaycanlıların doğma yurdlarına geri dönüşünün uğurlu həyata keçirilməsi yalnız hazırlıq mərhələsi ilə məhdudlaşmır, prosesin davamlı şəkildə təşkil olunmasını tələb edir. Qayıdışın sosial, ailə və fərdi müstəvidə sabit davam etməsi bu prosesin əsas şərti kimi qiymətləndirilir. Məsələyə beynəlxalq səviyyədə göstərilən maraq və artan iştirak isə qayıdış hüququnun qlobal müstəvidə tanınmasının göstəricisi hesab olunur".**

Bunu AZƏRTAC-a açıqlamasında Böyük Britaniyanın "Economy First Lumuted London" təşkilatının eksperti Klaus Peter Ralf Juergens deyib.

Onun sözlərinə görə, qayıdışın davamlı şəkildə təşkili insanların torpaqlarına qayıtdıqdan sonrakı mərhələdə sosial mühitin, ailə həyatının və ictimai proseslərin sabit şəkildə qurulması ilə bağlıdır. Ekspert vurğulayıb ki, davamlılıq anlayışı yalnız qayıdış qərarı ilə bitmir: "Əsas məsələ geri döndükdən sonra insanların həyatının necə təşkil ediləcəyidir. Prosesin ardıcıllığı və nəzarət mexanizmləri düzgün işləməlidir. Bu, qayıdışın dayanıqlı olması üçün əsas şərtdir".

Klaus Peter Ralf Juergens qeyd edib ki, konfransda çoxsaylı beynəlxalq nümayəndələrin iştirakı mövzunun qlobal səviyyədə diqqət mərkəzinə çevrildiyini sübut edir: "Burada müxtəlif ölkələrdən bu qədər nümayəndənin iştirakı Azərbaycanın apardığı məlumatlandırma işinin effektiv olduğunu göstərir. Xaricdə mövzu ilə bağlı maarifləndirmə öz real nəticəsini verir".




Ekspert bildirib ki, beynəlxalq ictimaiyyətin prosesə dəstəyi təkcə bəyanatlarla məhdudlaşmamalı, qayıdışdan sonrakı mərhələdə müşahidə və monitorinq mexanizmlərini də əhatə etməlidir. "Beynəlxalq səviyyədə həm də nəzarət ölçülərinin olması prosesin şəffaf və sistemli aparılmasına imkan verər. Qayıdış məsələsi beynəlxalq hüquqla tanınmış fundamental əsasdır və Azərbaycan bu istiqamətdə tam doğru addımlar atır", - deyə o diqqətə çatdırıb.

Ekspert əlavə edib ki, mədəni irs amili qayıdış prosesinin ayrılmaz hissəsidir və yalnız fiziki geri dönüş deyil, həm də tarixi yaddaşın bərpası baxımından xüsusi əhəmiyyət daşıyır: "Mədəni irs qayıdışın həm hüquqi, həm də mənəvi təməlidir. Onun bərpası tarixi ədalətin təmin olunmasına və dinc birgəyaşayışın möhkəmlənməsinə xidmət edir".

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Etibarlı Tərəfdaş Konsepsiyası

**1. Qısa xülasə**

Azərbaycan Respublikasında Etibarlı Tərəfdaş Konsepsiyası (bundan sonra – Konsepsiya) gömrük–biznes əməkdaşlığı çərçivəsində idarəetmənin təkmilləşdirilməsini, xarici iqtisadi fəaliyyətin beynəlxalq ticarət-təchizat zəncirinin yeni tələblərinə uyğunlaşdırılmasını və ticarətin asanlaşdırılmasını hədəfləyir.

Sahibkarlıq sahəsində aparılan islahatlar idarəetmə proseslərində biznes subyektlərinin iştirakının təmin edilməsinə, yeni iqtisadi sahələrin inkişaf etdirilməsinə, daha çevik ixrac mexanizmlərinin formalaşdırılmasına, “Made in Azerbaijan” brendinin beynəlxalq ticarət platformalarında təşviqinə dəstək mexanizminin qurulmasına, milli daşıyıcıların qlobal statusa malik şirkətlər üçün müraciət subyektlərinə çevrilməsinə, biznes palatalarına dəstək və iqtisadiyyatın diversifikasiyası prosesinə şərait yaratmışdır.

Son zamanlar dünya miqyasında gömrük–biznes əməkdaşlığında etibarlı tərəfdaşlıq modelinin formalaşdırılması xarici ticarət fəaliyyətində biznes subyektlərinə iqtisadi üstünlüklər qazandırmaqla yanaşı, ticarət-təchizat zəncirində gömrük əməliyyatlarının sadələşdirilməsinə və optimallaşdırılmasına da imkan yaratmışdır. Digər dövlətlərdə olduğu kimi, Azərbaycanda da gömrük xidmətlərinin modernləşdirilməsinə xidmət edən etibarlı tərəfdaşlıq modelinin tətbiqi ölkəmizin iqtisadi inkişafında və qlobal rəqabət mühitində üstünlüklər əldə etməsində mühüm rol oynaya bilər. Odur ki, bu sahədə sistemli yanaşmanı özündə ehtiva edən milli konsepsiyanın hazırlanması zərurəti yaranmışdır.

Normativ hüquqi aktların tələbləri çərçivəsində idxal-ixrac və tranzit əməliyyatlarını həyata keçirən biznes subyektlərinin beynəlxalq ticarətdə rəqabət qabiliyyətinin artırılması, eyni zamanda ixracın təşviqi və “Yaşıl iqtisadiyyat”ın inkişafı naminə Konsepsiyanın qəbulu ölkəmizin qlobal mövqeyinə müsbət təsir göstərəcəkdir. Bu məqsədlə hazırlanmış Konsepsiyada, ilk növbədə, ölkədə gömrük–biznes əməkdaşlığında mövcud vəziyyət təhlil olunur, daha sonra əldə edilən nəticələrə uyğun olaraq və qlobal trendlərə əsaslanaraq müəyyənləşdirilən prioritet istiqamətlər və tədbirlər planı vasitəsilə sözügedən sahədə strateji məqsədlərə və göstəricilərə nail olunması nəzərdə tutulur.

Etibarlı tərəfdaşlıq normativ hüquqi aktların tələblərinə riayət edən və dövlət tərəfindən onlara verilmiş imkanlardan istifadə edən gömrük–biznes münasibətlərində etimad qazanmış iqtisadi subyektlər üçün xarici ticarət sahəsində idarəetmənin optimallaşdırılmasına şərait yaradacaq, “özünüqiymətləndirmə” institutunun inkişafına, yəni biznes öhdəliklərinin və biznes dəyərlərinin qarşılıqlı təhlilinə təkan verməklə, iqtisadi səmərəliliyin yüksəldilməsinə müsbət təsir göstərəcəkdir.

Konsepsiyanın əsas məqsədi sahibkarlıq subyektlərinin maraqlarının qorunması, onların gəlir sahələrinin artırılması və ticarətin asanlaşdırılmasında gömrük xidmətlərinin modernləşdirilməsi, normativ hüquqi bazanın təkmilləşdirilməsi və digər kompleks tədbirlərin həyata keçirilməsidir.

Konsepsiya biznes subyektlərinin gözləntiləri, ehtiyacları və tələbləri nəzərə alınmaqla, dövlət orqanları (qurumları) tərəfindən etibarlı tərəfdaşlığa dair tədbirlər planının müəyyən edilməsinə imkan verəcəkdir. Konsepsiya etibarlı tərəfdaşlara münasibətdə gömrük ödənişlərinin hissə-hissə ödənilməsi, dəstək proqramlarının hazırlanması, etibarlı tərəfdaşlıq üzrə mütəxəssislərin formalaşdırılmasına kömək göstərilməsi, maarifləndirmə işinin aparılması kimi tədbirləri əhatə edəcəkdir. Bu mexanizmin tətbiqi gömrük prosedurlarının sadələşdirilməsi üzrə öhdəliklərin icrasını təmin etməklə yanaşı, etibarlı tərəfdaşlar üçün yeni imkanlar yaradan əlverişli mühit formalaşdıracaqdır. Buna müvafiq olaraq, risklərin etibarlı idarə edilməsini təmin edən gömrük nəzarətinin təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılacaqdır.

**2. Qlobal trendlər**

“Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında” 1974-cü il 25 sentyabr tarixli Beynəlxalq Konvensiyanın (dəyişdirilmiş redaksiyada 1999-cu il iyunun 26-da Brüssel şəhərində qəbul edilmişdir) Baş Əlavəsinin I fəslinin 1.3-cü standartından irəli gələrək, gömrük xidməti biznes subyektləri ilə əməkdaşlığın inkişafı üçün milli qanunvericiliyə və beynəlxalq müqavilələrə uyğun effektiv iş metodlarının tətbiqində ticarət iştirakçıları ilə konsultativ xarakterli rəsmi münasibətlər yaradır. Həmçinin üzv dövlətlərdən qeyd edilən münasibətlərin qurulmasını və saxlanılmasını təmin edən səmərəli vasitələrin müəyyən olunmasını tələb edir. Bu vasitələrdən ən səmərəlisi və beynəlxalq təcrübədə daha çox tətbiq ediləni etibarlı tərəfdaşlıqdır.

Gömrük prosedurları və gömrük əməliyyatlarının tətbiqi mexanizmlərinə, o cümlədən Ümumdünya Gömrük Təşkilatının (bundan sonra – ÜGT) tövsiyələrinə uyğun olaraq, gömrük sisteminin qlobal çağırışlara dəyişikliklər vasitəsilə uyğunlaşdırılması milli sferada təkmilləşmələrə imkan yaradır.

ÜGT-nin “Gömrük 21-ci əsrdə: Ticarətin sadələşdirilməsi və sərhədlərin təhlükəsizliyi vasitəsilə artım və inkişafın gücləndirilməsi” (Doc. SC0090Ea) sənədinə əsasən, gömrük–biznes əməkdaşlığı müasir gömrük orqanlarının fundamental fəaliyyət istiqamətlərindən biridir. Gömrük–biznes əməkdaşlığı həmçinin ÜGT-nin “Qlobal ticarətin sadələşdirilməsi və təhlükəsizliyinin təmin olunması üzrə Təhlükəsiz Çərçivə Standartları”nın ikinci sütunu olmaqla, ticarətin asanlaşdırılması və rəsmiyyətin sadələşdirilməsi ilə bağlı yeni normativ hüquqi çərçivənin müəyyən olunmasını zəruri edir.

Davamlı gömrük–biznes tərəfdaşlığının zəruriliyini və əhəmiyyətini nəzərə alaraq, ÜGT-yə üzv dövlətlərə biznes subyektləri ilə mütəmadi məsləhətləşmə prosesinin və möhkəm tərəfdaşlıq modelinin formalaşdırılmasında kömək məqsədilə “Gömrük–Biznes Tərəfdaşlığına dair Təlimat” hazırlanmışdır. Bu sənəd gömrük orqanlarına tərəfdaşlıq modellərinin yaradılması, prosesin başladılması və fasiləsiz təkmilləşdirmə yolu ilə tərəfdaşlığın inkişaf etdirilməsi barədə istiqamətlər təqdim edir.

Etibarlı tərəfdaşlara münasibətdə fiziki gömrük yoxlamalarının minimuma endirilməsi, risk idarəetməsinə və gömrük auditinə əsaslanan gömrük nəzarətinin və rəsmiləşdirilməsinin daha çevik və şəffaf şəkildə həyata keçirilməsi qlobal ticarətdən irəli gələn yeni tendensiyalar əsasında labüddür. Bu sahədə Yaponiya, Koreya Respublikası, Çin Xalq Respublikası və Gürcüstan gömrük–biznes əməkdaşlığı çərçivəsində yeni tendensiyaların tətbiqinə münasibətdə xüsusi çəkiyə malikdirlər. Xüsusilə bu sahədə “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququ yaradan modellərin səlahiyyətli iqtisadi operator statusuna inteqrasiyası və səlahiyyətli iqtisadi operator institutunun inkişafı uğurlu təcrübə kimi qeyd oluna bilər. Bu təcrübənin Azərbaycan Respublikasında tətbiqi, yəni səlahiyyətli iqtisadi operatora inteqrasiya “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququ əldə etmiş biznes subyektləri üçün daha geniş iqtisadi imkanlar və beynəlxalq bazara çıxış imkanı yaradacaqdır. Səlahiyyətli iqtisadi operatorlar beynəlxalq müqavilələr vasitəsilə təkcə ölkə hüdudları çərçivəsində deyil,  ticarət-təchizat zənciri boyu gömrük nəzarətinin sadələşdirilmiş formalarından istifadə etmək imkanına malik olacaqlar.

Eyni zamanda beynəlxalq təcrübə nəzərə alınmaqla, mal kateqoriyalarına əsaslanan gömrük anbarı uçot sisteminin formalaşdırılması, həyata keçirilən əməliyyatların dairəsinin genişləndirilməsi, eləcə də aidiyyəti dövlət orqanları ilə məlumat mübadiləsi prosesinin təkmilləşdirilməsi biznes subyektlərinin bu sahəyə marağının daha da artmasına təkan verəcək və gəlirlərinin artımı ilə nəticələnəcəkdir.

Türkiyə Respublikasında və Estoniya Respublikasında gömrük təmsilçiliyi ilə bağlı mövcud tənzimləmələr əsasında normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə gömrük təmsilçiliyi hüququnun əldə edilməsi prosesinin sadələşdirilməsi, eyni zamanda bu statusun saxlanılmasının məsuliyyətli davranış nəticəsində mümkünlüyü ön plana çəkiləcəkdir.

Biznes dürüstlüyü prinsipinin təşviqi, dövlət orqanları (qurumları) ilə dürüstlüyə əsaslanan dialoqun inkişafı, biznes subyektləri tərəfindən özünüqiymətləndirmə imkanının genişləndirilməsi, bununla da müasir beynəlxalq tendensiyalara uyğun olaraq dövlət orqanlarına (qurumlarına) normativ hüquqi aktların təkmilləşdirilməsi prosesinin aparılmasına şərait yaradılması xarici ticarət iştirakçılarının dinamik inkişafına töhfə verir. Qeyd olunan meyarların tətbiqi ticarətin asanlaşdırılması ilə bağlı beynəlxalq reytinqlərdə üstün mövqe qazanılmasına imkan yaradacaqdır.

**3. Mövcud vəziyyətin təhlili**

Müstəqillik illərində bir neçə sosial-iqtisadi inkişaf proqramları qəbul edilərək uğurla icra olunmuş, nəticədə idxal-ixrac əməliyyatlarının əhatə dairəsi genişlənmiş, iqtisadiyyatın inkişaf dinamikası artan templə irəliləmiş, adambaşına düşən ümumi daxili məhsulun pay həcmi artmışdır. Bu siyasətin məntiqi davamı olaraq, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” çərçivəsində yeni qlobal trendlərə uyğunlaşmaq məqsədilə ciddi addımlar atılmışdır.

2023-cü ilin sentyabrında suverenliyimizin tam bərpa edilməsi yeni geosiyasi reallıqların formalaşmasına səbəb olmuş, “Şimal–Cənub” və “Şərq–Qərb” marşrutları üzrə yeni imkanların və təhlükəsiz dəhlizlərin yaranması iqtisadi inkişafa mühüm töhfə vermişdir. İşğaldan azad edilmiş ərazilərin mövcud iqtisadi potensialından xalqımızın rifahı və milli maraqlar naminə tam istifadə olunması, xüsusilə Zəngəzur dəhlizi üzərindən reallaşdırılacaq regional nəqliyyat-kommunikasiya layihələri davamlı və dayanıqlı inkişaf üçün geniş imkanlar yaradır. Həmin ərazilərin rezidentlərinə Azərbaycan Respublikasının normativ hüquqi aktlarında nəzərdə tutulan müvafiq azadolmalardan istifadə hüququnun verilməsi, xammal və materialların idxalı ilə bağlı gömrük və vergi güzəştlərinin tətbiq olunacağı fəaliyyət istiqamətlərinin müəyyən edilməsi biznes subyektləri üçün səmərəli şərait yaradılmasına xidmət edir.

Gömrük qanunvericiliyində beynəlxalq ticarət-təchizat zəncirinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə xarici ticarətin iştirakçıları ilə və səlahiyyətli iqtisadi operatorlarla tərəfdaşlıq əlaqələri yaratmaq gömrük orqanlarının vəzifəsidir və bu vəzifənin icrası çərçivəsində gömrük orqanları tərəfindən müvafiq tədbirlər həyata keçirilməkdədir. Buna baxmayaraq, mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğun yeni normativ hüquqi aktların hazırlanması məqsədilə biznes subyektləri ilə birgə fəaliyyət proqramının hazırlanması zəruridir.

ÜGT-nin strateji planına əsasən, özəl sektorla əməkdaşlıq gömrük orqanlarına hansı sahədə islahatlar aparılmasının zəruri olduğunu müəyyənləşdirməyə və resursları müvafiq istiqamətlərdə səmərəli istifadəyə kömək edir. Tərəfdaşlığın əsas elementlərindən biri isə beynəlxalq ticarət-təchizat zəncirinin iştirakçılarında normativ hüquqi aktların tələblərinə könüllü riayət etmə mədəniyyətinin təşviqi məqsədilə təlimlər keçirilməsi və zəruri texniki dəstək göstərilməsidir. Gömrük–biznes əməkdaşlığı həmçinin məlumatların əvvəlcədən ötürülməsinin təmin edilməsini və bununla da risklərin daha səmərəli qiymətləndirilməsi yolu ilə malların və nəqliyyat vasitələrinin keçidinin asanlaşdırılmasını, eləcə də gömrük işi sahəsində hüquqpozmaların qarşısının alınmasını təmin edir.

Gömrük–biznes əməkdaşlığı çərçivəsində dürüstlüyün təmin edilməsinin fundamental elementi dövlət orqanları (qurumları) tərəfindən biznes subyektləri ilə açıq, qərəzsiz və məhsuldar əməkdaşlığın qurulmasıdır. Biznes dürüstlüyünün digər elementi biznes subyektləri üçün aydın və peşəkar davranış normalarını müəyyən edən etik davranış qaydalarının hazırlanmasıdır.

Beynəlxalq ticarət-təchizat zəncirinin iştirakçıları üçün müvafiq üstünlüklərin verilməsi həm biznes subyektləri, həm də gömrük orqanları üçün faydalıdır. Bu üstünlüklər malların buraxılışını asanlaşdırır, gömrük qanunvericiliyinə könüllü riayət etmə mədəniyyətini təşviq edir və resurslardan daha səmərəli istifadəyə imkan yaradır, həmçinin dövlət, biznes subyektləri və digər dövlətlər arasında etibarlı tərəfdaşlığı inkişaf etdirərək, beynəlxalq ticarət çərçivəsində müasir əməkdaşlıq konsepsiyasına keçidi təşviq edir.

**“Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadənin tətbiqi nəticəsi və səlahiyyətli iqtisadi operator statusuna inteqrasiya:** malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin daha çevik və şəffaf həyata keçirilməsi və məmur–vətəndaş münasibətlərinin müasir idarəçilik prinsipləri əsasında inkişaf etdirilməsi məqsədilə gömrük orqanlarına əvvəlcədən elektron formada qısa idxal bəyannaməsini təqdim etmək yolu ilə malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün “Yaşıl dəhliz” və beynəlxalq təcrübədə mövcud olan digər buraxılış sistemlərinin yaradılmasını təmin etmək məqsədilə “Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün “Yaşıl dəhliz” və digər buraxılış sistemlərindən istifadə Qaydaları” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 may tarixli 920 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin “Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 2016-cı il 4 mart tarixli 1853 nömrəli, “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri”nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında” 2016-cı il 16 mart tarixli 1897 nömrəli sərəncamlarına və digər hüquqi aktlara uyğun olaraq, malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi və elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi məqsədilə “Yaşıl dəhliz”, eləcə də beynəlxalq təcrübədə mövcud olan digər buraxılış sistemlərinin yaradılmasının təmin edilməsi ilə bağlı bir sıra tədbirlər icra olunmuşdur. Həmçinin “Xarici ticarət iştirakçılarının “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydası” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 dekabr tarixli 427 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

Beynəlxalq təcrübəyə uyğun normativ hüquqi bazanın formalaşdırılması xarici ticarət iştirakçılarının “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsinə imkan yaratmış və gömrük rəsmiləşdirilməsi sadələşdirilmişdir.

Mövcud təcrübədə “Yaşıl dəhliz” buraxılış sisteminin məqsədi xarici ticarət iştirakçıları üçün daha əlverişli şərait yaratmaq, biznesin dövlət tənzimləmə mexanizmlərinin səmərəliliyini artırmaq, qanunlara könüllü riayət mədəniyyətini formalaşdırmaq, risk qiymətləndirilməsi və gömrük auditi əsasında gömrük nəzarətini və rəsmiləşdirilməsini daha çevik və şəffaf həyata keçirməklə fiziki gömrük yoxlamalarını minimuma endirmək, ölkənin ixrac potensialını gücləndirmək, məmur–sahibkar münasibətlərini müasir idarəçilik prinsiplərinə uyğun olaraq inkişaf etdirmək və mövcud resurslardan daha optimal istifadəni təmin etməkdir. Qeyd edilən sistemin illər üzrə inkişaf dinamikasına nəzər yetirdikdə, sistemdən istifadənin azaldığı müşahidə olunur. Təqdim edilən sadələşdirmə prosedurlarının həcminin məhdud olması, risk qiymətləndirilməsinin nəticələrinə uyğun olaraq “Yaşıl dəhliz” buraxılış sisteminə yönləndirilmiş ixracatçı və idxalatçıların “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququ əldə etmiş şəxslərlə oxşar üstünlüklərə malik olması, sistemin öz daxilində qiymətləndirmə, o cümlədən hüquqpozmaların və bu sistemdən istifadə hüququnu məhdudlaşdırmağa imkan verən digər halların aşkar edilməsi üçün yoxlama mexanizminin olmaması adıçəkilən sistemin səmərəliliyinin azalmasına səbəb olmaqla, gələcək perspektivdə rəqabətədavamlı bazar mühiti üçün proqnozlaşdırılan gömrük–biznes əməkdaşlığına biznes subyektlərinin marağının azalmasına gətirib çıxarır.

Ticarətin qloballaşdırılması və iqtisadiyyatın diversifikasiyası üçün həyata keçirilən silsilə tədbirlərin məntiqi nəticəsi sistemin beynəlxalq ticarət qaydalarına uyğunlaşdırılmasını tələb edir. Eyni zamanda yuxarıda adıçəkilən sistem üzrə güzəştlərin səlahiyyətli iqtisadi operator statusu çərçivəsində verilən güzəştlərlə eynilik təşkil etməsi, lakin beynəlxalq arenada tanınan statusunun olmaması onu milli səviyyədə ekosistemin qapalı institutuna çevirmişdir.

Beynəlxalq təcrübə göstərir ki, gömrük orqanları tərəfindən beynəlxalq ticarət-təchizat zəncirinin təhlükəsizliyinin təmin edilməsi üçün harmonikləşdirilmiş normativ hüquqi aktlar, risklərin təhlili və gömrük, vergi, digər dövlət orqanlarının (qurumlarının), eləcə də özəl tərəfdaşların birgə səyi ilə səlahiyyətli iqtisadi operator institutunun inkişaf etdirilməsinə ehtiyac vardır.

Həmçinin “Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında” 1974-cü il 25 sentyabr tarixli Beynəlxalq Konvensiyada (dəyişdirilmiş redaksiyada 1999-cu il iyunun 26-da Brüssel şəhərində qəbul edilmişdir) səlahiyyət verilmiş şəxs konsepsiyası əsasında qurulmuş səlahiyyətli iqtisadi operator institutu beynəlxalq norma və standartlara uyğun biznes subyektlərinə müvafiq güzəşt və üstünlüklərin verilməsini nəzərdə tutur.

**Anbar sisteminin cari vəziyyəti:** malların istehsal prosesi ilə yanaşı, istehlakçıya çatdırılması ticarət zəncirinin əsas komponentidir və malların istehlakçıya çatdırılarkən anbarlarda saxlanılması anbar şəbəkəsinin genişləndirilməsinin hərəkətverici qüvvəsidir. Ölkəmizin mühüm nəqliyyat qovşaqlarında yerləşməsi, tranzit potensialının güclənməsi və artan istehsal həcmi anbar sisteminin təkmilləşdirilməsini labüd edir.

2024-cü ildə nəqliyyat dəhlizlərində daşınmış yüklərin həcmi 33258,0 min ton, yük dövriyyəsi isə 13198,3 milyon ton-km olmuş, əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 1,4 faiz və 2,5 faiz artım müşahidə edilmişdir. “Şərq–Qərb” nəqliyyat dəhlizi ilə daşınmış yüklərin həcmi 16982,4 min ton, o cümlədən Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizi ilə 8322,3 min ton, “Şimal–Cənub” nəqliyyat dəhlizi ilə 9896,5 min ton, “Şimal–Qərb” nəqliyyat dəhlizi ilə 5984,9 min ton, “Cənub–Qərb” nəqliyyat dəhlizi ilə daşınmış yüklərin həcmi isə 394,2 min ton təşkil etmişdir. Yüklərin 15277,6 min tonu və ya 46,0 faizi dəmir yolu nəqliyyatı, 10090,0 min tonu və ya 30,3 faizi avtomobil nəqliyyatı, 7890,4 min tonu və ya 23,7 faizi dəniz nəqliyyatı ilə daşınmışdır. Nəqliyyat dəhlizləri vasitəsilə daşınmış yüklərin 56,6 faizini və ya 18840,1 min tonunu tranzit yüklər təşkil etmişdir. Həyata keçirilən idxal-ixrac və tranzit əməliyyatlarının artım dinamikası malların gömrük nəzarəti altında anbarlarda saxlanılması məsələsinin aktuallığını artırmışdır. Anbarlarda malların saxlanması ilə yanaşı, emal və satış əməliyyatlarının həyata keçirilməsi qlobal çağırışlardan irəli gəlir.

Hazırda Azərbaycan Respublikasında gömrük anbar sistemi ilə bağlı normativ hüquqi baza mövcuddur, müxtəlif növ anbarlar fəaliyyət göstərir. Lakin sistemin tam potensialını reallaşdırmaq və nəzarət mexanizmlərini inkişaf etdirmək vacibdir. Mövcud anbar sisteminin təkmilləşdirilməsi gömrük orqanları ilə münasibətdə etibarlı tərəfdaşlığın formalaşmasına müsbət təsir edəcəkdir.

**Təmsilçilik institutunun cari vəziyyəti:** hazırda təcrübədə gömrük təmsilçiliyi institutu əsasən gömrük bəyannamələrinin tərtibi ilə məhdudlaşır, ancaq beynəlxalq qanunvericilikdə gömrük əməliyyatlarının yerinə yetirilməsi ilə bağlı kifayət qədər geniş imkanlar mövcuddur.

Beynəlxalq təcrübədə gömrük təmsilçisi qismində fəaliyyət göstərən şəxslər gömrük bəyannamələrinin və digər məlumatların gömrük orqanlarına təqdim edilməsi ilə yanaşı, gömrük rəsmiləşdirilməsi ilə bağlı sənədlərin hazırlanması (icazə və lisenziyaların alınması), malların uçotu, rəsmiləşdirmə prosesində aidiyyəti dövlət orqanları ilə əlaqələr qurulması, gömrük ödənişlərinin ödənilməsi və qaytarılması, mübahisələrin həllində vasitəçilik, konsultasiya xidmətləri göstərilməsi, eləcə də gömrük rəsmiləşdirilməsindən sonrakı audit üzrə xidmətlər göstərirlər. Həmçinin təmsilçilik fəaliyyətinin göstərilməsi üçün bəzi standartlara, xüsusilə gömrük və digər əlaqəli normativ hüquqi aktlar üzrə, ticarətlə əlaqəli daşınma və maliyyə məsələləri üzrə biliklərə, maliyyə imkanlarına, elektron sistemə, məlumatları elektron ötürmək bacarığına, minimum təhsil səviyyəsinə, iş təcrübəsinə və təlim saatlarına malik olmalıdırlar.

Cari vəziyyətdə təmsilçilik fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması və təkmilləşmələrin aparılması gömrük təmsilçilərinin etibarlı tərəfdaş qismində tanınmasını zəruri edir.

**4. Konsepsiyanın hədəf göstəriciləri**

4.1. Konsepsiyanın icrası nəticəsində aşağıdakı hədəflərə nail olunması nəzərdə tutulur:

4.1.1. “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququnun səlahiyyətli iqtisadi operator statusu ilə əhatələnməsi və səlahiyyətli iqtisadi operatorların dairəsinin genişləndirilməsi;

4.1.2. gömrük anbarının və gömrük təmsilçiliyinin qlobal çağırışlara uyğunlaşdırılması;

4.1.3.biznes subyektlərinin inkişafı üçün münbit şərait və etibarlı ticarət mühiti yaradılması;

4.1.4. gömrük orqanları tərəfindən biznes subyektlərinə təqdim edilən sadələşdirmə mexanizmlərinin artırılması;

4.1.5. müvafiq dövlət orqanlarının (qurumlarının) etibarlı tərəfdaş sisteminin qurulmasına aktiv cəlb edilməsi;

4.1.6. “dövlət–sahibkar–istehlakçı” zəncirinin işləmə mexanizminin əlverişli və sadələşdirilmiş səviyyəyə çatdırılması;

4.1.7. gömrük–biznes əməkdaşlığında beynəlxalq standartların tətbiqi ilə yeni tənzimləmə mexanizmlərinin formalaşdırılması;

4.1.8. biznes dürüstlüyü prinsipinin təşviqi və biznes subyektləri tərəfindən özünüqiymətləndirmə imkanının genişləndirilməsi;

4.1.9. ticarət-təchizat zənciri boyu təhlükəsizlik tədbirlərinin gücləndirilməsi;

4.1.10. gömrük işi sahəsində qərarların qəbul edilməsi prosesində rəqəmsallaşma və rəqəmsal gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsində “Yaşıl texnologiyalar”dan istifadə edilməsi.

**5. Konsepsiyanın məqsədləri**

5.1. Konsepsiya dövlət və biznes maraqları nəzərə alınmaqla, aşağıdakı məqsədlərə nail olunmasına xidmət edir:

**5.1.1. dövlət nöqteyi-nəzərindən:**

5.1.1.1. təhlükəsiz və sadələşdirilmiş ticarətin təşviq edilməsi;

5.1.1.2. transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi;

5.1.1.3. iqtisadiyyatın diversifikasiyasının təmin edilməsi;

5.1.1.4. dövlətin sosial-iqtisadi siyasətinə xidmət edilməsi;

5.1.1.5. səmərəli gömrük–biznes dialoqunun qurulması;

**5.1.2. biznes nöqteyi-nəzərindən:**

5.1.2.1. gömrük–biznes dialoqunun inkişaf etdirilməsi;

5.1.2.2. gömrük nəzarətinin sadələşdirilmiş formalarından istifadə edilməsi;

5.1.2.3. idxal, ixrac və tranzit əməliyyatları üzrə “özünüqiymətləndirmə” prinsipinin tətbiqi, gəlirlərin artması və biznesin düzgün proqnozlaşdırılması;

5.1.2.4. dövlət dəstək mexanizminin gücləndirilməsi.

5.2. Qarşılıqlı münasibətlər müstəvisində dayanıqlı əməkdaşlığın qanuni əsaslarla qurulması üçün biznes subyektləri ilə birgə fəaliyyət proqramı olan Konsepsiya mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsinə və beynəlxalq standartlara uyğun yeni normativ hüquqi aktların hazırlanmasına münbit şərait yaradacaqdır. ÜGT-nin müəyyən etdiyi strateji hədəflərə və standartlara uyğun biznes yönümlü islahatların həyata keçirilməsi, normativ hüquqi aktların dünya ticarət sistemində tətbiq edilən təcrübəyə uyğunlaşdırılması, nəticə olaraq yerli şirkətlərin və bütövlükdə ölkə iqtisadiyyatının inkişafına yeni imkanlar açacaqdır. Büdcə vəsaitinin formalaşması sahəsində fiskal intizamın təmin edilməsinə, vəsaitin düzgün bölüşdürülməsinə və xərclərin səmərəliliyinin artırılmasına zəmin yaranacaq, gömrük ödənişlərindən yayınma riskləri üzrə çevik qiymətləndirmə aparılacaqdır.

**6. Konsepsiyanın prioritet istiqamətləri**

6.1. Konsepsiya çərçivəsində aşağıdakı prioritet istiqamətlər üzrə tədbirlər həyata keçiriləcəkdir:

**6.1.1. etibarlı tərəfdaşlığın inkişaf etdirilməsi üçün normativ hüquqi bazanın təkmilləşdirilməsi, milli və beynəlxalq səviyyədə sadələşdirmə tədbirlərinin etibarlı tərəfdaşlara tətbiqi mexanizmlərinin hazırlanması:**

**6.1.1.1. əsaslandırma:** etibarlı tərəfdaşlığın inkişafı məqsədilə səlahiyyətli iqtisadi operator statusuna dair normativ hüquqi aktların təkmilləşdirilməsi, sadələşdirmə mexanizmlərinin genişləndirilməsi, anbar sisteminin və infrastrukturunun inkişaf etdirilməsi, təmsilçilik institutunun beynəlxalq təcrübəyə uyğunlaşdırılması həyata keçiriləcəkdir. ÜGT-nin norma və standartlarının, həmçinin mütərəqqi beynəlxalq təcrübənin tətbiqi nəticəsində etibarlı tərəfdaşlara münasibətdə sadələşdirmə tədbirlərinin sferası genişləndiriləcək, səlahiyyətli iqtisadi operatorların transsərhəd əməliyyatlarında prioritetliyin təmin edilməsi məqsədilə qarşılıqlı tanınma müqavilələrinin imzalanması ölkəmizin ticarət potensialının artım dinamikasına təsir edəcəkdir;

**6.1.1.2. görüləcək tədbirlər:**

6.1.1.2.1. səlahiyyətli iqtisadi operator statusu üzrə dövlət dəstək mexanizminin formalaşdırılması;

6.1.1.2.2. gömrük anbarı sisteminin inkişaf etdirilməsi;

6.1.1.2.3. gömrük təmsilçiliyi ilə bağlı fəaliyyətin təkmilləşdirilməsi;

6.1.1.2.4. xarici ölkələrlə səlahiyyətli iqtisadi operatorların qarşılıqlı tanınması;

6.1.1.3. gözlənilən nəticə və nəticə indikatorları:

6.1.1.3.1. səlahiyyətli iqtisadi operator statusunun əhatə dairəsinin genişləndirilməsi və xidmət göstərilməsi sahəsində onlara üstünlük verilməsi;

6.1.1.3.2. gömrük anbarından istifadə hüququnun əldə edilməsi, anbarların quruluşu və monitorinqinə dair tələblərin təkmilləşdirilməsi və sahibkarlıq subyektləri tərəfindən gömrük anbarında müxtəlif əməliyyatlar aparılmasına imkan verən mexanizmin qurulması;

6.1.1.3.3. gömrük təmsilçiliyi hüququnun əldə edilməsi şərtlərinin müəyyənləşdirilməsi və bu sahədə nəzarət mexanizmlərinin tətbiqinə dair təhlillər aparılması, gömrük təmsilçiliyi üzrə təlim-tədris metodlarının hazırlanması və maarifləndirmə işinin görülməsi;

*Ardı 8-ci səh.*

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Etibarlı Tərəfdaş Konsepsiyası

*Əvvəli 7-ci səh.*

6.1.1.3.4. beynəlxalq və ikitərəfli platformalarda səlahiyyətli iqtisadi operatorların qarşılıqlı tanınması ilə əlaqədar hökumətlərarası razılaşmaların həyata keçirilməsi;

**6.1.1.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.1.4.1. səlahiyyətli iqtisadi operator, gömrük anbarı və gömrük təmsilçiliyi institutlarının mövcud reallıqlara və beynəlxalq təcrübəyə uyğunlaşdırılmaması bu sahələrin inkişafına maneə ola bilər. Bu riski neytrallaşdırmaq üçün normativ hüquqi bazanın təkmilləşdirilməsi həyata keçiriləcəkdir;

6.1.1.4.2. səlahiyyətli iqtisadi operatorların beynəlxalq səviyyəli statusunun olmasına baxmayaraq, qarşılıqlı tanınma olmadığından sadələşdirmə mexanizmlərindən istifadə edə bilməmələrinə və nəticə etibarilə bu statusun əldə edilməsinə marağın azalmasına səbəb olur. Bu riskin neytrallaşdırılması məqsədilə mütəmadi olaraq qarşılıqlı tanınma sazişləri üzrə iş aparılacaqdır;

**6.1.2. etibarlı tərəfdaşların gömrük ödənişlərinin hissə-hissə ödənilməsi prosesinin və müddətinin formalaşdırılması, mikro və kiçik sahibkarların likvidlik imkanlarının artırılması:**

**6.1.2.1. əsaslandırma:** etibarlı tərəfdaşlar üçün gömrük ödənişlərinin hissə-hissə ödənilməsini təmin edən şəffaf sistemin qurulması, bununla bağlı normativ hüquqi aktların, həmçinin gömrük dəstək mexanizminin formalaşdırılması biznes subyektlərinin maliyyə vəziyyətinin yaxşılaşdırılmasına şərait yaradacaqdır. Həmçinin beynəlxalq təcrübə nəzərə alınmaqla idxal (bəzi kateqoriya malların) və ixrac əməliyyatları üzrə gömrük ödənişlərindən azadolma məbləğinin müəyyən edilməsi, tətbiqi kiçik və orta sahibkarlığa dövlət dəstək mexanizminin göstəricisi olmaqla onları müəyyən xərclərdən azad etməyi nəzərdə tutur;

**6.1.2.2. görüləcək tədbirlər:**

6.1.2.2.1. etibarlı tərəfdaşlıq üçün maliyyə dayanıqlılığına dair mexanizmlərin gücləndirilməsi;

6.1.2.2.2. "Malların ikipilləli buraxılış sistemi"nin tətbiqi;

6.1.2.2.3. mikro və kiçik sahibkarlara əlavə dəstək mexanizminin inkişaf etdirilməsi;

**6.1.2.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.2.3.1. gömrük ödənişlərinin hissə-hissə ödənilməsini təmin edən şəffaf sistemin qurulması;

6.1.2.3.2. beynəlxalq təcrübədə idxal (bəzi kateqoriya malların) və ixrac əməliyyatları üzrə gömrük ödənişlərindən azadolma məbləğinin hədlərinin dəyişim templərinə uyğun olaraq güzəşt mexanizmlərinin öyrənilməsi;

6.1.2.3.3. gömrük ödənişlərindən azadolma məbləğinin tətbiqi dairəsinin müəyyənləşdirilməsi;

**6.1.2.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.2.4.1. biznes subyektlərinin maliyyə dayanıqlılığına müsbət təsir göstərəcək üstünlüklərin əldə edilməsinə şərait yaradılmaması etibarlı tərəfdaşların formalaşdırılmasına mənfi təsir edir. Qeyd olunan riskin aradan qaldırılması məqsədilə etibarlı tərəfdaş olan biznes subyektlərinə gömrük ödənişlərinin hissə-hissə ödənilməsinə imkan verən sistem qurulacaqdır;

6.1.2.4.2. mikro və kiçik sahibkarların xarici ticarət fəaliyyəti zamanı gəlir mənbələrinin genişləndirilməsi məqsədilə bəzi kateqoriya mallara müəyyən edilmiş gömrük ödənişlərindən azadolma məbləğinin hədləri iqtisadi reallığa uyğun dəyişikliklərə məruz qalacaqdır. Bununla əlaqədar, bəzi kateqoriya mallara gömrük ödənişlərindən azadolma məbləği hədlərinin dəyişim tempinin mütəmadi olaraq beynəlxalq təcrübəyə uyğunlaşdırılması həyata keçiriləcəkdir;

**6.1.3. sadələşdirmə tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi:**

**6.1.3.1. əsaslandırma:** beynəlxalq təcrübə nəzərə alınmaqla, nəqliyyat vasitələri ilə beynəlxalq daşımalarda əvvəlcədən məlumatlandırma sisteminin qurulması və onun gömrük əməliyyatlarına inteqrasiyasının təmin edilməsi gömrük nəzarətinin formalarının düzgün seçilməsinə və gömrük rəsmiləşdirilməsinin çevik həyata keçirilməsinə səbəb olmaqla, idxal-ixrac əməliyyatlarının həcminin artmasına təkan verəcəkdir. Etibarlı tərəfdaşlar tərəfindən həyata keçirilən idxal-ixrac əməliyyatları üzrə "Dərhal buraxılış" sisteminin tətbiqi yüklərin təyinat nöqtəsinə daha çevik çatdırılması və vaxt itkisinin azalması ilə nəticələnəcəkdir;

**6.1.3.2. görüləcək tədbirlər:**

6.1.3.2.1. gömrük məqsədləri üçün beynəlxalq daşımalarda əvvəlcədən məlumatlandırma sisteminin qurulması;

6.1.3.2.2. etibarlı tərəfdaşlar tərəfindən həyata keçirilən idxal-ixrac əməliyyatları üzrə "Dərhal buraxılış" sisteminin tətbiqi;

**6.1.3.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.3.3.1. beynəlxalq daşımalarda əvvəlcədən məlumatlandırma sisteminin tətbiqi nəticəsində malların və nəqliyyat vasitələrinin dövlət sərhədindən buraxılış məntəqələrindən sürətli keçidinin təmin olunması və səmərəli gömrük nəzarətinin həyata keçirilməsi;

6.1.3.3.2. "Dərhal buraxılış" sisteminə dair normativ hüquqi bazanın yaradılması, texniki və idarəetmə infrastrukturu formalaşdırılmaqla həmin sistemin tətbiqi;

**6.1.3.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.3.4.1. dövlət sərhədindən keçirilən mal və nəqliyyat vasitələri barədə daşıyıcıların əvvəlcədən gömrük orqanlarına təqdim etdikləri məlumatların keyfiyyətli olmaması bu sahədə risk profillərinin formalaşdırılmasına və gömrük nəzarətinin səmərəli təşkilinə çətinlik yaradır. Bu istiqamətdə zəruri işlər görülməsi dövlət sərhədindən keçirilən mal və nəqliyyat vasitələrinə münasibətdə səmərəli gömrük nəzarətinin təşkilinə, sahibkarlıq subyektlərinə münasibətdə vaxt və maliyyə itkisinin aradan qaldırılmasına şərait yaradacaqdır;

6.1.3.4.2. etibarlı tərəfdaşlar tərəfindən həyata keçirilən idxal-ixrac əməliyyatlarında "Dərhal buraxılış" sisteminin tətbiqi dövlət sərhəd buraxılış məntəqələrində növbələrin yaranmasına gətirib çıxara bilər. Qeyd olunan halların aradan qaldırılması məqsədilə texniki və idarəetmə infrastrukturu dövlət sərhəd buraxılış məntəqələrinin şəraitinə uyğunlaşdırılacaqdır;

**6.1.4. etibarlı tərəfdaşlar üçün biznes dürüstlüyünə əsaslanan "Özünüqiymətləndirmə" sisteminin qurulması:**

**6.1.4.1. əsaslandırma:** "Gömrük–biznes" inkişaf modeli fonunda biznes dürüstlüyünə əsaslanan "özünüqiymətləndirmə" institutunun yaradılması biznes subyektlərinin fəaliyyətinin özləri tərəfindən təhlilinin həyata keçirilməsinə, gömrük–biznes əlaqələrində çatışmazlıqların müəyyən edilməsinə və biznes fəaliyyətinə maneçilik törədən amillərin aradan qaldırılmasına şərait yaradacaqdır. Biznes subyektlərinin özünüqiymətləndirmə imkanını genişləndirməsi ticarət-təchizat zənciri boyu, o cümlədən "gömrük–biznes" dialoqunda problemlərin müəyyənləşdirilməsinə, biznes subyektlərinin dövlət idarəetməsində rolunun artmasına, dövlət orqanlarının (qurumlarının) özünütəhlil prinsipinin təşviqinə, reytinqli və qlobal biznes subyektlərinin formalaşdırılmasına zəmin yaradacaqdır;

**6.1.4.2. görüləcək tədbirlər:**

6.1.4.2.1. etibarlı tərəfdaşlar üçün biznes dürüstlüyünə əsaslanan "özünüqiymətləndirmə" sisteminin tətbiqi;

6.1.4.2.2. "gömrük–biznes" inkişaf modelinin yaradılması;

**6.1.4.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.4.3.1. biznes dürüstlüyünə əsaslanan "Özünüqiymətləndirmə" sisteminin formalaşdırılması ilə əlaqədar beynəlxalq təcrübənin (Yenilənmiş Aruşa bəyannaməsi və onun komponentləri) öyrənilməsi və gömrük–biznes əməkdaşlığında implementasiyası;

6.1.4.3.2. biznes subyektləri tərəfindən gömrük əməliyyatlarına əlçatanlığın təmin edilməsi məqsədilə "özünet" prinsipinin tətbiq dairəsinin genişləndirilməsi;

6.1.4.3.3. xarici ticarət iştirakçıları ilə dayanıqlı tərəfdaşlıq mexanizminin formalaşdırılmasına xidmət edən "Gömrük–biznes" inkişaf modelinin yaradılması və müntəzəm qaydada məlumat mübadiləsinin aparılması;

**6.1.4.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.4.4.1. ÜGT standartlarında və Yenilənmiş Aruşa bəyannaməsində özünüqiymətləndirmə və biznes dürüstlüyü ilə bağlı müddəaların tətbiqi gömrük–biznes əməkdaşlığında müəyyən balans itkisinə səbəb ola və bu təcrübədə həmin müddəaların uyğunlaşdırılmasına çətinlik yarada bilər. Bu riskin neytrallaşdırılması istiqamətində maarifləndirmə tədbirlərinin sayı artırılaraq sahibkarlıq subyektləri tərəfindən öz fəaliyyətini qiymətləndirməsi məqsədilə alət və mexanizmlərin formalaşmasına dəstək veriləcəkdir. Biznes subyektləri üçün özünüqiymətləndirmə fəaliyyətinin inkişaf etdirilməsi məqsədilə gömrük orqanları tərəfindən dəstək mexanizmləri təkmilləşdiriləcək, könüllü riayət və "özünet" prinsiplərinin şaxələnməsi sürətləndiriləcək və gömrük–biznes ikitərəfli (bilateral) münasibətlərində risklər rasionallaşdırılacaqdır;

**6.1.5. etibarlı tərəfdaşlıqla bağlı üstünlüklərin təbliğ və təşviq edilməsi:**

**6.1.5.1. əsaslandırma:** C2B (gömrük–biznes) və G2B (dövlət–biznes) formatlarında keçirilən görüşlərdə etibarlı tərəfdaşlar üçün gömrük rəsmiləşdirilməsi və gömrük nəzarətinin sadələşdirilməsi ilə bağlı üstünlüklərin təşviqi, etibarlı tərəfdaşların sayının artırılması, eləcə də onların gömrük işi və gömrük inzibatçılığı üzrə proseslərə cəlb edilməsi ilə bağlı işlərin görülməsi prioritet istiqamətlərdəndir;

**6.1.5.2. görüləcək tədbirlər:**

6.1.5.2.1. etibarlı tərəfdaşlığın təbliğ və təşviq edilməsi;

6.1.5.2.2. səlahiyyətli iqtisadi operator fəaliyyəti üzrə mütəxəssislərin hazırlanmasına dəstək mexanizminin formalaşdırılması;

**6.1.5.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.5.3.1. etibarlı tərəfdaş mühitinin formalaşdırılması sahəsində C2B (gömrük– biznes) və G2B (dövlət–biznes) formatlarında keçirilən görüşlərdə Konsepsiya barədə biznes subyektlərinin məlumatlandırılması;

6.1.5.3.2. səlahiyyətli iqtisadi operator fəaliyyəti üzrə mütəxəssislərin formalaşdırılması üçün beynəlxalq təcrübə öyrənilməklə təlim proqramlarının hazırlanması;

**6.1.5.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.5.4.1. Konsepsiya ilə bağlı məlumatsızlıq gömrük orqanları tərəfindən ticarətin asanlaşdırılması üçün həyata keçirilən tədbirlərdən istifadə etməməyə səbəb ola bilər. Bu riskin aradan qaldırılması məqsədilə, mütəmadi olaraq, Konsepsiyanın özündə əks etdirdiyi alətlər və mexanizmlər barədə müxtəlif formatlarda keçirilən görüşlərdə məlumatlar təqdim ediləcəkdir;

6.1.5.4.2. səlahiyyətli iqtisadi operator fəaliyyəti üzrə mütəxəssis çatışmazlığı bu statusun əldə olunması prosesini uzunmüddətli edir. Bu institutun hərtərəfli inkişafı məqsədilə mütəxəssislərin formalaşdırılması üçün xüsusi proqramlar hazırlanaraq təlimlər keçirilməsi təşkil ediləcəkdir.

**7. Maliyyələşdirmə mexanizmləri**

Konsepsiyanın həyata keçirilməsi üzrə Tədbirlər Planında qeyd edilən müvafiq tədbirlərin maliyyələşdirilməsi büdcə təşkilatları üçün onların saxlanılması məqsədilə Azərbaycan Respublikasının dövlət büdcəsində nəzərdə tutulan vəsait və qanunla qadağan olunmayan digər mənbələr hesabına, habelə özəl sektorun vəsaiti və dövlət–özəl tərəfdaşlığı layihələri vasitəsilə təmin olunur.

**8. Konsepsiyanın həyata keçirilməsi üzrə**

**TƏDBİRLƏR PLANI**

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticə | aralıq nəticə | yekun nəticə |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| **8.1. Etibarlı tərəfdaşlığın inkişaf etdirilməsi üçün normativ hüquqi bazanın təkmilləşdirilməsi, milli və beynəlxalq səviyyədə sadələşdirmə tədbirlərinin etibarlı tərəfdaşlara tətbiqi mexanizmlərinin hazırlanması** | | | | | | | |
| 8.1.1. | Səlahiyyətli iqtisadi operator statusu üzrə dövlət dəstək mexanizminin formalaşdırılması | NK | DGK, İN, RİNN, MN, AQTA və digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2028 | Beynəlxalq təcrübə nəzərə alınmaqla normativ hüquqi bazanın təkmilləşdirilməsi | Səlahiyyətli iqtisadi operator statusu əldə etmiş şəxslərə dövlət orqanları (qurumları) tərəfindən xidmət göstərilməsi sahəsində üstünlük verilməsi | |
| 8.1.2. | Gömrük anbarı sisteminin inkişaf etdirilməsi | NK | DGK, İN, RİNN | 2026–2028 | Gömrük anbarlarına dair beynəlxalq qanunvericiliyin təhlili | Təhlillərin nəticəsi nəzərə alınaraq, gömrük anbarlarına dair Azərbaycan Respublikasının normativ hüquqi aktlarının təkmilləşdirilməsi | Gömrük anbarından istifadə hüququnun əldə edilməsi, anbarların quruluşuna və monitorinqinə dair tələblərin təkmilləşdirilməsi |
| 8.1.3. | Gömrük təmsilçiliyi ilə bağlı fəaliyyətin təkmilləşdirilməsi | NK | DGK, İN | 2026–2028 | Gömrük təmsilçiliyi hüququnun əldə edilməsi şərtlərinin müəyyənləşdirilməsi və bu sahədə nəzarət mexanizmlərinin tətbiqinə dair təhlillər aparılması | Gömrük təmsilçiliyinə dair normativ hüquqi bazanın təkmilləşdirilməsi | Gömrük təmsilçiliyi üzrə təlim-tədris metodlarının hazırlanması və maarifləndirmə işinin aparılması |
| 8.1.4. | Xarici ölkələrlə səlahiyyətli iqtisadi operatorların qarşılıqlı tanınması | NK | RİNN, İN, DGK, XİN | Mütəmadi | Qarşılıqlı tanınma ilə əlaqədar, ilk növbədə, həmsərhəd ölkələrlə və Azərbaycan Respublikasının əsas ticarət tərəfdaşları ilə hökumətlərarası razılaşmaların həyata keçirilməsi | | Beynəlxalq və ikitərəfli platformalarda səlahiyyətli iqtisadi operatorların qarşılıqlı tanınması istiqamətində danışıqlar aparılması |
| **8.2. Etibarlı tərəfdaşların gömrük ödənişlərinin hissə-hissə ödənilməsi prosesinin və müddətinin formalaşdırılması, mikro və kiçik sahibkarların likvidlik imkanlarının artırılması** | | | | | | | |
| 8.2.1. | Etibarlı tərəfdaşlar üçün maliyyə dayanıqlılığına dair mexanizmlərin gücləndirilməsi | NK | DGK, MN, İN | 2026–2028 | Gömrük ödənişlərinin hissə-hissə ödənilməsini tənzimləyən normativ hüquqi bazanın formalaşdırılması | | Gömrük ödənişlərinin hissə-hissə ödənilməsini təmin edən çevik və şəffaf sistemin qurulması |
| 8.2.2. | "Malların ikipilləli buraxılış sistemi"nin tətbiqi | NK | DGK, İN, MN | 2026–2028 | Etibarlı tərəfdaşların gömrük ödənişlərinin ödənilməsi prosesində ikipilləli buraxılış sisteminin tətbiqi üçün beynəlxalq təcrübənin araşdırılması | Malların ikipilləli buraxılışına dair normativ hüquqi bazanın formalaşdırılması | Malların ikipilləli buraxılış sisteminin etibarlı tərəfdaşlara münasibətdə tətbiqi |
| 8.2.3. | Mikro və kiçik sahibkarlara əlavə dəstək mexanizminin inkişaf etdirilməsi | NK | DGK, İN, MN | 2026–2028 | Beynəlxalq təcrübə nəzərə alınmaqla idxal (bəzi kateqoriya malların) və ixrac əməliyyatları üzrə gömrük ödənişlərindən azadolma məbləğinin hədlərinin dəyişim templərinə uyğun olaraq güzəşt mexanizmlərinin öyrənilməsi | Gömrük ödənişlərindən azadolma məbləğinin tətbiqi dairəsinin müəyyənləşdirilməsi | Normativ hüquqi bazanın formalaşdırılması və güzəşt mexanizminin tətbiqi |
| **8.3. Sadələşdirmə tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi** | | | | | | | |
| 8.3.1. | Gömrük məqsədləri üçün beynəlxalq daşımalarda əvvəlcədən məlumatlandırma sisteminin qurulması | DGK | İN, RİNN | 2026–2028 | Daşıyıcılara dair normativ hüquqi bazanın təkmilləşdirilməsi | Malların və nəqliyyat vasitələrinin dövlət sərhədindən buraxılış məntəqələrindən sürətli keçidinin təmin olunması və çevik gömrük nəzarətinin həyata keçirilməsi məqsədilə beynəlxalq daşımalarda əvvəlcədən məlumatlandırma sisteminin hazırlanması | Daşıyıcılar tərəfindən əvvəlcədən təqdim olunan məlumatların gömrük sisteminə inteqrasiyasının təmin edilməsi |
| 8.3.2. | Etibarlı tərəfdaşlar tərəfindən həyata keçirilən idxal-ixrac əməliyyatları üzrə "Dərhal buraxılış" sisteminin tətbiqi | NK | DGK, RİNN, İN, | 2026–2028 | Etibarlı tərəfdaşlar tərəfindən həyata keçirilən idxal-ixrac əməliyyatları üzrə "Dərhal buraxılış" sisteminin tətbiqi ilə əlaqədar normativ hüquqi bazanın formalaşdırılması | "Dərhal buraxılış" sisteminin tətbiqi üçün texniki və idarəetmə infrastrukturunun formalaşdırılması | "Dərhal buraxılış" sisteminin tam istifadəyə verilməsi |
| **8.4. Etibarlı tərəfdaşlar üçün biznes dürüstlüyünə əsaslanan "Özünüqiymətləndirmə" sisteminin qurulması** | | | | | | | |
| 8.4.1. | Etibarlı tərəfdaşlar üçün biznes dürüstlüyünə əsaslanan "Özünüqiymətləndirmə" sisteminin tətbiqi | DGK | İN | 2026–2028 | Biznes dürüstlüyünə əsaslanan "Özünüqiymətləndirmə" sisteminin formalaşdırılması üçün beynəlxalq təcrübənin araşdırılması | | Biznes dürüstlüyünə əsaslanan "Özünüqiymətləndirmə" sisteminin qurulması |
| 8.4.2. | "Gömrük–biznes" inkişaf modelinin yaradılması | DGK | İN | 2026–2028 | Xarici ticarət iştirakçıları ilə dayanıqlı tərəfdaşlıq mexanizminin formalaşdırılmasına xidmət edən "Gömrük–biznes" inkişaf modelinin yaradılması və müntəzəm qaydada məlumat mübadiləsinin aparılması | | Biznes subyektləri tərəfindən gömrük əməliyyatlarına əlçatanlığın təmin edilməsi məqsədilə "özünet" prinsipinin tətbiq dairəsinin genişləndirilməsi |
| **8.5. Etibarlı tərəfdaşlıqla bağlı üstünlüklərin təbliğ və təşviq edilməsi** | | | | | | | |
| 8.5.1. | Etibarlı tərəfdaşlığın təbliğ və təşviq edilməsi | DGK | İN | 2026–2028 | Biznes subyektləri ilə etibarlı tərəfdaş mühitinin formalaşdırılması sahəsində maarifləndirmə işinin aparılması | C2B formatında keçirilən görüşlərdə etibarlı tərəfdaşlar üçün gömrük rəsmiləşdirilməsi və gömrük nəzarətinin sadələşdirilməsi ilə bağlı üstünlüklərin təşviqi | G2B formatında keçirilən görüşlərdə "Etibarlı Tərəfdaş Konsepsiyası" barədə biznes subyektlərinin məlumatlandırılması |
| 8.5.2. | Səlahiyyətli iqtisadi operator fəaliyyəti üzrə mütəxəssislərin hazırlanmasına dəstək mexanizminin formalaşdırılması | DGK | | 2026–2028 | Beynəlxalq səviyyədə mütəxəssislərin hazırlanmasına dair proqramların öyrənilməsi | Mütəxəssislərin formalaşdırılmasına dair proqramların hazırlanması və tətbiqi | |

**AKRONİMLƏR**

AQTA - Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi
DGK - Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi
XİN - Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi
İN - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi
MN - Azərbaycan Respublikasının Maliyyə Nazirliyi
NK - Azərbaycan Respublikasının Nazirlər Kabineti
RİNN - Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi.

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Kənd təsərrüfatı təyinatlı torpaqlarda inşa edilməsi və ya quraşdırılması nəzərdə tutulan müvəqqəti tikililər barədə məlumatlandırma qaydaları

**1. Ümumi müddəalar**

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının Torpaq Məcəlləsinə, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə və bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktlara uyğun olaraq hazırlanmışdır və kənd təsərrüfatı təyinatlı torpaqlarda kənd təsərrüfatının səmərəli təşkili məqsədilə inşa edilməsi və ya quraşdırılması nəzərdə tutulan müvəqqəti tikililər barədə məlumatlandırma mexanizmini (vahid uçotun aparılmasını) müəyyən edir.

1.2. Kənd təsərrüfatının səmərəli təşkil edilməsi məqsədilə kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin mülkiyyətçisi (onun yazılı razılığı ilə istifadəçisi və ya icarəçisi) (bundan sonra - sifarişçi) Bakı şəhərinin, həmçinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhatə etdiyi şəhər və rayonların inzibati ərazilərində Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsini, digər inzibati ərazi vahidlərində isə yerli icra hakimiyyəti orqanlarını (bundan sonra - məlumatlandırılan orqan) bu Qaydalara uyğun olaraq məlumatlandırmaqla, kənd təsərrüfatı təyinatlı torpaqlarda Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 3.0.16-cı maddəsinin tələblərinə uyğun müvəqqəti tikililər, yəni torpaq üzərində yerləşdirilən, qısa müddətdə, o cümlədən tikinti müddətində istifadə üçün nəzərdə tutulan, yüngül inşaat konstruksiyalarından inşa edilən və asanlıqla quraşdırılıb-sökülən tikili inşa edə və quraşdıra bilər.

1.3. Bu Qaydaların məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.3.1. asanlıqla quraşdırılıb-sökülən tikili- xüsusi təyinatlı texnika cəlb edilmədən quraşdırılıb-sökülən tikili;

1.3.2. qısa müddət - mövsümi və ya sifarişçinin müraciətində göstərdiyi müddət (5 ildən çox olmamaq şərtilə);

1.3.3. torpaq üzərində yerləşdirilən tikili - torpaqla beton əsaslı bağlılığı olmayan və ya ayrı-ayrı duran dirəkaltı (dəmir-beton olmayan) bünövrələr üzərində quraşdırılan tikili;

1.3.4. yüngül inşaat konstruksiyalarından inşa edilən tikili - karkası ağac və ya divar qalınlığı 8 millimetrə qədər olan polad dirək və tirlərdən, habelə divarları və arakəsmələri metal, ağac və ya plastik lövhələrdən ibarət tikili.

1.4. Kənd təsərrüfatı təyinatlı torpaqlarda müvəqqəti tikililər kənd təsərrüfatına dair texnika, avadanlıq, ot, yem, dərman (zəhərli kimyəvi maddələrin saxlanması istisna olmaqla) və digər vasitələrin müvəqqəti saxlanması, çoban evləri, yataqlar, habelə işçilərin (personalın) istirahəti, sanitariya-gigiyenası və digər məqsədlər üçün inşa edilir.

1.5. Müvəqqəti tikilinin tikinti sahəsi 300 kvadratmetrdən, hündürlüyü 5 metrdən, aşırımlarının uzunluğu 6 metrdən çox olmamalıdır.

**2. Müvəqqəti tikililərə dair təqdim edilən sənədlər**

2.1. Sifarişçi müvəqqəti tikili inşa etmək üçün həmin tikilinin istifadə ediləcəyi müddəti göstərməklə, məlumatlandırılan orqana şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sistemi (bundan sonra - sistem) vasitəsilə məlumat verir.

2.2. Sifarişçi məlumata aşağıdakı sənədləri əlavə edir:

2.2.1. sifarişçi fiziki şəxs olduqda - şəxsiyyətini təsdiq edən sənədi, hüquqi şəxs olduqda - hüquqi şəxslərin dövlət reyestrindən çıxarışı;

2.2.2. torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənədi;

2.2.3. sifarişçi mülkiyyətçi olmadığı halda, tikintiyə mülkiyyətçinin yazılı razılığını;

2.2.4. müvəqqəti tikilinin təyinatı, sahəsi, hündürlüyü və aşırımlarının uzunluğu, habelə karkas və divarlarının materialının növü, torpaq üzərində yerləşdirmə üsulu göstərilməklə tikinti layihəsinin memarlıq-planlaşdırma və tikinti ərazisinin baş planının bölmələrini.

2.3. Bu Qaydaların 2.2-ci bəndində nəzərdə tutulmuş sənədlərin Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra - EHİS) vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər sifarişçidən tələb edilmir. Belə sənədlərin EHİS vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi sifarişçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya sifarişçi tərəfindən təmin edilir.

2.4. Müvəqqəti tikilinin tikinti layihəsinin memarlıq-planlaşdırma və tikinti ərazisinin baş planı bölmələri bu Qaydaların 1.2-1.5-ci bəndlərində müəyyən edilən tələblərə uyğun tərtib olunmalıdır.

**3. Müvəqqəti tikililərə dair məlumatlandırma mexanizmi üzrə tədbirlər**

3.1.Məlumatlandırılan orqan müvəqqəti tikili barədə bu Qaydaların 2-ci hissəsinə uyğun olaraq sifarişçi tərəfindən təqdim edilən məlumatların və sənədlərin sistem vasitəsilə EHİS üzərindən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə ötürülməsini təmin edir.

3.2. Müvəqqəti tikilinin tikinti layihəsinin memarlıq-planlaşdırma və tikinti ərazisinin baş planı bölmələrinə uyğun tikilməsinə nəzarətin həyata keçirilməsi məqsədilə məlumatlandırılan orqan bu Qaydaların 2-ci hissəsinə uyğun olaraq sifarişçi tərəfindən təqdim edilən məlumatların və sənədlərin sistem vasitəsilə EHİS üzərindən Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə ötürülməsini təmin edir.

3.3. Müvəqqəti tikililərin vahid uçotunu aparmaq məqsədilə məlumatlandırılan orqan bu Qaydaların 2-ci hissəsinə uyğun olaraq sifarişçi tərəfindən təqdim edilən məlumatları və sənədləri elektron qaydada Tikintilərin Dövlət Reyestrinə (bundan sonra - Reyestr) ötürür.

3.4. Reyestri aparan orqan müvəqqəti tikililər barədə təqdim olunmuş sənədləri və məlumatların tamlığını 3 (üç) iş günü müddətində təhlil etdikdən sonra Reyestrdə uçota alır.

3.5. Bu Qaydaların 2.2-ci bəndinə uyğun olaraq Reyestrə daxil edilən sənədlər tam olmadıqda, tikinti obyekti Reyestrdə qeydə alınmır və bu barədə 3 (üç) iş günü müddətində məlumatları təqdim etmiş məlumatlandıran orqana və sifarişçiyə sistem vasitəsilə məlumat göndərilir. Bütün natamamlıqlar eyni zamanda bildirilməlidir. Sənədlərin tamlığının təmin edilməməsinin hüquqi nəticələri sifarişçiyə izah olunur. Sifarişçi məlumatı aldığı andan çatışmayan sənədləri 5 (beş) iş günü müddətində Reyestrə daxil edilməsi üçün məlumatlandıran orqana təqdim edir. Məlumatlandıran orqan tam tərkibdə təqdim edilmiş sənədləri dərhal Reyestrə ötürür.

3.6. Müvəqqəti tikililərə dair məlumatlar Reyestrdə uçota alındıqdan sonra bu barədə sifarişçiyə sistem vasitəsilə dərhal bildiriş göndərilir. Bildiriş sistemə yerləşdirildikdən sonra sifarişçinin tikinti işlərinə başlamaq hüququ yaranır.

3.7. Bu Qaydaların 2.1-ci bəndində nəzərdə tutulan məlumatda qeyd olunan müvəqqəti tikilinin istifadə müddəti başa çatdığı andan 3 (üç) iş günü ərzində həmin tikili sifarişçi tərəfindən sökülməlidir. Müvəqqəti tikili müraciətdə nəzərdə tutulmuş müddətdən əvvəl sifarişçi tərəfindən sökülə bilər. Sifarişçi müvəqqəti tikilinin söküntüsü barədə məlumatlandırılan orqana sistem vasitəsilə 10 (on) iş günü müddətində məlumat verməlidir.

3.8. Bu Qaydaların 3.7-ci bəndinə əsasən söküntü barədə məlumat verildiyi andan məlumatlandırılan orqan müvəqqəti tikilinin uçotdan çıxarılması üçün bu məlumatı dərhal Reyestrə və bu Qaydaların 3.1-ci bəndində qeyd olunan orqanlara ötürür.

# REGİONLAR

## Göygöldə Rumıniyanın Milli Günü qeyd edilmişdir



**Göygöl rayonunda Rumıniyanın Milli Günü ilə bağlı tədbir keçirilib. Tədbir Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov və Rumıniyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vasile Soarenin Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarətlə başlamışdır.**

Sonra Göygöl Rayon İcra Hakimiyyətinin və Mədəniyyət Nazirliyinin birgə dəstəyi ilə folklor gecəsi təqdim olunmuşdur. Rumıniyanın Fokşani şəhərinin "Tara Vrancei" peşəkar folklor ansamblının ifasında rumın rəqsləri, milli musiqiləri və ənənəvi geyimləri maraqla qarşılanmışdır.

Tədbirdə çıxış edən Vüqar Novruzov Rumıniyadan olan ansamblın Göygöldə çıxışının multikultural dəyərlərin möhkəmlənməsinə xidmət etdiyini vurğulamışdır. Bu kimi tədbirlərin iki ölkə arasında dostluq münasibətlərinin inkişafına töhfə verəcəyini deyən V.Novruzov Rumıniyanın Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olduğunu, ötən dövrlər ərzində iki ölkə arasında əməkdaşlığın strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini bildirmişdir.

Səfir Vasile Soare çıxışında Rumıniya-Azərbaycan dostluq əlaqələrinə toxunaraq mədəni əməkdaşlığın xalqları daha da yaxınlaşdırdığını söyləmişdir. Səfir göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirmişdir.

## Gəncədə ahıllar tibbi müayinədən yararlandılar

**Gəncədə fəaliyyət göstərən "Ahıllar üçün günərzi qayğı mərkəzi"ndə tibbi müayinə aksiyası keçirilmişdir. "Gəncə Şəhər Birləşmiş Xəstəxanası" PHŞ-nin müxtəlif ixtisaslı həkimləri tərəfindən ahıl vətəndaşlar müayinə edilmiş, onlara zəruri tibbi xidmətlər göstərilmişdir.**



Aksiyadan ümumilikdə 30-a yaxın şəxs yararlanmışdır. İcbari Tibbi Sığortanın xidmətlər zərfi çərçivəsində baş tutan tədbirin məqsədi yaşlı nəslin nümayəndələrinin ümumi sağlamlıq vəziyyətinin yoxlanılması, qiymətləndirilməsi, mümkün fəsadların vaxtında aşkarlanması və tibbi xidmətə əlçatanlığın təmin edilməsi olmuşdur.

Məlumat üçün bildirək ki, Gəncə şəhərində "Ahıllar üçün günərzi qayğı mərkəzi" Prezident İlham Əliyevin "Xüsusi qayğıya ehtiyacı olan uşaqlara və digər şəxslərə göstərilən sosial xidmətlərin genişləndirilməsi üçün əlavə tədbirlər haqqında" 1 iyun 2019-cu il tarixli sərəncamının icrası çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sosial xidmət sifarişləri əsasında yaradılmışdır.

## ADAU-da görkəmli alim Validə Tutayuqun elmi fəaliyyəti xatırlanıb



**Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) ölkəmizin ilk qadın biologiya elmləri doktoru, botanika və bitkiçilik elminin inkişafında mühüm rol oynamış görkəmli alim Validə Tutayuqun anadan olmasının 110 illiyi qeyd edilmişdir.**

Tədbir Validə Tutayuqun həyat və elmi fəaliyyətini əks etdirən videoçarxın nümayişi ilə başlamışdır. Sonra ADAU-nun rektoru Zəfər Qurbanov alimin ölkə elmi üçün misilsiz xidmətlərindən danışaraq qeyd etmişdir ki, onun yüksək elmi hazırlığı Azərbaycan bioloji elminin tarixində silinməz izlər qoymuşdur.

Tədbirdə ADAU-nun Biologiya kafedrasının müdiri Arif Qaziyev, universitetin fəxri professoru, Əməkdar müəllim Bəhman Əliyev, Ümumi əkinçilik, genetika və seleksiya kafedrasının dosenti Firudin Qurbanov, Gəncə Dövlət Universitetinin Botanika kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Vaqif Novruzov, GDU-nun Ekologiya və meşəçilik kafedrasının müdiri, professor Nizami Seyidəliyev Validə Tutayuqla bağlı xatirələrini danışmışlar.

ADAU-nun Biotexnoloji Mərkəzinin kiçik elmi işçisi Elgün Mahmudov və Baytarlıq fakültəsinin Əczaçılıq ixtisası üzrə I kurs tələbəsi Firuz Varəngi isə Validə Tutayuqun elmi irsinin bu gün gənc alimlər və tələbələr üçün böyük ilham mənbəyi olduğunu qeyd etmişlər.

***S.YUNİSOĞLU, "Azərbaycan"***

## Masallıda növbəti ağacəkmə aksiyası keçirilib

**Masallıda "Konstitusiya və Suverenlik İli" çərçivəsində növbəti ağacəkmə aksiyası keçirilib.**

Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə keçirilən aksiyada Sərçuvar kəndində 350 ədəd müxtəlif növ meyvə və çinar ağacları əkilib, əvvəl əkilmiş ağaclara qulluq göstərilib. Aksiyada Masallı RİH-in əməkdaşları, ərazi nümayəndələri, bələdiyyə sədrləri, idarə, müəssisə, təşkilat rəhbərləri, şəhid ailələri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

***S.CAVADOV, "Azərbaycan"***



### İlə yekun vurulur

## Mingəçevirlilər Zəfərin ilk yubiley ilini xoş ovqatla yola salırlar

**Uğur dolu illər öz axarıyla ötüb keçir. Ölkəmizin siması, kəndlərimizin, şəhərlərimizin görkəmi dəyişərək abadlaşır. İnsanlar firavan həyata, xoş güzərana qovuşur.**



Zəfərimizin ilk yubiley ili artıq başa çatmaqdadır. 30 ilin işğalına son qoyan 44 günlük müharibə haqqın, ədalətin qələbəsiylə başa çatdı. Ermənistan silahlı qüvvələri darmadağın edildi. Düşmənə kapitulyasiya aktına qol çəkməkdən başqa bir yol qoyulmadı. Dünən döyüş meydanında Qələbəni təmin edən Müzəffər Ali Baş Komandan İlham Əliyev bu gün Qarabağ və Şərqi Zəngəzurla müharibənin daş üstdə daş qalmayan xarabalıqları üzərində aparılan genişmiqyaslı tikinti-quruculuq, abadlıq işlərinin baş memarı kimi bu vətənə, bu xalqa övladlıq borcunu şərəf və ləyaqətlə yerinə yetirir. Qarabağda həyat hər gün daha sürətlə canlanır, vətən sevdalı oğulların yurd sevgisi bu yerlərə yeni nəfəs gətirir.

İllərin ayrıcında ana yurdun bütün bölgələri ilə yanaşı, nur şəhəri kimi tanınan, ölkənin ən böyük enerji istehsalçısı olan, şəninə şeirlər yazılan, nəğmələr qoşulan Mingəçevirdə də xoş ovqat yaşanır. Son günləri yaşanan 2025-ci ildə mingəçevirlilər, sözün həqiqi mənasında, böyük vətənpərvərlik nümunəsi göstəriblər, bütün sahələrdə ümidləri doğruldublar. Şəhərin sənaye potensialı il ərzində daha da güclənib, fabrik və zavodlarında səmərəli, rentabelli fəaliyyət təmin olunub. Enerji nəhəngi istilik elektirikin stansiyasında, SES-də ahəngdar iş rejimi pozulmayıb. Dövlət maraqlarını fəaliyyət proqramının əsas istiqaməti kimi qəbul edən şəhər rəhbərliyi qarşıya qoyulan vəzifələri həyata keçirməyə, nəzərdə tutulan hədəflərə çatmağa nail olub. 2025-ci il Mingəçevir üçün təkcə iqtisadi yüksəliş mərhələsi deyil. Dönüb yaşanan illərə boylananda halal zəhmət hesabına qazanılan nailiyyətlərin yaratdığı sevinc hissi ilə yanaşı, il ərzində keçirilmiş ictimai-kütləvi tədbirlərin doğurduğu məmnunluğu, qüruru yaşayırsan. Milli-mənəvi dəyərlərə məhəbbət və ehtiram, vətənə sonsuz sevgi, dövlətə sədaqət ruhu aşılayan, gənc nəsli doğru yola yönəldən belə tədbirlər Mingəçevirin ictimai-siyasi həyatından qırmızı xətt kimi keçir, dəyərli mahiyyəti və məzmunu ilə yaddaşlara həkk olur, aylar ötüb keçsə də, unudulmur.

Tariximizin qürur səhifəsi kimi qızıl hərflərlə yazılmış 44 günlük müharibənin Qələbə ilə başa çatmasında mingəçevirli oğulların göstərdiyi qəhrəmanlıq ehtiramla xatırlanır. Elə bayram, yaxud əlamətdar gün, ya da dövlət tədbiri keçirilən gün olmur ki, şəhər əhalisi gül-çiçəyə qərq olunmuş şəhid məzarlığını elliklə ziyarət etməsin. Vətən uğrunda şirin canlarından keçib əbədiyyətə qovuşan şəhid oğulların məzarları mingəçevirlilər üçün sonsuz məhəbbət və ehtiramın heç zaman dəyişməyən əbədi ünvanıdır. Xalq və dövlət qəhrəman övladlarının xatirəsini hər zaman uca tutur. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İham Əliyevin tapşırığı ilə keçən il şəhərdə 72 mənzilli bina inşa olunaraq şəhid ailələri və qazilərə verilib. Qəzalı vəziyyətdə olan binaların sakinləri üçün tikilən 40 mənzilli binanın 7 mənzili də şəhid ailələri və qazilər üçün ayrılıb.

Mingəçevir Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə nəşr edilmiş "Əbədiyyətə qovuşanlar" xatirə kitabında Qarabağ savaşında həlak olan şəhidlərin, itkin düşənlərin şərəfli həyat yolundan bəhs edilir. Bu kitab yeni nəsil üçün, uşaqlar və gənclər üçün dəyərli bir mənbədir.

Başa çatmaqda olan 2025-ci ilin yanvar ayının 2-də keçirilən bir tədbir nur şəhəri sakinlərinin yaddaşında kövrək bir xatirə kimi yaşamaqdadır. Şəhər ictimaiyyəti Milli Qəhrəman Natiq Səlim oğlu Qasımovun ad günündə yaşadığı Naxçıvan küçəsindəki 42 saylı binanın yaxınlığında xatirə bulağının və kompleksin açılışını gerçəkləşdirdi. Tədbirdə çıxış edənlər şəhidin qəhrəmanlıqlarla dolu həyat youndan danışdılar, dövlətin şəhid ailələrinə və qazilərə davamlı qayğısını minnətdarlıqla vurğuladılar.

Qeyd edək ki, 2024-cü ilin iyun ayının 25-də Prezident İlham Əliyev Natiq Qasımova Azərbaycanın Milli Qəhrəmanı adının verilməsi ilə bağlı sərəncam imzalamışdır. Təhsil aldığı 4 nömrəli tam orta məktəbə şəhidin adı verilmişdir. Onu da xatırladaq ki, Böyük Britaniya kinematoqrafçıları Natiq Qasımov haqqında "Oğul" sənədli filmini çəkmişlər. Filmin ilk tamaşaçıları Prezident İlham Əliyev və ailə üzvləri olmuşlar.

44 günlük müharibə zamanı Ermənistan silahlı qüvvələrinin raket hücumlarına məruz qalan Mingəçevir su anbarının partladıla bilinəcəyi narahatlığını yaşayan şəhərdə o günlərin acı xatirəsi hələ unudulmayıb, baxmayaraq ki, bu gün nur şəhəri Şanlı Zəfərin yaratdığı xoş ovqatı yaşayır. Şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov deyir ki, Prezident İlham Əliyevin siyasəti sayəsində formalaşan və yenilməz gücə çevrilən xalq-dövlət-ordu birliyi müstəqilliyimizin, təhlükəsizliyimizin, firavan həyatımızın ən böyük qarantıdır: "Ali Baş Komandan İlham Əliyevə və şanlı ordumuzun qəhrəman əsgərlərinə minnətdarıq. Çalışırıq ki, şəhid ailələrinin, qazi və veteranların hər bir müraciətinə həssaslıqla yanaşaq, onların üzləşdikləri hər hansı problemi, çətinliyi operativ şəkildə aradan qaldıraq, dövlət qayğısının öz gerçək ünvanına çatmasına nail olaq".

Sabitliyin, sağlam mənəvi-psixoloji mühitin hökm sürdüyü şəhərdə yeni il şənliklərinin nəfəsi duyulur. Adamlar nikbindirlər. Hər kəs inanır ki, gələn il dövlətimizin qüdrəti, ordumuzun gücü daha da artacaq, həyatımız, gün-güzəranımız daha yaxşı olacaq. Çünki doğru yoldayıq, çatmaq istədiyimiz hədəfləri düzgün seçirik.

***Lazım QULİYEV, "Azərbaycan"***

## Şəmkir: iqtisadiyyat yüksəldikcə abadlıq və quruculuq işləri genişlənir

**Ölkənin qərb bölgəsində ən böyük rayonlardan biri də Şəmkirdir. Bu bölgənin insanları olduqca işgüzardır. Əlverişli relyef, münbit torpaq, yetərli su mənbələri isə burada hər il bol kənd təsərrüfatı məhsulları istehsal etməyə imkan verir.**



Son illər Şəmkirin iqtisadi inkişafında qazanılan uğurlar rayonda aparılan abadlıq və quruculuq işlərini də sürətləndirmişdir. Əlverişli biznes mühitinin yaradılması, sahibkarlara geniş meydan verilməsi, həmçinin iqtisadi sahədə əldə olunan uğurlar sayəsində son illər rayon iqtisadiyyatına milyonlarla manat investisiya qoyulmuşdur.



Cəlb olunmuş investisiyalar, əsasən, kənd təsərrüfatı məhsullarının istehsalı və satışı, istixanaların və meyvə bağlarının yaradılması, yaşayış binalarının tikintisi, müxtəlif ticarət və xidmət sahələrini əhatə edir. İnvestisiya layihələrinin icrası makroiqtisadi göstəricilərin artırılması ilə yanaşı, məşğulluq məsələlərinin həllinə də töhfə vermişdir.

Məlumdur ki, ölkə iqtisadiyyatının ən vacib sahələrindən biri kənd təsərrüfatıdır. Bu sahənin inkişafı ölkənin zəruri ərzaq məhsulları üzrə idxaldan asılılığının azaldılması, eyni zamanda əhalinin məşğulluğunun təmin olunması baxımından mühüm əhəmiyyətə malikdir. O səbəbdən neçə illərdir dövlət başçısının təşəbbüsü ilə kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisi istisna olmaqla bütün digər vergilərdən azad olunur, bitkiçilik və heyvandarlıq sahəsində subsidiyaların verilməsi mexanizmi tətbiq edilir. Bu güzəştlər şəmkirli fermerlər tərəfindən də məmnunluqda qarşılanır və məhsul istehsalında stimullaşdırıcı rol oynayır. Təsadüfi deyil ki, bu ilin yanvar-sentyabr aylarında rayon üzrə istehsal olunan kənd təsərrüfatı məhsullarının dəyəri 781 milyon manatdan çox olmuşdur. Bu isə kifayət qədər yüksək göstəricidir.

Rayonun iqtisadi inkişafını xarakterizə edən ən önəmli makroiqtisadi göstəricilərdən biri də ümumi məhsul buraxılışının həcmidir. Cari ilin 9 ayı ərzində rayon üzrə bu göstərici 2024-cü ilin müvafiq dövründəki rəqəmi 2,8 faiz üstələmişdir. Ümumi məhsul buraxılışının həcmində istehsal sahələrinin xüsusi çəkisi 82,1, xidmət sahələrinin xüsusi çəkisi isə 17,9 faiz olmuşdur.



Onu da qeyd edək ki, Şəmkirin Böyük İpək yolunun üzərində yerləşməsi bölgənin logistika imkanlarının genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu imkanların reallaşdırılması sayəsində 9 ay ərzində rayon üzrə avtomobil nəqliyyatı ilə 1 milyon 940 min ton yük daşınmışdır ki, bu da 2024-cü ilin müvafiq dövrünə nisbətən 6,3 faiz çoxdur. Bundan başqa, yanvar-sentyabr aylarında avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 21 milyon 201 min nəfər sərnişin daşınaraq keçən ilin müvafiq dövrünə nisbətən 6,2 faiz artıma nail olunmuşdur.

Söz yox ki, bu uğurlar rayonda genişmiqyaslı təmir-tikinti və abadlıq işlərinin həcminə də müsbət təsir göstərir. Rayon ərazisinin abadlaşdırılması, infrastrukturun yenilənməsi, sakinlərin və qonaqların rahatlığının təmin olunması daim diqqət mərkəzində saxlanılır.

Bu işlər çərçivəsində ümumtəhsil müəssisələri də unudulmur. Cari il Zəyəm qəsəbə Əhməd Cəmil adına 1 saylı tam orta məktəb əsaslı təmirdən sonra müəllim və şagirdlərin istifadəsinə verilmişdir. Hazırda Cahangir Rüstəmov adına Şəmkir şəhər tam orta məktəbində əsaslı təmir işləri aparılır. Əhməd Cavad adına Şəmkir şəhər tam orta məktəbində isə əsas korpusun əsaslı təmiri başa çatmış, yeni korpusun tikilməsi işlərinə başlanılmışdır.

***Sabir ƏLİYEV, "Azərbaycan"***





# Vətən deyəndə...





● Tarix yazan oğullar

# Hünəri, igidliyi ilə düşmənə meydan oxuyurdu

**Vətənin azadlığı uğrunda şəhid olanların adları həmişə müqəddəs tutulub, şərəflə anılıb, hörmətlə xatırlanıb. Qədirbilən xalqımız zaman-zaman belə cəsur oğullarının adlarını tarixin səhifəsinə böyük hərflərlə yazıb, onların şərəfinə heykəllər ucaldıb, abidələr qoyub, dastanlar yaradıb.**

Qoynunda dünyaya göz açdığı torpaq uğrunda son nəfəsinədək vuruşub şirin canından keçərək şəhid olan oğullarımızdan biri də Vüqar Baloğlan oğlu Bədəlovdur. Erməni işğalçıları ölkəmizin ərazisinə hücum çəkib kəndlərimizi, şəhərlərimizi ələ keçirəndə Vüqar da başqa qeyrətli oğullarımız kimi vətənin müdafiəsinə atıldı. Cəsur əsgər qısa, lakin şərəfli, yaddaqalan bir ömür yaşadı. Onun yaşadığı tale yolunu yazmağa heç qələmin də gücü çatmır. Cəmi on doqquz il ömür sürmüş və torpaqlarımız uğrunda şəhid olmuş bir əsgərdən, bir oğuldan yazmaq çox çətindir. Necə yazasan ki, qələmə alınan kədər yüklü sətirlər valideynlərini kövrəltməsin, bacısını ağlatmasın, qardaşının gözlərini yaşartmasın? İnsanın cavan yaşda ölümü çox acıdır, çox üzücüdür. Amma bu ölüm torpaq uğrunda, Vətən yolunda olanda doğmalarına az da olsa, təskinlik verir. Vüqar kimi cəsur oğullar ömürlərini boş yerə qurban verməyiblər. Canlarından da çox sevdikləri Vətən yolunda şəhid olublar.

## Gündüzlər müəllimlərdən dərs öyrənir, gecələrsə kitab oxuyurdu

Vüqar Bədəlov 1973-cü il mart ayının 3-də Bakının qədim kəndlərindən biri olan Bülbülədə dünyaya göz açıb. Göz açıb ki, bu işıqlı dünyada uzun bir ömür yaşasın. Hamı kimi firavan ömür sürsün, həyatını layiqincə başa vursun. Başqaları kimi o da taleyinin necə yazıldığından, qismətindən xəbərsiz idi. Sanki dəcəlliklə dolu olan uşaqlıq çağları bir göz qırpımında ötüb arxada qaldı. Yeddi yaşın tamamında tay-tuşları, yaşıdları ilə boy-boya verib, ürəyində bir dünya sevinclə Bülbülə kəndindəki 208 nömrəli orta məktəbə yollandı. Gündüzlər uşaqlarla söhbət edir, müəllimlərdən dərs öyrənir, gecələrsə kitab oxuyur, sabahkı dərslərə hazırlaşır. Həyatı rahat, rəvan axarla gedir. İllərin üstünə il, yaşın üstünə yaş gəlir. Beləcə, Vüqar da böyüyür.

Artıq məktəb illəri ötüb arxada qaldı. Qarşıda onu hərbi xidmət, Vətənə olan müqəddəs borc gözləyirdi. Vüqarı ordu sıralarına çox təlatümlü, çox narahat bir vaxtda çağırdılar. Erməni işğalçılarının ölkəmizə qarşı hücumlarının tüğyan etdiyi, respublikamızın çalxalandığı bir vaxtda Vüqar Bədəlovu keçmiş sovet ordusunun sıralarına daxil edirlər. Halbuki həmin günlərdə ölkəmizin müdafiəyə böyük ehtiyacı var idi. 1991-ci ilin aprelində o, keçmiş ittifaqın paytaxtı Moskva yaxınlığındakı hərbi hissədə xidmətə başladı. Amma burada əsgəri borcunu axıra qədər yerinə yetirə bilmədi. O vaxtlar ölkədə hökm sürən özbaşınalıq hərbi hissələrə də təsirsiz ötüşmürdü. Nəzarətsiz qalan bir çox hərbi hissələrdə əvvəlki nizam-intizam pozulmuşdu, ordu yavaş-yavaş dağılırdı. Müxtəlif respublikalardan çağırılmış əsgərlər öz ölkələrinə qayıdırdılar.

## Valideynlərinin yanına qələbə sorağı ilə dönmək istəyirdi

Həmin günlərdə torpaqlarımızın azadlığı uğrunda gərgin və amansız döyüşlər gedirdi. 1992-ci ilin sentyabrında doğma Vətənə dönən Vüqar heç evlərinə də baş çəkmədən Daxili Qoşunların hərbi hissəsinin tərkibində Ağdam bölgəsinə yollanır. Qardaşı İlqar Vüqarın geri döndüyünü və döyüşlərə getdiyini öyrənəndən sonra onunla görüşmək üçün vaxt itirmədən cəbhə bölgəsinə gedir. Ağdama çatıb onun xidmət etdiyi yeri öyrənəndə hərbi hissədən ona Vüqarın Ağdərə istiqamətində vuruşduğunu deyirlər. Qardaşlar soyuq payız günlərinin birində Ağdərədə görüşürlər. İlqar komandirdən bir neçə günlük icazə alıb qardaşını evə aparmaq istəyir. İstəyir ki, onun yolunu gözləyən atası Baloğlan, anası Səmayə övladının üzünü görsün, səsini eşitsin, nəfəsini duysun. Amma Vüqar buna razı olmur, "Valideynlərimin yanına qələbə sorağı ilə qayıtmaq istəyirəm. İnşallah çox keçməz ki, düşməni mövqelərindən qovub geri oturdarıq, torpaqlarımızı azad edərik. Bax ondan sonra ata-anamın yanına alnıaçıq, başıuca, qələbə sorağı ilə dönərəm", - deyir.

Bundan sonra Vüqar qardaşı ilə sağollaşaraq döyüşlərə - Ağdərənin müdafiəsinə qayıdır. Düşmən üzərinə şığıyaraq neçə-neçə qanlı döyüşdə iştirak edir. Silahının nişangahına tuş gələn erməni qəsbkarlarını məhv edir. Döyüşdən-döyüşə təcrübəsi və səriştəsi artır. Ürəyi Vətən eşqi ilə döyünən Vüqar müharibənin son gününə qədər vuruşmaq, Qarabağı erməni qəsbkarlarından azad etmək arzusu ilə yaşayır.

Təəssüflər olsun ki, düşmən tərəfindən açılan qəfil bir atəş onun bütün arzularını yarımçıq qoyur. 1992-ci il noyabrın 5-i onun son döyüşü, son savaşı olur. Həmin gün döyüşdə ağır yaralanan Vüqarı əsgər dostları təcili hospitala çatdırırlar. Amma həkimlər nə qədər çalışsalar da, əsgərin həyatını xilas edib, onu ölümün əlindən ala bilmirlər. Düşməni məğlub edib Qarabağı azad görmək istəyən Vüqar hospitalda gözlərini əbədi olaraq yumur.



## Qəhrəmanlığı ilə bir evin oğlundan bir xalqın övladına çevrildi

Beləcə, bir gəncin, Vətən uğrunda döyüşən bir əsgərin ömrü yarıda qırılır. Vüqarın ölüm xəbəri doğmalarına da gəlib çatır. Oğul yolu gözləyən valideynlər eşitdikləri bəd xəbərdən yasa batırlar. Analar, bacılar başlarına qara bağlayıb acı göz yaşları axıdırlar. Vüqar Bədəlov qohumlarının, doğmalarının qolları üstündə Şəhidlər xiyabanında torpağa tapşırılır. Bəlkə də Vüqar sağlığında keçmiş Dağüstü adlandırılan parkda çox gəzib dolanmışdı. O günlərdə heç ağlına da gəlməzdi ki, bir vaxtlar bu yerlər ona məzar olacaq. Amma bir zamanlar ağlına gəlməyənlər sonrakı illər başına gəldi. Vətənin dar günündə, torpaqlarımıza düşmən hücumları başlayanda silaha sarılıb ona əsgər oldu. Yurdumuzun azadlığı uğrunda başlayan döyüşlərdə son nəfəsinədək cəsarətlə, hünərlə vuruşdu. İgidliyi, cəsarəti ilə komandirlərinin, əsgər dostlarının hörmət və rəğbətini qazandı. Hünəri və cəsarəti ilə bir evin oğlundan, bir elin, bir xalqın övladına çevrildi.

Vüqarın Vətən qarşısındakı xidməti, qəhrəmanlığı layiqincə qiymətləndirilib. Bülbülə kəndindəki küçələrdən birinə cəsur əsgər Vüqar Bədəlovun adı verilib. Bir vaxtlar addımladığı, gəzib-dolaşdığı küçə indi onun adını daşıyır. Valideynləri, doğmaları onun qəhrəmanlığı və igidliyi ilə fəxr edib öyünürlər.

Başqa şəhidlərimiz kimi Vüqarın da xatirəsi həmişə əziz tutulur. Təhsil aldığı 232 və 208 nömrəli məktəblərin pedaqoji kollektivi və şagirdləri onu hörmətlə anır, ehtiramla xatırlayırlar. Vüqarın doğum və ölüm günlərində məktəbdə anım mərasimləri keçirilir. Onu yaxından tanıyanlar, döyüşçü yoldaşları Vüqarla bağlı xatirələrini dilə gətirir, qəhrəmanı hörmətlə anırlar.

Qardaşı İlqar isə Vüqarın adını ailələrində əbədiləşdirib. Oğluna Vüqarın adını verərək ona həyatda həmişə əmisi kimi vüqarlı olmağı tövsiyə edib.

Daxili Qoşunlarda xidmət etmiş və hazırda ehtiyatda olan bacısı Səbirə Bədəlova ilə qardaşı haqqında söhbət etmək olduqca çətin idi. Hələ gənc yaşlarından qardaş itkisi, qardaş yanğısı görmüş bacının ürək sözləri bitib-tükənmirdi. Vüqardan qürurla, iftixarla danışırdı.

## Vüqar Qarabağ uğrunda döyüşlərə cəsarətlə, hünərlə, kişi kimi yollanıb

Səbirə xanım qardaşı haqqında dedi:

- Yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə böyük igidlik və qəhrəmanlıq göstərmiş Vüqarla fəxr edirəm. Vüqar Vətəni canından da çox sevirdi. Elə bu sevgidəndir ki, qardaşım qoynunda dünyaya göz açdığımız Vətən torpaqları uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu. Vətəni sevdiyinə görədir ki, Moskvadakı xidmətini yarımçıq qoyub yurdumuzu qorumağa gəldi. Doğmaları ilə görüşüb hal-əhval tutmadan birbaşa cəbhə bölgəsinə, döyüşlərə, Qarabağı müdafiə etməyə yollandı. Bu, vətənpərvərlik deyilmi, bu, Vətəni sevmək deyilmi? Əgər Vətəni sevməsəydi, onu canından da çox istəməsəydi, o, sovet ordusunun sıralarından hərbi hissəyə yox, evə dönərdi. Amma Vüqar evə baş çəkmədən barıt qoxulu səngərlərə tələsdi. Ağdamı, Ağdərəni erməni işğalçılarından qorumağa can atdı. Onun gəlişi, qayıdışı bizi çox sevindirmişdi. Sanki anam Səmayə onu torpaqlarımızı qorumaq üçün dünyaya gətirmişdi. Hələ kiçik yaşlarından hiss edirdik ki, Vüqar qorxmaz və cəsurdur. O, yalnız və yalnız qələbə qazanmaq haqqında düşünürdü.

Səbirə xanım sözünə davam edərək dedi ki, qardaşım döyüşlərə cəsarətlə, hünərlə yollandı. Düşmənin topu, tüfəngi onu qorxutmadı. Döyüşlərdə rəşadət göstərdi, son damla qanına kimi vuruşdu. Hünəri, cəsarəti ilə ölümə meydan oxudu. Vuruşduğu müddət ərzində neçə-neçə erməni qəsbkarını məhv etdi. Vüqar böyük arzularla, ülvi amallarla yaşayırdı. Amma təəssüflər olsun ki, ömrü kimi arzuları da yarımçıq qaldı. İndi onun arzularını həyata keçirməyə çalışırıq.

Söhbət zamanı onu da öyrəndik ki, Səbirə xanımın iki gül balası, iki oğul övladı var. Riyad hazırda ali təhsil alır, Vahid isə orta məktəbdə oxuyur. Onlar tez-tez anaları ilə dayılarının məzarını ziyarət edir, qəbrinin üstünə gül-çiçək dəstələri qoyurlar. İgidlikdə, qəhrəmanlıqda dayıları Vüqara oxşamaq istəyirlər. Vətənpərvər ruhda böyüyən bu gənclərin ölkəmiz üçün dəyərli vətəndaş, ordumuz üçün hünərli, rəşadətli əsgər olacaqları şübhə doğurmur.

Vüqar Baloğlan oğlu Bədəlovun igidliyi layiqincə qiymətləndirilib. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının təltif edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9 mart 2007-ci il tarixli sərəncamı ilə Qarabağ müharibəsində göstərdiyi şücaətə və qəhrəmanlığa görə əsgər Bədəlov Vüqar Baloğlan oğlu ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunmuşdur.

Torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş Vüqar Bədəlov kimi oğullarla hər birimiz fəxr edib öyünürük. Qoy böyüməkdə olan nəsillər igidliyi və qəhrəmanlığı Vüqar kimi cəsur oğullardan öyrənsinlər.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Qarabağ Azərbaycandır!

# Ordu quruculuğu prosesi Zəfərə hesablanmışdır



**Təəssüflər olsun ki, 1992-1993-cü illər tariximizin səhifələrinə Qarabağın və ətrafdakı beş rayonun erməni qəsbkarları tərəfindən işğalı kimi yazılmışdı. Bu tarix, bu işğal hər birimizin ürəyini, qəlbini göynədirdi. Ağrı-acılarını yaşadığımız həmin illərdə həm ərazilərimizə, həm də xalqımıza qənim kəsilmiş erməni qəsbkarları dünyanın müxtəlif bölgələrindəki havadarlarına arxalanaraq Kəlbəcər, Laçın, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarını və külli Qarabağı ələ keçirərək odlara qalamışdılar.**

İşğal nəticəsində bir milyondan çox yurddaşımız doğma ocaqlarından didərgin düşmüşdü. Erməni işğalı nəticəsində ata-baba yurdlarını, doğma ocaqlarını itirmiş bu insanlar çadır şəhərciklərində, zavod və fabriklərin inzibati binalarında, tələbə yataqxanalarında, vaqonlarda məskunlaşmış və ağrı-acılarla dolu həyat yaşamağa məhkum edilmişdilər.

Düzdür, sonrakı illərdə dövlətimiz qaçqınlar üçün şəhərciklər salmış, müasir tipli yaşayış binaları tikmişdi. Amma təbiidir ki, bütün bu gözəl, rahat binalar doğma ocaqların istiliyini əvəz edə bilmirdi. Köçkünlər doğma ocaqlarına qayıtmaq arzusu və istəyi ilə yaşayırdılar. Uzun illər didərginlik, köçkünlük həyatı yaşayan kövrək ruhlu bu insanlar günlərin birində geriyə - ata-baba yurdlarına qayıdacaqları günü intizarla gözləyirdilər. İllər hiss olunmadan bir-birinin ardınca durna qatarı kimi ötüb keçsə də, beynəlxalq təşkilatların vasitəçiliyi ilə aparılan danışıqlar səmərədən çox, insanlara mənəvi əzab verirdi. Gedişindən hiss olunurdu ki, sülh danışıqları mənasız yerə baş qatmaqdan, vaxt itirməkdən başqa bir şey deyil. Çünki hansısa ümidverici bir irəliləyiş nəzərə çarpmırdı, erməni işğalçıları ələ keçirdikləri Azərbaycanın əbədi-əzəli torpaqlarından geri çəkilmək istəmirdi. Aparılan sülh danışıqlarından qaçqınları geriyə - doğma ocaqlarına aparacaq yollar görsənmirdi ki, görsənmirdi.

Yurdun xilası, torpaqların işğaldan azad olunması üçün xalqımızın ümid dolu baxışları günü-gündən güclənən Azərbaycan Ordusuna, onun cəsur, vətənpərvər, döyüş hazırlığı yüksək olan zabit və əsgərlərinə dikilmişdi. Yalnız və yalnız Azərbaycan Ordusu düşmənlərə güclü zərbələr vurmaqla torpaqlarımızı işğaldan azad edə bilərdi. Azərbaycan Prezidenti İlham Əliyev Silahlı Qüvvələrimizin daha da gücləndirilməsi, ən müasir silahlarla təmin olunması üçün daim ordu quruculuğuna böyük diqqət və qayğı göstərirdi. Dövlət başçımızın rəhbərliyi altında ordu quruculuğu istiqamətində bir-birindən səmərəli və uğurlu islahatlar həyata keçirilirdi. İldən-ilə orduya ayrılan vəsait artırılırdı. Silahlı Qüvvələrin daha da güclənməsi istiqamətində aparılan quruculuq prosesində dünyanın qabaqcıl, aparıcı ölkələrinin təcrübəsindən səmərəli və yaradıcı şəkildə istifadə olunurdu. Hərbi təhsilə, tədrisə, təminata, təlim-məşqlərin keçirilməsinə böyük önəm verilirdi. Buna görə də ordu quruculuğu prosesi uğurla və yüksələn xətlə gedirdi. Göstərilən qayğı, ayrılan xüsusi diqqət nəticəsində zaman keçdikcə ordumuz qurulub formalaşır, güclənir və qüdrətlənirdi.

Mütəmadi olaraq keçirilən irimiqyaslı təlimlər Silahlı Qüvvələrimizin gücündən, gələcəkdə qazanacağı qələbələrdən xəbər verirdi. İllərdən bəri qurulan, yaradılan ordumuz torpaqlarımızı erməni işğalçılarından azad etməyə qadir və hazır idi. Amma Ali Baş Komandan ərazilərimizin danışıqlar yolu ilə həll olunmasının tərəfdarıydı, qan tökülməsini, insanların həyatlarını itirməsini istəmirdi. İşğalçılıq mövqeyindən geri çəkilməyən düşmən isə bununla razılaşmır, müxtəlif bəhanələrlə sülh danışıqları prosesini pozur, masa arxasına oturmaq istəmir, tez-tez cəbhədə ölümlə nəticələnən təxribatlar törədirdi. Bu təxribatçı hərəkətləri ilə qəsbkarlar bir növ müharibə istədiklərinə, qan-qadanın tərəfində olduqlarına işarə verirdilər. Sülh danışıqlarından yayınmağa və işğalçılıq əməllərini davam etdirməyə, yeni ərazilərimizi ələ keçirməyə çalışırdılar.

Nəhayət, 27 sentyabr 2020-ci ildə torpaqlarımızın azadlığı uğrunda İkinci Qarabağ müharibəsi başladı. Elə ilk günlərdən ermənilərə sarsıdıcı zərbələr vuran rəşadətli Azərbaycan Ordusu Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında bütün istiqamətlərdə erməni qəsbkarlarını geri sıxışdıraraq üstünlüyü ələ aldı. İşğalçılar səngər-səngər, mövqe-mövqe, addım-addım geri sıxışdırıldı. Silahlı Qüvvələrimizin sarsıdıcı əks-hücumları qarşısında duruş gətirə bilməyən düşmənlər ağır itkilər verərək silah-sursatlarını da qoyub qaçırdılar. Uzun illərdən bəri işğalda qalmış torpaqlarımız qəsbkarlardan təmizlənirdi.

Zəfər ovqatlı bu sevindirici xəbərdən gözlərimiz yaşarır, könlümüz şadlanırdı. Zabit və əsgərlərimizin igidliyi və qəhrəmanlığı sayəsində qısa müddətdə bir-birinin ardınca şəhər və kəndlərimiz düşməndən azad edilirdi. 1992-ci və 1993-cü illərdə məğlub kimi çıxdığımız işğal olunmuş torpaqlarımıza 2020-ci ilin payız günlərində qalib kimi dönürdük. Elə-belə yox, qürurla, iftixarla, işğalçıların başını əzə-əzə, məhv edə-edə, şərəf və ləyaqətlə, qələbə ilə dönürdük. Müzəffər Ali Baş Komandanla, güclü, qüdrətli və məğlubedilməz bir orduyla, bir-birindən cəsur zabit və əsgərlərlə qayıdırdıq. Bu cür qürurverici qayıdışımızdan, bu cür şərəfli dönüşümüzdən torpaqlarımızın da üzü gülürdü, çöhrələrimizdən, dodaqlarımızdan, gözlərimizdən təbəssüm süzülürdü. Gücümüzlə, qüdrətimizlə bütün dünyaya göstərirdik ki, bu torpaqların əsl sahibləri işğalçı ermənilər deyil, bizik - azərbaycanlılardır! Azərbaycan Ordusu, Azərbaycan zabiti, Azərbaycan əsgəri Müzəffər Ali Baş Komandanın sərkərdəliyi altında beynəlxalq təşkilatların 28 ildə bacarmadıqlarını 44 gündə böyük cəsarətlə yerinə yetirdi. Ordumuz güclü, qüdrətli olduğunu bir daha düşmənin özünə və havadarlarına açıq-aydın şəkildə göstərdi.

İkinci Qarabağ müharibəsinin elə birinci günündə şanlı Azərbaycan Ordusu düşməni ağır məğlubiyyətə uğratdı. Qəsbkarlara ağrı-acılarla, itkilərlə, qan-qada ilə dolu günlər yaşatdı. Uğurla başa çatan döyüşlər zamanı işğalçılardan külli miqdarda silah-sursat, xeyli sayda işlək vəziyyətdə olan döyüş texnikası qənimət kimi götürüldü. Qənimət kimi götürülən işlək texnikalardan başqa da sərrast atəşlə qəsbkarların yüzlərlə zirehli texnikasının, silah-sursat anbarlarının külü göyə sovrulurdu. Azərbaycan əsgəri 44 günlük Vətən müharibəsində cəsarəti və hünəri ilə kimin güclü və məğlubedilməz olduğunu döyüşlərdə açıq-aydın şəkildə göstərdi.

Azərbaycan Ordusu Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında 27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində başlayan İkinci Qarabağ müharibəsini böyük Zəfərlə başa vurdu. Ordumuz döyüşlərdə qazandığı Zəfərləri ilə Azərbaycan xalqına böyük sevinc, fərəh yaşatdı, başucalığı gətirdi. Bu Zəfər sevinci ürəklərdən, qəlblərdən heç vaxt silinməyəcək. Həmişə qürur və iftixarla xatırlanacaq.

*V.MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# ƏÜO-da "Komando başlanğıc kursu"nun növbəti buraxılış mərasimi keçirilib

**Əlahiddə Ümumqoşun Orduda (ƏÜO) "Komando başlanğıc kursu"nun növbəti buraxılış mərasimi keçirilib.**

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Çıxış edənlər kursu müvəffəqiyyətlə bitirən məzunları təbrik edib, hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin yüksəldilməsi və bölmələrin döyüş qabiliyyətinin artırılmasında bu cür kursların əhəmiyyətini vurğulayıblar.

Kursu müvəffəqiyyətlə bitirən məzunlar "Komando andı"nı qəbul ediblər.

Sonra kurs birincisi tərəfindən yaş kötüyünə rəmzi emblem vurulub.

Buraxılış mərasiminin sonunda şəxsi heyət təntənəli marşın sədaları altında tribunanın önündən keçib.

## "Böyük qayıdış" proqramı sürətlə icra olunur

# Növbəti köç karvanı Horovlu kəndinə çatıb








"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, Cəbrayıl rayonu Horovlu kəndinə növbəti köç prosesi gerçəkləşib, səhər saatlarında yola salınan ailələr doğma yurdlarına qovuşub.

AZƏRTAC xəbər verir ki, Cəbrayıl rayonu Horovlu kəndi bu gün 18 ailə olmaqla 66 nəfərə qucaq açıb. Ailələr yenidən qurulan kəndə sevinc göz yaşları ilə qədəm qoyub və öz doğma yurduna qovuşaraq yaradılan gözəlliyi seyr ediblər. Onlar respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

Qeyd edək ki, kəndin ümumi sahəsi 248 hektardır.

Birinci mərhələdə 94 hektar ərazidə 334 fərdi ev inşa edilib. Evlər 2, 3, 4, 5 otaqlıdır və müasir kommunikasiya şəbəkəsi -su, işıq, qaz, Günəş panelləri, yüksəksürətli internetlə təmin olunub. Kənddaxili yollara asfalt döşənib. 624 şagird yerlik məktəb binasının, 220 yerlik körpələr evi-uşaq bağçasının, ikimərtəbəli inzibati binanın, bazar kompleksinin, çoxfunksiyalı iaşə obyektlərinin, tibb məntəqəsinin və idman-sağlamlıq mərkəzinin tikintisi həyata keçirilib. Kənddə tarixən istifadə olunmuş, işğal dövründə dağıdılmış "Əsgər", "Şığı", "Orta", "Gülqasım" və "Xəlifə" kəhrizləri bərpa edilib. Horovlu kəndində 4,4 hektar ərazidə park kompleksi də inşa olunub. Eyni zamanda Bayraq meydanından bazar kompleksinə qədər gəzinti yolları salınıb. 3,1 hektar yaşıllıq ərazisində zeytun, çinar və Eldar şamı ağacları əkilib.

Növbəti köç karvanı ilə Horovlu kəndinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

Cəbrayıl rayonu Horovlu kəndinə köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər. Ailələr açarları sevinclə qəbul edərək öz evlərində məskunlaşıblar.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

# Horovluya qayıdan sakinlərin sevinc dolu günləri

**Uzun illlərdən sonra öz yurduna qayıdan Horovlu sakinləri bu günləri həm sevinc, həm də qürurla qarşılayır. Kəndə yenidən həyat qayıdıb, inşa olunan yeni evlər, bərpa olunan kəhrizlər, qurulan məktəb və bağça insanların illərdir həsrətlə gözlədiyi doğmalığı yenidən canlandırıb.**







AZƏRTAC-ın bölgə müxbiri Horovlu sakinlərinin sevinc hisslərini qələmə alıb.

Horovlu sakini Yamil Cəfərov da bu gün doğma kəndə qədəm qoyan sakinlərdəndir. "Kənddən çıxanda 12 yaşım var idi. Uşaqlıq xatirələrim yarım qalmışdı, amma indi övladlarımla birlikdə qayıtmışam. Horovlu kəndinin xoşbəxt günləri yenidən başlayıb. Horovlu bizi çox gözəl qarşıladı, kəndə daxil olanda bir anlıq bütün xatirələrim canlandı. Düşünürəm ki, bizim yarım qalan uşaqlığımızı övladlarımız yaşayacaq. Onlar da ata-baba yurdlarına qürur hissi ilə gəliblər. Doğma torpağımıza qovuşacağımız günə hər zaman inamla yanaşdıq və bu gün o inam gerçəyə çevrildi. Kəndimizdə çox gözəl şərait yaradılıb, hətta kəhrizlərimiz belə bərpa olunub. Ali Baş Komandanın rəhbərliyi ilə qalib Azərbaycan Ordusu, sözün əsl mənasında, tarix yazdı və otuzillik həsrətə son qoyuldu. Allah şəhidlərimizə rəhmət etsin, qazilərimizə şəfa versin".

Çiçək İsmayılova da uşaq vaxtı çıxdığı kəndə öz övladları ilə qayıdıb. "Otuz ildən çox idi ki, biz doğma kəndimizdən məcburi köçkün düşmüşdük. Amma bir an belə inamımı itirmədim və kəndimizə qayıdacağım günü səbirsizliklə gözləyirdim. Bu gün ən böyük arzum gerçəkləşdi, Horovluya qayıtdıq. Kəndimiz çox gözəlləşib, övladlarımla birlikdə gəldik, onlara illərlə kəndimiz barədə danışmışdım. İndi isə burada hər şey daha da abadlaşıb, yeni evlər tikilib, məktəb və bağça inşa olunub, kəhrizlərimiz bərpa edilib. Bu torpaqlar bizim üçün artıq daha da müqəddəsdir, çünki qəhrəman oğullarımız öz canları bahasına yurdumuzu azad ediblər. Müzəffər Ali Baş Komandan İlham Əliyev başda olmaqla Azərbaycan Ordusuna təşəkkür edirik. Allah şəhidlərimizə rəhmət etsin, qazilərimizə şəfa versin".

Qeyd edək ki, bu mərhələdə Horovlu kəndinə 18 ailə olmaqla 66 nəfər köçürülüb. Bununla da Horovlu kəndində 150 ailə olmaqla 607 nəfərin məskunlaşması təmin olunub.

# Şuşada Ekoloji məsələlər üzrə İşçi qrupun iclası keçirilib

Şuşa şəhərində Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə İşçi qrupunun növbəti iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclasda İşçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri, Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Ağdərə, Xocalı, Xocavənd rayonlarında və Xankəndi şəhərində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərinin, eləcə də bərpa, tikinti və idarəetmə xidmətlərinin nümayəndələri iştirak edib.

İclasda İşçi qrupun üzvləri və dəvət olunan digər qurumların nümayəndələri tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastruktur layihələri həyata keçirilərkən və yaşıllıqların götürülməsi zamanı ekoloji tələblərin icra vəziyyəti, yer təkindən istifadə sahəsində görülən işlər, filiz, qeyri-filiz, şirin və termal mineral su yataqlarının, kəhrizlərin mövcud vəziyyəti və onlardan istifadə perspektivləri, təhlükəsiz bərk tullantıların idarə olunması ilə bağlı görülmüş işlər və bu sahədə idarəetmənin təkmilləşdirilməsi haqqında, bu ərazilərdə ekoloji pozuntuların qarşısının alınması istiqamətində görülən işlər haqqında iclas iştirakçılarına məlumat verilib.

İclasda iştirak edən digər qurumların nümayəndələri tərəfindən infrastruktur layihələri həyata keçirilərkən ekoloji icazələrlə bağlı qaldırılan məsələlər və müvafiq qurumlar arasında kommunikasiyanın gücləndirilməsi, fəaliyyətin əlaqələndirilməsi məqsədilə Əlaqələndirmə Qərargahı tərəfindən verilmiş tapşırıqların icrası ilə bağlı məsələlər müzakirə edilib.




## "Caviar"ın lüks "iPhone" kolleksiyası

Lüks smartfon modifikasiyaları ilə tanınan "Caviar" brendi 2025-ci il üçün yenilənmiş "Gizli Sevgi" ("Secret Love") kolleksiyasını təqdim edib. Bu kolleksiya "iPhone 17 Pro" və "iPhone 17 Pro Max" modellərini unikal dizayn elementləri ilə bəzəyərək onları sadəcə elektron qurğu deyil, yüksək dəyərli zərgərlik əsərinə çevirir. Seriya cəmi 19 ədəd smartfonla məhdudlaşdırılıb ki, bu da kolleksiyanın eksklüziv xarakterini daha da gücləndirir.

Caviar bu dəfə bir neçə fərqli tərzdə dizaynlar təqdim edib. "Zümrüd Ağacı" ("Emerald Tree") modeli tünd yaşıl premium dəri, qızıl ornamentlər və büllur detallar ilə qış festivalı atmosferini əks etdirir. Bu model kolleksiyanın ən parlaq vizual ifadələrindən sayılır.

Seriyanın ən zərif və incə əsərlərindən biri isə "Kameliya Çiçəyi" ("Camellia Flower") modelidir. Gümüşü oyma kameliya fiquru, sədəf anası inkrustasiyası və 24 karatlıq qızıl detallar bu telefonu bir növ əl işi sənət nümunəsinə çevirir. Kolleksiyadakı digər cihazlar isə karamellə uyğunlaşdırılmış yumşaq dəri, qızılı örtüklü dekorativ ürək fiqurları və əl işi həkk olunmuş elementlərlə tamamlanır.



Cihazların qiymətləri model və istifadə edilən materiallara görə dəyişir.

## Məşhur oyun artıq smartfonlarda




"Netflix" oyun sektorundakı mövqeyini gücləndirməyə davam edir. Şirkət bu dəfə uzun müddətdir sevilən "Red Dead Redemption" oyununu iOS və Android platformaları üçün istifadəyə verib. İlk dəfə rəsmi şəkildə mobil cihazlara gətirilən oyun abunəçilər üçün əlavə ödəniş olmadan əlçatan olacaq.

Mobil versiyada toxunma əsaslı idarəetmə sistemi yenidən qurulub, nişan alma və hərəkət mexanizmləri mobil oyunçular üçün optimallaşdırılıb. Lakin bəzi məhdudiyyətlər də mövcuddur. Oyun multiplayer rejimini dəstəkləmir və oynamaq üçün daimi internet bağlantısı tələb edilir.

"Netflix Games" uzun müddət abunəçilər tərəfindən az maraq görsə də, vəziyyət 2024-cü ildən etibarən dəyişib. Sektor analitikləri bildirirlər ki, 2024-cü ildə Netflix oyunlarının yüklənməsi 180 faiz artıb, bu da şirkətin oyuna yönəlmiş strategiyasının uğurlu olduğunu göstərir. "Red Dead Redemption" kimi yüksək reytinqli bir oyunun mobil kataloqa əlavə olunması isə bu strategiyanın növbəti böyük addımı sayılır.

## "PlayStation 5" yenilənib



"Sony" şirkəti "PlayStation 5" oyun konsolunun yenilənmiş versiyasını təqdim edib. Əsas dəyişikliklər cihazın soyutma sistemində özünü göstərir. Yeni model maye metal əsaslı termal doldurucu ilə təchiz olunub. Bu material həm istilik ötürülməsini yaxşılaşdırır, həm də termal sızma ehtimalını minimuma endirir.

Bundan əlavə, konsolda istifadə olunan termoplastik elementlərin quruluşu təkmilləşdirilib. "Sony"dən bildirilib ki, bu dəyişikliklər cihazın uzunmüddətli istismarında mümkün sıradan çıxma riskini əhəmiyyətli dərəcədə azaldacaq. Beləliklə, oyunçular daha sabit performans və daha səssiz soyutma əldə edəcəklər.

## "Mocap" texnologiyası ilə bağlı mübahisələrə aydınlıq gətirilib

"Avatar: Fire and Ash" filminin nümayişi ərəfəsində rejissor Ceyms Kemeron "mocap" (motion capture) texnologiyası ilə bağlı ictimaiyyət arasında yayılan yanlış fikirlərə münasibət bildirib. Kemeronun sözlərinə görə, bir çox insan "mocap"ı generativ süni intellektlə qarışdırır.




Rejissorun fikrincə, "mocap" aktyorun hər bir hərəkətini, üz ifadəsini və emosiyasını dəqiq şəkildə rəqəmsal modellərə ötürür. Yəni bu texnologiya aktyoru əvəz etmir, əksinə, onun performansını daha da qabardır. Generativ süni intellekt isə əksinə, mövcud olmayan yeni obrazlar və aktyor performansları yarada bilir. Kemeron bunu təhlükəli tendensiya kimi qiymətləndirir.

## Havadan içməli su əldə ediləcək




Çinli tədqiqatçılar su qıtlığı ilə mübarizə aparan regionlar üçün mühüm sayılan yeni texnologiya hazırlayıblar. Onların yaratdığı sistem atmosferdən birbaşa içməli su əldə etməyə imkan verir. Texnologiyanın əsasını kondensasiya, absorbsiya və istilik nasosu metodları təşkil edir.

Bu yenilik xüsusi ilə infrastrukturun zəif olduğu, şirin su mənbələrinin qeyri-sabitlik göstərdiyi ərazilər üçün nəzərdə tutulub. Günəş enerjisi ilə işləyən avtonom stansiya kiçik avtobus dayanacağı ölçüsündədir və 15-40 dərəcə temperatur intervalında, 35-99 faiz rütubət səviyyəsində fasiləsiz fəaliyyət göstərə bilir. Qurğu bir gün ərzində 50 litrədək içməli su istehsal edir.

Mütəxəssislər hesab edirlər ki, bu texnologiya gələcəkdə quraqlıq və iqlim dəyişikliyi ilə bağlı problemlərin həllinə ciddi töhfə verə bilər.

## "Samsung"dan üçqat qatlanan smartfon



"Samsung" uzun müddətdir gözlənilən üçqat qatlana bilən smartfonunu rəsmi şəkildə təqdim edib. "Galaxy Z Trifold" şirkətin indiyədək istehsal etdiyi ən iddialı mobil cihazlardan biri kimi qiymətləndirilir. Cihazın Cənubi Koreyada satışa çıxma tarixi bu il 12 dekabr, ABŞ üçün isə 2026-cı ilin ilk rübüdür.

Smartfon tam açıldıqda cəmi 3,9 mm, qatlandıqda isə 12,9 mm qalınlığa sahibdir. Kamera sistemi də premium səviyyədədir. Həm örtük ekranında, həm də daxili 10 düymlük ekranda kamera yerləşdirilib.

10 düymlük geniş ekran sayəsində cihaz "Samsung"un "DeX" rejimini dəstəkləyir və eyni anda 20 tətbiqi idarə etməyə imkan verir. Alternativ olaraq, ekran üç ayrı 6,5 düymlük bölmə kimi də istifadə oluna bilər. Smartfon "Snapdragon 8 Elite Mobile Platform for Galaxy" prosessoru, 16GB RAM və 512GB yaddaşla təchiz edilib.

## 2025-ci ilin ən yaxşı "Chrome" genişlənmələri

"Google" bu il üçün ən faydalı "Chrome" genişlənmələri siyahısını təqdim edib. Siyahıda əsas diqqəti süni intellekt imkanlarının brauzer genişlənmələrinə tam inteqrasiya olunması çəkir. "Monica" və "Sider" kimi alətlər veb səhifələri və videoları avtomatik şəkildə xülasələyir, istifadəçiyə məzmunu daha sürətli anlamağa kömək edir. "QuillBot" isə yazı ilə çalışanlara mətni redaktə etmək və yeni mətn yaratmaq imkanı verir. Dil öyrənənlər üçün "eJOY" interaktiv söz ehtiyatı artırma funksiyaları ilə seçilir.

Şirkət yalnız süni intellekt əsaslı alətləri deyil, həm də "Adobe Photoshop" genişlənməsini xüsusi qeyd edib. Bu genişlənmə istifadəçilərə brauzerdən çıxmadan əsas şəkil redaktə funksiyalarını yerinə yetirməyə imkan verir.

## "Amazon"nun yeni "Scribe" seriyası



"Amazon" yenilənmiş "Kindle Scribe" və yeni "Kindle Scribe Colorsoft" elektron kitab modellərinin dekabrın 10-da satışa çıxarılacağını açıqlayıb. Yeni nəsil cihazlar 11 düymlük ekran, cəmi 5,4 mm qalınlıq və 400 qram çəki ilə daha yüngül və daha erqonomik dizayn təklif edir. Ekranlarda istifadə edilən "teksturalı qəliblənmiş şüşə" qələm sürtünməsini artıraraq yazı təcrübəsini kağıza daha yaxınlaşdırır.

Yeni modellər gücləndirilmiş maqnitli qələmlə təchiz olunub. Ön işıqlı versiyalarda daha kiçik LED-lərlə hazırlanmış yeni işıqlandırma sistemi istifadə edilib.

*Hazırladı:*
***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Azərbaycanın vətəndaş cəmiyyətinin nümayəndələri Avropa İttifaqının rəsmi şəxslərinə açıq məktub ünvanlayıblar

**Azərbaycanın vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasa, Aİ-nin Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Maqdalena Qronoya və ittifaqın ölkəmizdəki nümayəndəliyinin rəhbəri Mariyana Kuyundziçə müraciət ünvanlayıblar.**



AZƏRTAC xəbər verir ki, müraciətdə erməni terrorçu Monte Melkonyanın adını daşıyan Ermənistan Hərbi-idman liseyinin Avropa İttifaqının Hərbi Orta Məktəblər Forumuna qoşulması ilə bağlı xəbərin Azərbaycan ictimaiyyətində geniş çaşqınlıq və narazılıq doğurduğu vurğulanıb. Qeyd edilib ki, təhlükəsizlik, ortaq dəyərlər və məsuliyyətli idarəçilik prinsiplərini qoruduğunu iddia edən Avropa Təhlükəsizlik və Müdafiə Kollecinin himayəsi altında fəaliyyət göstərən forumun bu qərarı Avropanın dəstəklədiyi bütün platformalardan ədalət və hesabatlılıq gözləyən Azərbaycanın itkin ailələrində Aİ-nin öz prinsiplərinə sadiqliyinə dair ciddi suallar yaradıb.

Qeyd olunub ki, Cenevrədə BMT Ofisinin qarşısında səssiz aksiya keçirən və onilliklər ərzində yaşadıqları faciəyə dünyanın diqqət ayırmağa başladığını düşünən Qarabağın itkin ailələrinin terrorçu qrup hesab edilən bir qurumun üzvü olan və hərbi cinayətkar sayılan Monte Melkonyanın adını daşıyan məktəbin Aİ-yə bağlı bir foruma qəbul edilməsindən dərindən məyus olublar.

Müraciətdə Monte Melkonyanın 1990-cı illərdə Azərbaycanın Kəlbəcər rayonunda son dərəcə amansız hərbi əməliyyatlarda iştirak etməsinə, ağır cinayətlər törətməsinə baxmayaraq, Ermənistanda hələ də açıq şəkildə qəhrəmanlaşdırıldığı diqqətə çatdırılıb. Onun bu cinayətləri ötən əsrin 70-80-ci illərində Avropanın bir sıra ölkələrində türk diplomatlara və onların ailə üzvlərinə qarşı terror hücumları həyata keçirən ASALA terror təşkilatı ilə əlaqələrindən sonra törətməsi xüsusi vurğulanaraq, bu faktların M.Melkonyanın uzun müddət militant fəaliyyətlərdə iştirakının bariz göstəricisi olduğu bildirilib.

Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri M.Melkonyanın adını daşıyan Hərbi-idman liseyinə forumun üzvlük statusunun verilməsinə dair memorandumun yaxın günlərdə imzalanacağının gözlənildiyini vurğulayaraq, bəzi məsuliyyətsiz Aİ rəsmilərinin bu terrorçunun Azərbaycan xalqı üçün nə ifadə etdiyini bilmədikləri təqdirdə onları M.Melkonyanın Kəlbəcər rayonunun işğalı dövründə çəkilmiş videogörüntülərinə baxmağa çağırıblar.

Müraciətdə həmçinin Ermənistan tərəfindən Azərbaycan ərazilərinin silahlı işğalında iştirak edən və ciddi hərbi cinayətlərdə təqsirləndirilən şəxslərin, o cümlədən Monte Melkonyanın hələ də qəhrəmanlaşdırılması, Aİ-nin Azərbaycanla bağlı, xüsusilə də ərazi bütövlüyü və dövlət suverenliyinə dair məsələlərdə ikili yanaşmanı davam etdirməsi təəssüf hissi ilə vurğulanıb.

"Xüsusilə Azərbaycanın itkin düşmüş şəxslərinin ailələri soruşurlar: irsi və fəaliyyəti qətliamlarla əlaqələndirilən Monte Melkonyanın adını daşıyan bir qurum Aİ tərəfindən dəstəklənən bir platformada necə təşviq oluna bilər? Biz Avropa İttifaqını bu hörmətsiz addımı yenidən nəzərdən keçirməyə və terrorçunun adını daşıyan bir qurumla bağlanmış razılaşmanı ləğv etməyə çağırırıq", - deyə müraciətdə qeyd olunub.

Müraciəti ünvanlayanlar Mariyana Kuyundiç ilə görüşərək Avropa Komissiyasının Monte Melkonyan kimi terrorçunu necə və nə üçün qəhrəmanlaşdırması barədə izahat verməsini tələb ediblər.

Müraciəti Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin sədri Ramil İskəndərli, "İnsan Hüquqlarının Təşviqi Mərkəzi" İctimai Birliyinin İdarə Heyətinin sədri Əmir Əliyev, "Konstitusiya" Araşdırmalar Fondunun rəhbəri Əliməmməd Nuriyev, "Qarabağ İtkin Ailələri" İctimai Birliyinin sədri Könül Behbudova, "Çapar - Milli İrsin Tədqiqi Mərkəzi" İctimai Birliyinin sədri Dilqəm Əhməd, "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Əlizadə, "Vətən Naminə" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Tünzalə Abduləlimova, "Şəhid Analarına Dəstək" İctimai Birliyinin sədri Ceyran Həsənova, Azərbaycan Jurnalistlər Şəbəkəsi İctimai Birliyinin sədri Ayaz Mirzəyev və "Ortaq Dəyərlər" İctimai Birliyinin sədri Aqil Camal imzalayıblar.

# *Vladimir PUTİN:* "Ukrayna qoşunları çıxmasa, Rusiya Donbası güclə ələ keçirəcək"

## ABŞ-nin isə sülh səyləri hələlik nəticə verməsə də, davam edir

**Rusiya Prezidenti Vladimir Putin xəbərdarlıq edib ki, Kiyev Şərqi Donbası təslim etməsə, qoşunlar onu güclə ələ keçirəcək.**



V.Putinin bu sözləri Amerika diplomatiyasının təşəbbüsü ilə keçirilən bir sıra görüşlərdən sonra səslənib. Donald Trampın səyləri isə növbəti dəfə hər iki tərəfdən qəbuledilməz tələblərlə qarşılaşıb. Kreml bildirib ki, ABŞ ilə Ukrayna mövzusunda danışıqlar konstruktiv olub, lakin heç bir kompromis tapılmayıb. Öz növbəsində Avropa V.Putini ABŞ ilə danışıqlardan sonra Ukraynada sülhə "saxta maraq" göstərməkdə günahlandırıb.

Xəbər verildiyi kimi, çərşənbə axşamı Rusiya Prezidenti V.Putin Donald Trampın xüsusi elçisi Stiv Uitkoff və ABŞ Prezidentinin kürəkəni Cared Kuşner ilə beşsaatlıq danışıqlar aparıb. V.Putin onları "zəruri və faydalı", eyni zamanda "çətin iş" adlandırıb və Vaşinqtonun bəzi təkliflərini qəbuledilməz hesab edib: "Demək olar ki, hər bir məqamı nəzərdən keçirməli olduq, buna görə də bu qədər vaxt apardı. Bu, çox konkret və əsaslı bir söhbət idi. Bəzən deyirdik ki, bəli, bunu müzakirə edə bilərik, amma buna razı ola bilmərik.

Donald Tramp isə öz növbəsində S.Uitkoff və C.Kuşnerdə Vladimir Putinin razılaşmaq istədiyinə dair güclü təəssürat yarandığını söyləyib. V.Putin isə Rusiyanın nəyi qəbul və ya rədd edə biləcəyi ilə bağlı detalları açıqlamaqdan imtina edərək sadəcə ABŞ-nin ilk 28 maddəlik sülh təklifinin 27-yə endirildiyini və 4 paketə bölündüyünü bildirib.

Bu fonda ABŞ-nin rəhbərlik etdiyi danışıqlar prosesindən kənarda qalmış hiss edən Avropa liderləri V. Putini Trampın sülh təşəbbüsünə qeyri-səmimi yanaşmaqda günahlandırıblar.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Müvafiq qanunvericiliyə əsasən imtiyazlı kateqoriyadan olan şəxslərə sanatoriya-kurort putyovkalarının (yollayışların) alınması" adlı təkrar müsabiqə keçirir

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 18 dekabr 2025-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 19 dekabr 2025-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5032)**

***Müsabiqə komissiyası***



## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 09.12.2025-ci il tarixində gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra xidmətlərdən tam normal əsaslarla istifadə edilməsi imkanı təmin ediləcəkdir.




# Bilmək istəyirəm

***Yol Patrul Xidməti əməkdaşı tərəfindən saxlanılan minik avtomobilində oxlar üzrə ağırlıq kütləsinin düzgün paylanmadığı hansı texniki üsul və ölçmə vasitələri ilə müəyyən edilməlidir? Bu hal aşkarlandıqda polis əməkdaşı nəqliyyat vasitəsinin hərəkətdən kənarlaşdırılması və duracağa yerləşdirilməsi barədə qərarı hansı maddələrə əsasən qəbul edir?***

***Turan QƏNBƏRLİ,***
***Bakı şəhəri***

- Minik avtomobilində oxlar üzrə ağırlıq kütləsinin düzgün paylanıb-paylanmaması nəqliyyat vasitəsinin xüsusi texniki vasitələrlə, yəni nəzarət məntəqəsində quraşdırılmış ölçmə avadanlıqları ilə, nəqliyyat vasitəsini idarə edən şəxsin iştirakı ilə ölçülür və nəticələr real vaxt rejimində mərkəzi informasiya sisteminə ötürülür. Bu texniki üsul və ölçmə vasitələri qanunvericilikdə xüsusi olaraq nəzərdə tutulmuşdur və yalnız müvafiq icra hakimiyyəti orqanının əməkdaşları tərəfindən tətbiq edilir. Əgər oxlar üzrə kütlənin normadan artıq olduğu aşkar edilərsə, Yol Patrul Xidməti əməkdaşı nəqliyyat vasitəsinin hərəkətdən kənarlaşdırılması və duracağa yerləşdirilməsi barədə qərarı İnzibati Xətalar Məcəlləsinin 96.1.7, 97.1 və 353.2-ci maddələrinə əsasən qəbul edir. Bu halda nəqliyyat vasitəsi müvəqqəti olaraq ən yaxın mühafizə olunan duracağa yerləşdirilir və inzibati protokol tərtib olunur. Praktikada bu, normadan artıq yük aşkarlandıqda, yükün boşaldılması və ya digər nəqliyyat vasitəsinə daşınması təmin edilənədək avtomobilin hərəkətinin məhdudlaşdırılması deməkdir. Müvafiq texniki üsul və ölçmə vasitələrinə dair tələblər dövlət standartları ilə müəyyən olunur.

***Bizim ailəyə məxsus olan yaşayış evi və torpaq sahəsi keçmişdə hər hansı rəsmi sənəd olmadan babama verilib. Necə deyərlər, kişi sözü möhür olub. Sonradan həmin ərazidə ev tikilib, mülkiyyət faktiki olaraq o zamandan bəri ailəmizin istifadəsində olub və kommunal xidmətlər atamın adına rəsmiləşdirilib. Qeyd edim ki, həmin ünvanda qeydiyyatımız mövcuddur. Lakin evin və torpaq sahəsinin mülkiyyət sənədi (çıxarış) yoxdur. Atamın vəfat etməsi ilə əlaqədar mən bu əmlakın mülkiyyət hüququnu rəsmiləşdirib çıxarış almaq istəyirəm. Bunun üçün hansı prosedurları həyata keçirməliyəm: hara müraciət etməliyəm, hansı sənədləri toplamalıyam?***

***Şamil KƏRİMOV,***
***Bakı şəhəri***

- Bildiririk ki, daşınmaz əmlakın (yaşayış evi və torpaq sahəsi) mülkiyyət hüququ yalnız daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatla təsbit edilir və bu hüququn rəsmiləşdirilməsi üçün hüquqmüəyyənedici sənədlər tələb olunur. Əgər rəsmi mülkiyyət sənədi yoxdursa, vərəsə ilk növbədə, miras hüququnu təsdiq edən şəhadətnamə almalıdır. Bunun üçün vəfat etmiş şəxsin son qeydiyyatda olduğu yer üzrə notariusa müraciət edilməli, ölüm haqqında şəhadətnamə, ailə tərkibi və nikahı təsdiq edən sənədlər, həmçinin əmlakın faktiki istifadəsini və ailənin qeydiyyatını təsdiq edən arayışlar təqdim olunmalıdır. Əgər daşınmaz əmlakın hüquqmüəyyənedici sənədləri, ümumiyyətlə, yoxdursa və ya bərpası mümkün deyilsə, vərəsə məhkəməyə müraciət edərək əmlak üzərində faktiki sahiblik və istifadə faktının müəyyən edilməsini tələb edə bilər. Məhkəmə qərarı hüquqmüəyyənedici sənəd kimi çıxış edə bilər və bu qərar əsasında daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat aparılır və çıxarış verilir. Torpaq sahəsi və fərdi yaşayış evi üçün isə yerquruluşu işlərinin aparılması, torpaqayırma sənədlərinin hazırlanması və daşınmaz əmlakın dövlət reyestrindən çıxarış alınması üçün Əmlak Məsələləri Dövlət Xidmətinə ("ASAN xidmət" mərkəzi və ya müvafiq dövlət orqanı) müraciət edilməlidir. Burada vərəsəlik şəhadətnaməsi, məhkəmə qərarı (əgər hüquqmüəyyənedici sənəd yoxdursa), əmlakın planı və ölçüsü, şəxsiyyət vəsiqəsi və digər tələb olunan sənədlər təqdim olunmalıdır. Qısaca olaraq, ilkin mərhələdə notariusa vərəsəlik üçün, hüquqmüəyyənedici sənəd yoxdursa, məhkəməyə, daha sonra isə daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat üçün Əmlak Məsələləri Dövlət Xidmətinə müraciət edilməlidir.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**


## "Yelo Bank" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə

**"Yelo Bank" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının Növbədənkənar Ümumi Yığıncağı 13 yanvar 2026-cı il saat 11:00-da keçiriləcək.**

**Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, Həsən bəy Zərdabi prospekti, 81 K**

**İclasın gündəliyinə daxil olan məsələlər:**

1. Yığıncağın gündəliyində duran cari və təşkilati məsələlərə baxılması;
2. Nizamnaməyə əlavə və dəyişikliklərin olunması ilə əlaqədar Nizamnamənin yeni redaksiyada təsdiq olunması.

Yığıncaqda iştirak etmək üçün şəxsiyyət vəsiqəsi və müvafiq səlahiyyət təsdiqedici sənədlər təqdim olunmalıdır.

Səhmdarlar yığıncağın gündəliyində nəzərdə tutulmuş məsələlər üzrə materiallarla bankın Bakı şəhəri, Həsən bəy Zərdabi prospekti, 81 K ünvanında yerləşən Baş Ofisi ilə əlaqə saxlamaqla tanış ola bilərlər.

***İdarə Heyəti***



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4131**
**Sifariş 2457**

**Qiyməti 60 qəpik**